Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 31 (8054) CÜMƏ, 8 fevral 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İmdada yenə İLHAM ƏLİYEV çatdı











İlham Əliyevin Şamaxıya dünənki səfərinin ən mühüm məqamı, şübhəsiz ki, yalnız zəlzələnin fəsadlarını yerindəcə öyrənmək deyildi. Bu səfər ümumilikdə Prezidentin idarəçilik fəlsəfəsinin məntiqi təzahürü idi. Dövlət başçısı daim ölkədə baş vermiş ekstremal proseslərə çevik münasibət bildirib, hadisə yerinə şəxsən baş çəkib və bu prosesdə insanların maraqlarının qorunmasını ön plana çəkib, ən nəhayət, vətəndaş mənafeyinə həssas münasibətin mükəmməl nümunəsini yaradıb.

## Nümunəyə çevrilən çevik reaksiya

Prezidentin Şamaxıdakı dünənki görüşlərinin, söhbətlərinin, yerindəcə verdiyi tapşırıqların və Bakıya dönüşündə bu barədə qəbul etdiyi qərarların timsalında biz bu mükəmməl örnəyi bir daha gördük.

Bir zəruri xatırlatma da edək. Hələ 2004-cü ilin yanvarında dövlət başçısı səlahiyyətlərinin icrasına başladıqdan iki ay sonra Lənkəran şəhərində yaşayış binasının uçmasına çevik reaksiya göstərmiş, dərhal hadisə yerinə getmiş, zərərçəkənlərə maddi yardım göstərilməsi üçün tapşırıqlar vermişdi. Həmçinin Prezidentin 2005-ci ilin iyun ayında metronun "İçərişəhər" stansiyasının eskalatorundakı nasazlıq üzündən ciddi xəsarətlər almış vətəndaşlara, eləcə də həmin ilin dekabrında təyyarə qəzasında həlak olanların yaxınlarına və yaralananlara zəruri yardımlar edilməsi barədə göstəriş verməsi də bu silsilədə xüsusi xatırlanır.

2007-ci ilin avqustunda Yasamal rayonu ərazisində Murtuza Muxtarov və Məhəmməd Naxçıvani küçələrinin kəsişməsində insan tələfatı ilə nəticələnən hündürmərtəbəli binanın uçması da hər kəsin yadındadır. Həmin hadisə ilə bağlı həlak olanların yaxınlarına və yaralananlara ən böyük mənəvi dəstək İlham Əliyevdən gəldi. Prezidentin şəxsən hadisə yerinə gəlməsi, xilasetmə işlərinin sürətləndirilməsi, həlak olanların və yaralıların ailələrinə kömək göstərilməsi barədə tapşırıqlar verməsi dövlət başçısının hər bir vətəndaşın taleyinə həssaslıqla yanaşmasının, diqqət və qayğısının növbəti təcəssümü idi. Qəzanın səbəblərinin araşdırılması ilə bağlı göstərişlərini verən Prezident elə həmin gün hadisə ilə əlaqədar hökumət komissiyasının yaradılması haqqında sərəncam imzaladı.

2010-cu ilin may ayında Sabirabad və Saatlı rayonlarında Kür çayında suyun miqdarının normadan xeyli artması nəticəsində yaranan ciddi problemlər də yaxşı yadımızdadır. 20 minə yaxın ev su altında qalmış, 300-dən çox ev uçmuş, 2 min ev qəzalı vəziyyətə düşmüşdü. 50 min hektar əkin və örüş sahələri, bir çox sosial strukturların binaları su altında qalmışdı. Prezident İlham Əliyevin o zaman sel fəlakəti yaşanan rayonlara baş çəkməsi, müşavirə keçirməsi dövlət başçısının yaranmış problemdən zərər çəkən insanlara həssas münasibətinin bir daha nümayişi oldu. Həyata keçirilən operativ tədbirlər nəticəsində qısa zamanda çaylarda daşqınların qarşısı alındı. Sonrakı mərhələdə bütün uçmuş evlərin, sosial obyektlərin yerinə təzələri tikildi, yeni yollar salındı.

2012-ci ilin may ayında şimal-qərb bölgəsində baş verən zəlzələdən xəsarət alanlara ən böyük dəstək Prezident İlham Əliyevdən gəldi. Prezidentin zəlzələdən zərər çəkmiş bölgənin sakinləri ilə görüşmək və təbii fəlakətin nəticələrinin aradan qaldırılması ilə bağlı görülən tədbirlərlə yerində tanış olmaq üçün şimal-qərb bölgəsinə səfəri bir daha göstərdi ki, hər bir məsələ dövlət başçısının şəxsi nəzarəti altındadır.

## Əsl liderlik örnəyi

Bütün bunlar göstərir ki, İlham Əliyev hər zaman mövcud gerçəklikləri operativ və obyektiv şəkildə qiymətləndirib, habelə ölkənin taleyüklü problemlərinə daim böyük həssaslıqla yanaşıb. Bir neçə gün əvvəl Şamaxı rayonu ərazisində baş verən zəlzələdən sonra hadisəyə çevik reaksiya verməklə Prezident növbəti dəfə əsl liderlik örnəyi göstərdi.

Xatırladaq ki, yeraltı təkanlar fevralın 5-də axşam saatlarında Pirqulu stansiyasından 11 kilometr cənub-qərbdə baş verib. Zəlzələ episentrdə 6 bal, ətraf rayonlarda 5-3 bala qədər hiss edilib. Hadisəni diqqət mərkəzində saxlayan Prezident İlham Əliyev dərhal baş vermiş zəlzələnin fəsadlarının araşdırılması və aradan qaldırılması ilə bağlı müvafiq tapşırıqlar verib. Tapşırığa əsasən, aidiyyəti qurumların rəhbərləri zəlzələdən zərər çəkən vətəndaşlarla görüşüb, yeraltı təkanların fəsadları ilə tanış olublar. Sakinlərə vaxtında kömək göstərilib və lazımi məkanlarda yerləşdirilmələrinə şərait yaradılıb.

Həmçinin Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyinin nümayəndələri və könüllüləri dağıntılar baş verən yerlərdə sakinlərlə görüşüblər. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın göstərişinə əsasən, hər bir sakinin evində olan nümayəndələr mövcud vəziyyət barədə məlumat toplayaraq müvafiq strukturlarla birgə iş aparırlar.

Təbii fəlakətin baş verdiyi ilk gündən ölkənin aidiyyəti strukturlarının faciənin nəticələrinin aradan qaldırılması üçün qüvvələrini tam səfərbər etmələri, mərkəzi icra orqanlarının rəhbər şəxslərinin ərazidə olmaları Azərbaycan hakimiyyətinin öz vətəndaşına diqqət və qayğısının bariz təcəssümüdür.

Zəlzələdən stress keçirmiş insanlar üçün dövlət başçısının gəlişindən və onlarla maraqlanmasından böyük təsəlli ola bilməzdi. Prezidentin zəlzələ baş verən ərazilərə baş çəkməsi, insanlarla söhbəti sakinləri həm mənəvi cəhətdən ovundurdu, həm də onlarda ruh yüksəkliyi yaratdı. Onlar bir daha əmin oldular ki, zəlzələnin nəticələri Prezidentin diqqət və qayğısı nəticəsində tezliklə aradan qaldırılacaq, uçmuş evləri bərpa ediləcək, mənzil şəraitləri əvvəlkindən də yüksək səviyyədə təmin olunacaq.

Prezident İlham Əliyev bu hadisəyə operativ və çevik reaksiya verməklə öz vətəndaşının taleyinə biganə qalmadığını nümayiş etdirdi. Bu, bir daha onu göstərdi ki, dövlət başçısı hər zaman öz vətəndaşlarının yanındadır və baş verən istənilən ekstremal hadisə zamanı, çətin vəziyyətlərdə öz vətəndaşını tək qoymur, maddi və mənəvi dəstəyini onların üzərindən əsirgəmir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikasının Şamaxı, İsmayıllı və Ağsu rayonlarında baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması tədbirləri haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu il fevralın 5-də episentri Ağsu və İsmayıllı rayonlarının ərazisində olan zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında onlarla fərdi yaşayış evi qəzalı vəziyyətə düşmüş, sosial və infrastruktur obyektlərinə ziyan dəymişdir.

Təbii fəlakətdən dərhal sonra görülən təxirəsalınmaz tədbirlər nəticəsində adıçəkilən rayonlarda mühəndis-kommunikasiya təminatı sistemləri tam bərpa edilmiş, zərər çəkmiş əhaliyə ilkin yardım göstərilmişdir. Zəlzələnin törətdiyi fəsadların aradan qaldırılması istiqamətində hazırda zəruri tədbirlər görülür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, təbii fəlakətin nəticələrinin aradan qaldırılmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Baş vermiş zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında yaşayış evlərinə, sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə ilkin olaraq 2,0 (iki) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2019-cu il*

## "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 8; 2005, № 1, maddə 1, № 8, maddə 700; 2006, № 2, maddə 70; 2008, № 2, maddə 49; 2010, № 4, maddə 265; 2012, № 1, maddə 2, № 7, maddə 651; 2013, № 12, maddə 1479; 2014, № 2, maddə 78, № 7, maddə 769, № 11, maddə 1356, № 12, maddə 1526; 2015, № 11, maddə 1259; 2016, № 4, maddə 644, № 10, maddə 1606; 2017, № 5, maddələr 709, 724, № 10, maddə 1775) aşağıdakı məzmunda 9-1-ci maddə əlavə edilsin:

**"Maddə 9-1. Məhdud məsuliyyətli cəmiyyətin təsis sənədlərində edilmiş dəyişikliklərin və qeydə alınmış faktların sonrakı dəyişikliyinin elektron qaydada qeydiyyata alınması**

9-1.1. Məhdud məsuliyyətli cəmiyyətin təsis sənədlərində edilən hər bir dəyişiklik (yenidən təşkil nəticəsində dəyişiklik halları istisna olmaqla), eləcə də qeydə alınmış faktların hər bir sonrakı dəyişikliyinin elektron qaydada dövlət qeydiyyatına alınması üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına müraciət edilə bilər. Dəyişiklik bu qanunun 5-1.5-ci və 11.3-cü maddələrinin tələblərinə zidd olmadıqda, müvafiq icra hakimiyyəti orqanı 3 gün müddətində dəyişikliyi qeydiyyata alır.

9-1.2. Müraciət zamanı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının internet informasiya ehtiyatında yerləşdirilmiş elektron ərizə forması doldurularaq, dəyişikliyi təsdiq edən sənədlərin skan olunmuş surəti ərizəyə əlavə edilərək gücləndirilmiş elektron imza ilə təsdiq edilməlidir.

9-1.3. Qanuni təmsilçi (qanuni təmsilçilər) dəyişikliyinin qeydiyyata alınması zamanı ərizə həm təsisçi (təsisçilər), həm də qanuni təmsilçinin (qanuni təmsilçilərin) gücləndirilmiş elektron imzası ilə təsdiq edilməlidir.

9-1.4. Təsis sənədlərinin və reyestrdə qeydə alınmış faktların sonrakı dəyişikliklərinin dövlət qeydiyyatına alınması üçün daxil edilmiş məlumatlar müvafiq olaraq təsisçilərin və ya idarəetmə orqanlarının üzvlərinin gücləndirilmiş elektron imzaları ilə təsdiq edilməlidir. Nizamnamədə dəyişiklik edilən hallarda təqdim olunmuş məlumatlar əsasında proqram təminatı tərəfindən dəyişiklik layihəsi hazırlanır. Bu halda təsisçi (təsisçilər) nizamnaməyə dəyişikliklə real vaxt rejimində tanış olur və onu gücləndirilmiş elektron imza ilə təsdiq edir.

9-1.5. Müraciət zamanı dəyişiklik dövlət qeydiyyatına alınaraq, dövlət reyestrinə daxil edildiyi gün dövlət reyestrindən çıxarış və dəyişiklik edilmiş digər sənədlər (nizamnaməyə dəyişiklik, dövlət qeydiyyatı haqqında şəhadətnamə) məhdud məsuliyyətli cəmiyyətin elektron kabinetinə göndərilir.

9-1.6. Təsisçinin (təsisçilərin) və ya onun (onların) müvafiq qaydada vəkil etdiyi şəxsin müraciəti əsasında dövlət reyestrindən çıxarış və dəyişiklik edilmiş digər sənədlər (nizamnaməyə dəyişiklik, dövlət qeydiyyatı haqqında şəhadətnamə) təsdiq olunaraq kağız daşıyıcılarında da verilir.

9-1.7. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalındakı iştirak paylarının dəyişikliyi ilə bağlı aparılmış notariat hərəkətləri barədə məlumatlar müvafiq icra hakimiyyəti orqanı tərəfindən onlayn rejimdə müvafiq icra hakimiyyəti orqanına təqdim edilir.

9-1.8. Təsisçi əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olan xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətin təsis sənədlərində edilmiş dəyişikliklərin və qeydə alınmış faktların sonrakı dəyişikliyinin (təsisçi dəyişikliyi istisna olmaqla) dövlət qeydiyyatı bu maddəyə uyğun olaraq həyata keçirilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2018-ci il*

# “Cənab Prezident, nə yaxşı ki varsınız, dar gündə dadımıza çatdınız”

## Çətin günlərində şamaxılılara dayaq olan İLHAM ƏLİYEV zəlzələ nəticəsində dağılan bütün evlərin yenidən tikiləcəyini bəyan etdi

Fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev zəlzələnin baş verdiyi Şamaxı rayonunda olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı zəlzələdən zərər çəkən tikililərə baxıb, sakinlərlə söhbət edib.

Xəbər verildiyi kimi, fevralın 5-6-da Azərbaycan ərazisində yeraltı təkanlar qeydə alınıb. Fevralın 5-də yerli vaxtla saat 23:31-də Pirqulu stansiyasından 11 kilometr cənub-qərbdə İsmayıllı ərazisində zəlzələ olub. Respublika Seysmoloji Xidmət Mərkəzinin məlumatına görə, zəlzələ episentrdə 6 bal, ətraf rayonlarda 5-3 bala qədər hiss edilib. Əsasən dağıntılar Şamaxı rayonunda qeydə alınıb. Fevralın 6-da yerli vaxtla saat 02:34-də Pirqulu stansiyasından 8 kilometr cənub-qərbdə - İsmayıllı rayonu ərazisində 3 bal gücündə zəlzələ baş verib. Daha bir yeraltı təkan yerli vaxtla saat 04:25-də qeydə alınıb. Hadisə nəticəsində xəsarət alanlara təcili tibbi yardım göstərilib və onlar evə buraxılıb, insan tələfatı qeydə alınmayıb.

Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov və Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov dövlət başçısına fevralın 5-də və 6-da təbii fəlakətin törətdiyi fəsadlar barədə yerində məlumat verdilər.

Şamaxı şəhərinin Salman Mümtaz küçəsində Rasim Həsənova məxsus 33 nömrəli evə baş çəkən Prezident İlham Əliyevə məlumat verildi ki, ikimərtəbəli, beşotaqlı evin iki otağı tamamilə dağılıb, ev qəzalı vəziyyətə düşüb.

**Evin ağbirçəyi:** Xoş gəlmisiniz, Allah Sizi var eləsin. Çox sağ olun, Sizdən çox razıyıq.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Yeni ev tikiləcək, narahat olmayın.

**Qadın sakin:** Başına dönərəm, Allah Sizə uzun ömür, cansağlığı versin, ailənizlə xoşbəxt olasınız. Allah o bir oğlunuzu gözünüzə çıraq eləsin. Nə yaxşı ki varsınız. Biz Sizinlə qürur duyuruq.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Biz evləri bərpa edəcəyik, yenidən tikəcəyik, müvafiq göstəriş verilmişdir. Fövqəladə Hallar Nazirliyinin əməkdaşları dünəndən Şamaxıdadırlar, yaxşı işləyirlər. Bütün müraciətlər nəzərə alınır, evlərə baxış keçirilir. Harada ki bərpa etmək mümkündür, bərpa olunacaq. Harada ki mümkün deyil, yeni ev tikiləcək. Dövlət bu işi öz üzərinə götürür. Əlbəttə, məncə, bu evin bərpası mümkün deyil. Ev tikilənə qədər hansı kömək göstəriləcək?

**Fövqəladə hallar naziri Kəmaləddin HEYDƏROV:** Cənab Prezident, kimin imkanı, həyətində başqa bir yeri var, orada məskunlaşıb, qalanlarını rayon icra hakimiyyəti ilə birgə müvəqqəti yerləşdiririk. Sizin tapşırığınızla, cənab Prezident, artıq dünəndən 73 evə baxış keçirilib. Bunlardan hələlik 26-sının qəzalı olduğu müəyyənləşdirilib, amma müraciətlərin sayı çoxdur, 750 müraciət olunub. On komissiya Şamaxı rayonunda, iki komissiya Ağsu rayonunda, iki komissiya isə İsmayıllı rayonunda işləyir. Komissiyaların sayını artıracağıq ki, Sizin tapşırığınızı daha tez icra edək.

**Prezident İlham ƏLİYEV:** Tezliklə bu ev yenidən tikiləcək. Müvəqqəti olaraq bütün lazımi kömək göstərilməlidir, tapşırıqlar verilib. Yəni siz narahat olmayın.

**Qadın sakin:** Allah işinizi avand eləsin. Sağ olun.











Sonra Prezident İlham Əliyev Vidadi Məmmədov küçəsində Mailə Quliyevaya məxsus 7 nömrəli evdə oldu. Bu evin bir otağının divarı zəlzələ nəticəsində tam dağılıb və ev qəzalı vəziyyətə düşüb.

Qəzalı evlərdən biri də Səttar Bəhlulzadə küçəsində Vüqar Teyfurova məxsus 10 nömrəli evdir. Birmərtəbəli kürsülü evin otaqlarından biri tamamilə dağılıb. Evə dəymiş ziyanla tanış olan Prezident İlham Əliyev sakinlərlə söhbət etdi.

**Sakinlər:** Xoş gəlmisiniz, cənab Prezident. Dar gündə dadımıza çatdınız. Allah canınızı sağ eləsin.

**Sakin Xatirə RƏHİMZADƏ:** Cənab Prezident, bir daha xoş gəlmisiniz. Biz Sizin gələcəyinizə inanırdıq. Çünki həmişə xalqının ağır günündə onun yanında olan, xalqına dəstək olan Prezidentin bu təbii fəlakət zamanı şamaxılıların yanında olacağına çox-çox inanırdıq. Nə yaxşı ki varsınız. Xalqa göstərdiyiniz dəstəyə, köməyə görə Sizə həmişə minnətdarıq, “Çox sağ olun!” deyirik. Nə yaxşı ki, bizim Prezidentimizsiniz. Biz Sizinlə fəxr edirik. Həmişə Sizin yanınızdayıq. Həmişə Sizə inanırıq. Azərbaycanın gələcəyinin etibarlı əldə olduğuna inanırıq və biz bunu görürük. Bu gün bir daha bunun sübutudur. Çox sağ olun ki, gəlmisiniz.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, təşəkkür edirəm. Siz bilirsiniz ki, mən Şamaxıda tez-tez oluram. Dəfələrlə olmuşam. Burada yaxşı tədbirlərdə bərabər iştirak etmişik, infrastruktur layihələrinin, sosial obyektlərin, kənd təsərrüfatı obyektlərinin açılışlarında olmuşuq. Şamaxının inkişafı daim diqqət mərkəzindədir. Təbii ki, belə hadisə baş verəndə mən mütləq burada, yanınızda olmalı idim ki, ilk növbədə sizə öz dəstəyimi göstərim, digər tərəfdən, vəziyyətlə tanış olum. Dağıntılar var, xoşbəxtlikdən insan ölümü olmayıb. Onu da bildirməliyəm ki, bütün qəzalı evlər qısa müddət ərzində ya bərpa ediləcək, ya da yenidən tikiləcək. Komissiya işləyir, Fövqəladə Hallar Nazirliyinin əməkdaşları dünəndən buradadır, yerli icra hakimiyyəti də işləyir. Hələ ki bu vəziyyətdən əziyyət çəkən vətəndaşların məskunlaşması ilə bağlı məşğuldurlar. Eyni zamanda, tezliklə bu evlərin bərpası, yenidən tikilməsi nəzərdə tutulur. Müvafiq sərəncam imzalanacaq, Prezidentin Ehtiyat Fondundan vəsait ayrılacaq. İndi yüzlərlə müraciət var. Mənə verilən məlumata görə, hələ ki, 70-dən çox müraciətə baxılıb və müvafiq aktlar tərtib edilib. Bu aktlar əsasında bütün təmir-bərpa işləri aparılacaq. Vətəndaşlar narahat olmasınlar. Azərbaycan dövləti həmişə öz vətəndaşının yanındadır.



**Sakinlər:** Çox sağ olun. Biz də Sizi dəstəkləyirik, hamımız Sizin arxanızdayıq, Sizə güvənirik.

**Xatirə RƏHİMZADƏ:** Biz bu dəstəyi gördük. Bu dəstəyi Sizdən və Mehriban xanımdan gördük. Bizim minnətdarlığımızı Mehriban xanıma çatdırmağı xahiş edirik. Könüllüləri göndərdi, çox böyük dəstək oldu. Nazir də, rayon rəhbəri də bütün gecəni burada idilər. Çox sağ olsunlar.

**Xanlar RƏHİMZADƏ:** Ona görə də əhali tam sakit oldu, cənab Prezident. Yerli hakimiyyətin nümayəndələri gecəyarısı bütün evləri gəzirdilər. Hamısı yanımızda idi. Ona görə də heç bir narahatlıq yoxdur.

**Xatirə RƏHİMZADƏ:** Sağ olun ki, varsınız. Biz Sizə arxalanırıq. Xalqı bu qədər sevirsiniz. Sağ olun ki, xalqa bu qədər dəstəksiniz. Dəstəyinizə görə minnətdarıq. Sizinlə qürur duyuruq. Prezidentimizin belə qayğıkeşliyi, xalqa xidməti ilə çox qürur duyuruq. Azərbaycan etibarlı əllərdədir.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Mən də sizinlə qürur duyuram ki, hətta belə ağır günlərdə nikbinliklə yaşayırsınız və inanırsınız ki, Azərbaycan dövləti, Azərbaycan hakimiyyəti həmişə sizin arxanızdadır. Bütün dövrlərdə belə olub, bundan sonra da belə olacaq. Həm könüllülərin, həm yerli icra orqanlarının, Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarının - bunların bir amalı var: vətəndaşlara kömək etmək. Mən hesab edirəm ki, bərpa işləri tezliklə başlamalıdır. Vəsait də ayrılacaq.

**Kəmaləddin HEYDƏROV:** Cənab Prezident, artıq layihələr var. Həm Zaqatala zonasındakı zəlzələdən, həm də Kür-Araz bölgəsindəki daşqından hazır layihələrimiz var. Ona görə də Sizin tapşırığınızla təcili olaraq bu işlərə başlanacaq.

**Prezident İlham ƏLİYEV:** Bəli, təbii fəlakət olur. Bir neçə il bundan əvvəl Zaqatala, Qax rayonlarında zəlzələ oldu, orada minlərlə ev dağılmışdı. Biz o zəlzələnin fəsadlarını aradan qaldırdıq. Bir neçə il bundan əvvəl daşqın olmuşdu, minlərlə evi su basmışdı. Orada da lazımi tədbirlər görülmüşdü. Bütün evlər dövlət vəsaiti hesabına yenidən tikildi, bərpa edildi. Ona görə biz bu zəlzələnin fəsadlarını da tezliklə aradan qaldıracağıq. Mən gəlmişəm bunu sizə şəxsən deyim ki, vətəndaşlar tam əmin olsunlar, bütün lazımi işlər görüləcək.

**Sakinlər:** Çox sağ olun. Minnətdarıq. Sizə cansağlığı, işlərinizdə müvəffəqiyyətlər arzulayırıq, cənab Prezident, Allah Sizi qorusun.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Sizə də cansağlığı, uğurlar arzulayıram. Bizim hələ görüşlərimiz çox olacaq. Çünki Şamaxı rayonunda bundan sonra da gözəl işlər görüləcək.

**Xanlar RƏHİMZADƏ:** İnşallah. Sizə inanırıq. Sizin siyasətiniz sayəsində gələcəyimiz daha yaxşı, nurlu olacaq. Təşəkkür edirik.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.






# “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1084; 2006, № 12, maddə 1031; 2008, № 6, maddə 462; 2011, № 7, maddə 592; 2014, № 12, maddə 1516; 2016, № 4, maddə 643; Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1302-VQD nömrəli, 7 dekabr tarixli 1383-VQD nömrəli və 28 dekabr tarixli 1446-VQD nömrəli qanunları) 4.3-cü maddəsinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“İnzibati orqanlar arasında aidiyyət və səlahiyyətlə bağlı mübahisələrin həlli qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

# “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1466-VQD nömrəli Qanununun tətbiqi və “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 dekabr tarixli 345 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1466-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 4.3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq inzibati orqanlar arasında aidiyyət və səlahiyyətlə bağlı mübahisələrin həlli qaydasının Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 761 nömrəli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurası haqqında Əsasnamə”də müəyyən edilməsinə dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 dekabr tarixli 345 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1114; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 yanvar tarixli 484 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.5-ci bənd ləğv edilsin;

4.2. 2.1-ci bənddə “cümləsində” sözü “və ikinci cümlələrində” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2019-cu il*

# “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 18 dekabr tarixli 1393-VQD nömrəli Qanununun tətbiqi və “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 18 dekabr tarixli 1393-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 228; 2005, № 8, maddə 708, № 9, maddə 801, № 12, maddə 1103; 2006, № 12, maddə 1034; 2008, № 2, maddə 54; 2012, № 1, maddə 6; 2013, № 12, maddə 1529; 2014, № 2, maddə 103; 2016, № 3, maddə 465, № 9, maddə 1464, № 10, maddə 1637; 2017, № 5, maddə 846, № 9, maddə 1653, № 10, maddə 1803, № 12 (I kitab), maddə 2319; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 457 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.5-ci bənddə “və 7-2.4-cü maddəsinin birinci cümləsində” sözləri “, 7-2.4-cü maddəsinin birinci cümləsində, 9-1.1-ci maddəsinin birinci və ikinci cümlələrində, 9-1.2-ci və 9-1.7-ci (ikinci halda) maddələrində” sözləri ilə əvəz edilsin;

3.2. 2.13-cü bəndə “Qanunun” sözündən sonra “9-1.7-ci maddəsində (birinci halda) və” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 fevral 2019-cu il*

# Nazirlər Kabinetində Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yeddinci iclası keçirilib

Fevralın 7-də Nazirlər Kabinetində Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yeddinci iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov iclasın gündəliyində duran məsələlərdən danışıb. O, iclasın əsas məqsədinin Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) həyata keçirilməsi üzrə 2018-ci il ərzində görülən işlər, qarşıda duran vəzifələr, bununla bağlı Azərbaycan Prezidentinə təqdim ediləcək hesabatın təqdimatı və təsdiq edilməsi, həmçinin DİM-lər üzrə Azərbaycan üçün prioritet hesab edilən məqsəd, hədəf və göstəricilərin yekun layihəsinin müzakirəsi və təsdiqi olduğunu deyib.

İclasda bu ilin iyul ayında Yüksək Səviyyəli Siyasi Forumunda Dayanıqlı İnkişaf Məqsədləri üzrə Azərbaycan Respublikasının ikinci Könüllü Milli Hesabatının hazırlanmasının cari vəziyyəti də müzakirə edilib. Gündəlikdə duran digər məsələ isə DİM-lərin həyata keçirilməsində özəl sektorun rolu mövzusunda aidiyyəti qurumlarla birgə panel müzakirənin keçirilməsi təşəbbüsü olub.

Sonra gündəliyə uyğun təqdimatlar keçirilib. Sonda Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üzrə 2018-ci il ərzində görülən işlər, qarşıda duran vəzifələrlə bağlı hesabat təsdiq olunub və onun Azərbaycan Prezidentinə təqdim edilməsi qərara alınıb.

# Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədilə “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun 29.1-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılsın ki, 2018-ci il üzrə orta aylıq nominal əməkhaqqının Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilən illik artım tempinə uyğun olaraq 2019-cu ilin 1 yanvar tarixinə:

1.1. bütün növ əmək pensiyalarının sığorta hissəsinin artırılmasını təmin etsin;

1.2. fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində toplanmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsini həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2019-cu il*

# “Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı” təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi:

2.1. bu sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirsin;

2.2. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2019-cu il*

# *Əli HƏSƏNOV:* “Azərbaycan dövləti İstanbulda keçirilən Avrasiya İqtisadi Zirvə toplantısına hər zaman xüsusi diqqət ayırıb”

Azərbaycan dövləti İstanbulda keçirilən Avrasiya İqtisadi Zirvə toplantısına hər zaman xüsusi diqqət ayırıb. Azərbaycan 22 ildir ki, bu toplantıda geniş tərkibli nümayəndə heyəti ilə fəal şəkildə iştirak edir. Tədbirin təşkilatçıları, o cümlədən Türkiyə hökumətini təmsil edən nümayəndələr bunu yüksək qiymətləndirirlər. Əvvəllər Zirvə toplantısında ulu öndər Heydər Əliyevin, son 15 ildə isə Prezident İlham Əliyevin müraciətləri oxunub.



AZƏRTAC xəbər verir ki, bu fikirləri İstanbulda keçirilən XXII Avrasiya İqtisadi Zirvə toplantısında iştirak edən Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov deyib.

Əli Həsənov qeyd edib ki, Avrasiya qitəsi Azərbaycanın siyasi, iqtisadi, sosial, geosiyasi, enerji, nəqliyyat, kommunikasiya maraqlarının kifayət qədər təmsil olunduğu bir qitədir. Azərbaycan da bu maraqların həyata keçirilməsi üçün fəal siyasət yürüdür. Bir neçə layihəni qeyd etmək olar. Toplantıda da bildirildiyi kimi, Azərbaycan Avropa ilə Asiyanı birləşdirən böyük İpək yolunun qurucu dövlətlərindən biridir. Təkcə Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi onu göstərdi ki, Türkiyə və Azərbaycan bu iki qitənin birləşdirilməsində önəmli rol oynayan lider dövlətlərdir. Eyni zamanda, Gürcüstanı da buraya əlavə etmək lazımdır. Bundan başqa, Azərbaycan İran və Rusiya ilə birlikdə “Şimal-Cənub nəqliyyat dəhlizi”nin yaradılmasında, eləcə də Avropanı Asiya ilə birləşdirən alternativ nəqliyyat-kommunikasiya layihələrinin qurulmasında yaxından iştirak edir. Həmçinin Xəzər dənizinin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması siyasətini qeyd etmək olar. Bu işdə də Azərbaycan həmişə öncül mövqeyini qoruyub saxlayıb. Həmçinin “Cənub qaz dəhlizi”nin çəkilməsi, vaxtilə Avropanın reallaşdıra bilmədiyi “Nabucco” layihəsinin yeni şəraitdə həyata keçirilməsi Azərbaycanın Avrasiyaya verdiyi töhfənin bariz göstəricisidir. Bir sözlə, Azərbaycanı Avropa ilə həm nəqliyyat, enerji dəhlizləri, həm iqtisadi, siyasi, sosial layihələr bağlayır. Ona görə də hesab edirik ki, bu Zirvə toplantısında bizim deməyə sözümüz kifayət qədər çoxdur. Biz həmçinin bu sammitdə iştirak edən dövlətlərin rəsmilərinin, müxtəlif ölkələri təmsil edən QHT-lərin nümayəndələrinin, jurnalistlərin diqqətinə Azərbaycan həqiqətlərini, o cümlədən torpaqlarımızın işğal olunması faktını, Ermənistanın dünyada təhlükəsizliyə törətdiyi təhdidləri çatdırırıq.

# Çirkli qurumun çirkin məqsədi

## ABŞ-dakı “Freedom House” beynəlxalq hüquq müdafiə təşkilatı qeyri-obyektiv və bilinməyən metodologiya ilə qiymətləndirmə aparır

Azərbaycan günü-gündən sosial-iqtisadi baxımdan inkişaf etdikcə, beynəlxalq nüfuzunu artırdıqca, dünya birliyindəki mövqelərini gücləndirdikcə uğurlarımızı görmək istəməyənlər ortaya çıxır və hər fürsətdə ölkəmizi, xalqımızı gözdən salmağa çalışırlar. Xüsusilə bəzi xarici dairələr və təşkilatlar ölkəmizdəki reallıqları təhrif etmək, beynəlxalq aləmdə yanlış rəy formalaşdırmaq cəhdlərini davam etdirirlər.



Bu cür məkrli əməllərin hansı mənbədən qaynaqlandığı məlumdur: erməni lobbisi və bütövlükdə antiazərbaycançı şəbəkə Azərbaycanın dövlət müstəqilliyinin bərpa edildiyi ilk gündən ölkəmizə qarşı “qara piar” aparmaqla məşğuldurlar. ABŞ-dakı “Freedom House” beynəlxalq hüquq müdafiə təşkilatının 2019-cu il hesabatında Azərbaycanı Cənubi Qafqazda yeganə “azad olmayan” ölkə kimi qiymətləndirməsi gülünc səslənməklə yanaşı, bu təşkilatın qeyri-obyektiv və bilinməyən metodologiya ilə qiymətləndirmə aparan çirkli qurum olmasının bir sübutudur.

Görəsən, “azad olmayan” ölkəni müəyyənləşdirmək üçün göstəriciləri kim və hansı bir beynəlxalq təşkilat kəşf edib?

Əgər hansısa təşkilat özündən müəyyən göstəricilər uydurubsa, ona bu səlahiyyəti kim verib?

Ümumiyyətlə, belə təşkilatları kimlər yaradıb, maliyyələşdirir və nə üçün?

Onlara kim ixtiyar verib ki, müstəqil dövlətin daxili işinə müdaxilə etsinlər?

Belə sualları çox sadalaya bilərəm, ancaq sizlərə elə gəlmirmi ki, hansısa bir dövlət özünü dünyanın sahibi hesab edir?

Mənim üçün çox maraqlıdır!

Görəsən, bəzi ölkələrdə vətəndaşlar dövlətinin siyasətinə etiraz olaraq küçələrdə qarşılarına çıxan hər şeyi dağıdanda, maşınları yandıranda, binaların 1-ci mərtəbələrindəki obyektləri talan edəndə, iş rejimini kobud şəkildə pozanda, insanların istirahətinə xələl gətirəndə bunun adı nə olur? “Azad ölkə”mi?

Bəzi ölkələrdə, o cümlədən ABŞ-da, Avropada polis işçiləri etirazçılara hücum edib onlara ciddi xəsarət yetirəndə, hətta gözlərini çıxaranda və ya etirazçıların gözü qarşısında kütləvi aksiyalara çıxanları döyərək ölümcül vəziyyətə salanda bunun adı nə olur? “Azad ölkə”mi?

“Freedom House” təşkilatı erməni xalqının özu tərəfindən Ermənistan azad olmayan ölkə kimi qiymətləndiriləndə və ya onun parlamentində spiker və bir neçə deputat güllələnib öldürüləndə, prezident seçkisində saxtakarlıq edən rəhbərliyə etiraz edən zaman öldürüləndə necə olur ki, belə ölkə “qismən asad” hesab edilir? Elə buradan görünür ki, bu təşkilat sifarişlə işləyən təşkilatdır.

“Freedom House” və bu kimi beynəlxalq təşkilatlar bilməlidirlər ki, ölkəmizdə mətbuat tamamilə azaddır, 80 faiz əhalinin internetə çıxışı vardır, bütün sosial şəbəkələrdən istifadə mövcuddur və heç bir senzura yoxdur! Azərbaycan Respublikasının Prezidetni cənab İlham Əliyevin titanik səyi nəticəsində ölkəmizdə sabitlik, təhlükəsizlik və inkişaf yüksək mərhələdədir. Azərbaycan bu gün bir sabitlik adası kimi məşhurdur. Regionda və dünyada baş verən qanlı münaqişələr, toqquşmalar, müharibələr, risklər və təhdidlər fonunda ölkəmizdə həyat tərzinə çevrilmiş sabitlik mühiti bizim tarixi nailiyyətimiz və sərvətimizdir. Sabitlik və təhlükəsizliyimizin təminatçısı Azərbaycan xalqı və onun hakimiyyətlə olan monolit birliyidir, səfərbər olunmuş cəmiyyət və vətəndaş həmrəyliyidir. Bu birliyin kökündə dayanan əsas amil xalqın cənab İlham Əliyevə olan inamı, etimadı və etibarı ilə bağlıdır.

Bu cür yersiz və qərəzli hesabatlarla nə ölkəmizə təzyiq etmək, nə də nüfuzunun artmasının qarşısını almaq mümkündür. Bu təşkilatlar insan hüquq və azadlıqlarının qorunmasından danışırsa, ilk növbədə Ermənistanın işğalçı dövlət olduğunu bəyan etməlidirlər. Bütün bunları görməzliyə vuraraq Azərbaycana qarşı sifarişlə qərəzli mövqe tutmaq nəticə etibarilə onların riyakar mövqeyini ortaya qoyur.

Azərbaycan Respublikası Prezident Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılovun 2018-ci ilin yekunu üzrə dərc etdiyi “Prezident İlham Əliyevin vətəndaş müraciətlərinə münasibəti məmurlara örnəkdir” sərlövhəli materialı “Freedom House” təşkilatının bizim ölkəmiz barədə ABŞ-da fəaliyyət göstərən erməni diasporundan aldığı vəsait hesabına yazdığı uydurmaya tutarlı cavabdır.

Bu akademik materialı tərcümə edərək həmin təşkilata göndərmək yaxşı olardı ki, görsünlər onların yaşadığı ölkədə, ümumiyyətlə, dünyanın hansısa ölkəsində öz vətəndaşlarına belə münasibət, dövlət başçısı varmı?

***Əli HƏSƏNOV,***
***Azərbaycan Respublikası***
***Baş nazirinin müavini,***
***Yeni Azərbaycan Partiyasının***
***sədr müavini***

# Prezident İlham Əliyevin vətəndaş müraciətlərinə

## Təkliflər vətəndaş istəyindən yaranır

Vətəndaşların cəmiyyət qarşısında məsuliyyətinin və vətəndaşlıq mövqeyinin göstəricisi olan təkliflər həmişə böyük maraq doğurduğundan onlar ətraflı təhlil edilir, öyrənilir və məqsədəuyğun hesab edildikdə, aidiyyəti qurumlarla birlikdə baxılır.

Təkliflərin müxtəlif mövzuları əhatə etməsi vətəndaşların fəallığını, respublikada baş verən proseslərə, tarixi keçmişimizə və gələcəyimizə biganə qalmadıqlarını, bu proseslərdə yaxından iştirak etmək arzularını əks etdirir.

**Əvvəlki illərdə olduğu kimi, keçən il də daxil olan təkliflərin xeyli hissəsi ulu öndər Heydər Əliyevin adının daha geniş əbədiləşdirilməsi barədə** olmuşdur və bu təkliflər ona olan tükənməz xalq məhəbbətinin bariz nümunəsidir. Belə müraciətlər Ümummilli Liderimizin adına yeni parkların salınması, müxtəlif mükafatların təsis edilməsi və sair məsələlər barədədir.

**Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi sayəsində** UNESCO-nun qərarı ilə Bəşəriyyətin Qorunan Maddi Mədəni İrs Siyahısına salınmış kamança ifaçılığı sənətinin təbliği, həmçinin kamança alətinin istehsalının genişləndirilməsi, vaxtilə Azərbaycandan aparılmış və hazırda dünyanın müxtəlif yerlərində saxlanılan maddi mədəniyyət nümunələrinin və sənədlərin tapılıb Vətənimizə qaytarılması üçün görülən xeyirxah işlərin davam etdirilməsi barədə yazılanlar maraq doğuran təkliflərdəndir.

**İctimai-siyasi məsələlərə** də öz münasibətini bildirən vətəndaşlar Azərbaycanda sosial şəbəkələrdə yol verilən, ölkənin, xalqın imicinə xələl gətirən, bəzən bütün etik və siyasi davranış qaydalarını pozan şəxslərə qarşı sərt tədbirlər görülməsini tələb edir, televiziya proqramlarında xalqımızın milli-mənəvi dəyərlərinə uyğun gəlməyən verilişlərin qarşısının alınmasına dair təklif, fikir və düşüncələrini bildirirlər. Bu məzmunda olan çoxsaylı müraciətlər ölkə Prezidenti cənab İlham Əliyevin hüquq mühafizə orqanları rəhbərlərinin iştirakı ilə 2018-ci il iyulun 13-də keçirdiyi iclasda dediyi fikirləri bir daha təsdiq edir: **"Bizə qarşı çirkin kampaniyalar aparılır, qarayaxma, şər-böhtan kampaniyaları. Yalan, iftira üzərində qurulmuş bu kampaniyaların heç bir səmərəsi olmur. Azərbaycan xalqı bu yalanlara, bu böhtanlara inanmır. Azərbaycan xalqı öz rəhbərliyinə inanır".**

**Təhsil, səhiyyə və sosial məsələlərlə** bağlı təkliflərdə vətəndaşlar bu sahələrin inkişafı barədə öz mülahizələrini və arzularını bildirir, o cümlədən ölkə üzrə "Yeni məktəb modeli necə olmalıdır" adlı müsabiqə elan edilməsini, orta təhsil sistemində aparılan islahatların davam etdirilməsini, həmçinin müəyyən kənd məktəblərinin təmiri və daha müasir avadanlıqlarla təmin olunmasını, icbari tibbi sığorta hesabına müalicə ediləcək xəstəliklərin siyahısının və proqramın tətbiq dairəsinin daha da genişləndirilməsini təklif edirlər.

**Vətəndaşlar ölkədə aparılan quruculuq işlərinə** uyğun olaraq təkliflərinin yaşadıqları əraziləri daha da gözəlləşdirəcəyinə əmindirlər. "Sovetski" adlanan ərazidə aparılan yenidənqurma işləri hər bir Bakı sakininin ürəyincədir. Vətəndaşlar burada müasir parkların, geniş yolların salınmasına sevindiklərini, belə abadlıq işlərinin başqa yerlərdə də aparılmasını arzuladıqlarını bildirirlər. Nərimanov rayonunun Təbriz küçəsində, Xəzər rayonunun Buzovna qəsəbəsində və başqa yerlərdə aparılan abadlıq və yenidənqurma işlərində milli arxitektura ənənələrindən istifadə edilməsi barədə fikirlər də maraq doğurur.

Bundan başqa, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən Milli qəhrəmanların və şəhidlərin, görkəmli şəxslərin və mədəniyyət xadimlərinin xatirəsinin əbədiləşdirilməsi, müxtəlif şəhər və rayonlarda yeni salınmış küçə və massivlərə onların adlarının verilməsi barədə fikirlər və təkliflər də az deyil.

**Kənd təsərrüfatına** aid müraciətlərdə arıçılığın inkişafı, bal və bal məhsullarının satışı yarmarkalarının ilboyu təşkili, həmin məhsulların xarici bazarlara çıxarılması üçün müvafiq tədarük və satış mərkəzlərinin yaradılması, kənd təsərrüfatında müasir texnologiya-

*(Əvvəli qəzetin 7 fevral tarixli nömrəsində)*




ların tətbiqinin davam etdirilməsi, emal müəssisələrinin sayının daha da artırılması barədə təkliflər diqqəti cəlb edir.

> "Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşir və ölkəmiz uğurla inkişaf edir".
>
> **İlham ƏLİYEV**

**Ekologiya məsələlərinə** aid müraciətlərdə şoranlaşmış torpaqların bərpasının, ekoloji mühitin tənzimlənməsinin, Xəzər dənizində çirklənmənin qarşısının alınmasının, dənizin fauna və florasının qorunmasının davam etdirilməsi barədə fikir və mülahizələr bildirilir.

**Cənab Prezidentin idman sahəsində apardığı uğurlu siyasət** nəticəsində qazanılan nailiyyətlərdən bəhs edilən müraciətlərdə məcburi köçkünlər üçün salınan şəhərciklərdə idman məktəblərinin və idman zallarının fəaliyyəti barədə fikirlər yer alır.

Vətəndaşlar bəzi ucqar kəndlərdə **gənclərin asudə vaxtını daha səmərəli keçirmələri üçün** əlavə istirahət yerlərinin açılması, mədəniyyət ocaqlarının, tibb məntəqələrinin səmərəli fəaliyyəti üçün daha yaxşı şərait yaradılması barədə yazırlar.

Təkliflərin bir qismində "**ASAN xidmət**" mərkəzlərinin fəaliyyətinin daha da genişləndirilməsi barədə fikirlər səsləndirilir.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında və fəaliyyətində yaxından iştirak etmiş görkəmli siyasi xadimlərin, bu işdə xüsusi xidmətləri olan ziyalılarımızın xalqa daha yaxşı tanıdılması, xatirələrinin yaşadılması da verilən təkliflər sırasındadır.

Vətəndaşlarımız əmin ola bilərlər ki, cəmiyyətin inkişafına xidmət edən təkliflər bundan sonra da diqqət mərkəzində olacaqdır.

## Vətəndaş müraciətlərinin əsas devizi: "Sizə inanırıq, cənab Prezident!"

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkə vətəndaşlarının gündəlik qayğı və problemlərinin həlli, insanların həyat şəraitinin, güzəranının yaxşılaşdırılması, onların daha yaxşı yaşamasına imkan verən sosial infrastrukturun yaradılması, yeni enerji mənbələrinin istifadəyə verilməsi, bir sözlə, enerji, ərzaq və müdafiə təhlükəsizliyinin daha da gücləndirilməsi, ekoloji problemlərin aradan qaldırılması üçün dövlətdən asılı olan bütün işləri görməklə yanaşı, dövlət orqanlarından və bu orqanlarda çalışan hər bir vəzifəli şəxsdən vətəndaşların müraciətlərinə diqqətlə yanaşılmasını tələb edir, bu sahədə özü onlara nümunə göstərir, respublikanın bütün bölgələrində, eləcə də Bakı şəhərində keçirilən tədbirlərdə vətəndaşların problemlərini öyrənir, onların həlli üçün konkret tapşırıqlar verir.

**Vətəndaşların müraciətlərinə baxılmasının əsas prinsipləri, müvafiq qanunda göstərildiyi kimi,** qanunçuluğun tətbiqi, vətəndaşların müraciət hüququnun sərbəst və könüllü həyata keçirilməsinə şərait yaradılması, müraciətlərə dair tələblərin vahidliyi, fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin qorunması, müraciətlərə baxılmasında ayrı-seçkiliyə və süründürməçiliyə yol verilməməsi, müraciətə baxan subyektlərin və onların vəzifəli şəxslərinin fəaliyyətində şəffaflığın təmin edilməsi, vətəndaşların müraciət etmək hüququ ilə dövlət maraqlarının uzlaşdırılmasıdır. Ölkə Prezidentinin bütün dövlət qurumlarından və vəzifəli şəxslərdən tələbi budur ki, həmin prinsiplər daim rəhbər tutulsun.

**2018-ci ildə Prezident Administrasiyasına daxil olmuş müraciətlərin 69 faizi ərizə, 30,7 faizi şikayət, 0,3 faizi təklifdir. 2017-ci illə müqayisədə şikayətlərin faizi azalmışdır.**

2018-ci ilin ictimai hadisələrlə zəngin olması, ən başlıcası, növbədənkənar prezident seçkiləri nəticəsində vətəndaşların ictimai-siyasi fəallığının artması müraciətlərin sayında da özünü göstərmişdir. Vətəndaşlar Azərbaycan Respublikası Prezidentinə və onun Administrasiyasına müraciət edərkən bu müraciətlərə mütləq baxılacağına və qanuna uyğun tədbirlər görüləcəyinə əmindirlər. **Müraciətlərin hansı mövzuda, nədən yazılmasından asılı olmayaraq, onların hamısının əsas devizi ölkə Prezidentinə inamın ifadəsidir və vətəndaşların yekdil rəyini belə ifadə etmək olar: "Sizə inanırıq, cənab Prezident!"**

Cənab Prezidentin yerlərdə keçirdiyi görüşləri izləyərkən onun vətəndaşların problemlərinə göstərdiyi həssas münasibət və həmin problemlərin vaxtında həll edilməsi barədə verdiyi tapşırıq və tövsiyələr diqqəti cəlb edir. Yeni ilin ilk günlərindən ölkə Prezidentinin regionlara səfərləri davam etmiş və bu səfərlərin hər biri məhz vətəndaşların qaldırdıqları problemlərin həllinə xidmət etmişdir. Dövlət başçısı bu il yanvarın 14-də Qaradağ rayonunun Qobustan qəsəbəsində Mərkəzi Xəstəxananın açılışı mərasimində iştirak edərkən bu xəstəxananın bir neçə il əvvəl qəsəbədə olarkən ona edilən müraciət əsasında plana salındığını, bu məqsədlə vəsait ayırdığını, indi isə onun açılışında iştirak etdiyini və bundan məmnunluq duyduğunu vurğulayaraq demişdir: **"Bu gün bu gözəl xəstəxana, ilk növbədə, bizim siyasətimizi əks etdirir. Onu göstərir ki, insan sağlamlığı bizim üçün ən başlıca məsələlərdən biridir, digər tərəfdən onu göstərir ki, yerlərdən, vətəndaşlardan gələn hər bir təklifə baxılır və imkan daxilində bu təkliflər təmin edilir, onlar yerinə yetirilir. Bu canlı təmas, hesab edirəm ki, bizim uğurlarımızın təməlində dayanan ən vacib amillərdən biridir və mənim vətəndaşlarla müntəzəm görüşlərim, rayonlara səfərlərim, - təkcə keçən il 24 rayona səfər etmişəm, - Bakı qəsəbələrinin problemlərinin həlli ilə bağlı atılan addımlar və yerlərdən gələn təkliflərə müsbət yanaşılması bizim uğurlu inkişafımızı təmin edir".**

> "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları, onun rifahı dayanır".
>
> **İlham ƏLİYEV**

Cənab Prezident ölkənin dinamik inkişafından danışaraq qeyd edir ki, bu gün Azərbaycan dünya miqyasında seçilən o ölkələrdəndir ki, burada iqtisadi, sosial və bütün başqa məsələlər uğurla öz həllini tapır, o cümlədən səhiyyəyə göstərilən diqqət sayəsində son 15 ildə ölkəmizdə 600-dən çox xəstəxana və tibb müəssisəsi tikilmiş, yaxud təmir edilmişdir. Yaxın gələcəkdə Azərbaycanda elə bir şəhər olmayacaq ki, orada ən müasir tibb mərkəzi olmasın.

Prezident Administrasiyasına daxil olan müraciətlərin coğrafiyasının təhlili göstərir ki, onların sayı əvvəlki illə müqayisədə Bakı şəhərinin bəzi rayonlarından, Gəncə, Mingəçevir, Naftalan, Şəki, Yevlax, Ağcabədi, Ağdam, Ağdaş, Ağstafa, Ağsu, Beyləqan, Bərdə, Cəbrayıl, Gədəbəy, Hacıqabul, Xızı, İmişli, Kəlbəcər, Kürdəmir, Laçın, Neftçala, Oğuz, Saatlı, Şamaxı, Şəmkir, Zəngilan, digər şəhər və rayonlardan artmışdır.

**Vətəndaşların müraciətlərinin coğrafiyası, mövzusu, növləri ilə yanaşı, hər 1000 nəfərə düşən müraciətlərin sayı da böyük önəm daşıyır** və bu göstərici yerlərdə vətəndaş müraciətlərinin dinamikası və ümumi vəziyyəti barədə daha aydın təsəvvür yaradır. 2018-ci ildə əhalinin hər 1000 nəfərinə düşən müraciətlərin sayı Bakının Xətai, Xəzər və Sabunçu rayonları, Mingəçevir, Naftalan, Ağcabədi, Ağdam, Ağsu, Astara, Beyləqan, Bərdə, Cəbrayıl, Gədəbəy, Göygöl, İmişli, Kəlbəcər, Laçın, Saatlı, digər şəhər və rayonlarda daha yüksək olmuşdur.

Müraciətlərin ümumi sayının bir qədər artmasını həm də onunla izah etmək olar ki, indi internet şəbəkəsinin gündən-günə genişlənməsi Prezidentin rəsmi saytı, həmçinin bütün mərkəzi və yerli icra hakimiyyəti orqanlarının saytları vasitəsilə vətəndaşların eyni vaxtda eyni məzmunlu müraciətlərlə bir neçə ünvana elektron formada müraciət etməsinə imkan verir və onlar bu imkandan daha geniş yararlanırlar.

Müraciətlərin mövzularına nəzər saldıqda isə daha çox sosial müdafiə, dövlət qulluğu, hüquq mühafizə orqanlarının fəaliyyəti, o cümlədən əfv məsələləri, habelə mənzil, şəhərsalma və tikinti, nəqliyyat, maliyyə və bank, bələdiyyələrin fəaliyyəti və digər məsələlər üstünlük təşkil edir.

**Ümumiyyətlə, 2018-ci ildə daxil olan müraciətlərin ümumi sayının vətəndaşlar üçün vacib olan bir çox mövzular üzrə azaldığını xüsusi qeyd etməliyik.** Bunlar dövlət quruculuğu və qanunvericilik, sənaye, iqtisadiyyat və sahibkarlığın inkişafı, korrupsiya ilə bağlı məsələlər, şəhər, rayon İHB aparatlarının fəaliyyəti, kənd təsərrüfatı məsələləri, o cümlədən kənd təsərrüfatı üçün kreditlərin və torpaq sahələrinin ayrılması, subsidiyaların verilməsi, məhsulların tədarükü, emalı və satışı, meliorasiya və su təsərrüfatı məsələləri, habelə ipoteka və fərdi kreditlərin verilməsi, xaricdə təhsil, test imtahanları, təhsil haqqı və köçürmələr, diplomların verilməsi və tanınması, gənclik və idman, informasiya resursları və onların təhlükəsizliyi, ekologiya, yaşıllıqların və meşələrin mühafizəsi, müdafiə, orduya çağırış, hərbi qulluqçuların sosial müdafiəsi, əmək mübahisələri və işdən çıxarılma, əməkhaqqı, işlə təmin olunma, istilik təchizatı, elektrik sayğaclarının quraşdırılması, sosial mənzillə təmin olunma, fərdi yaşayış evlərinin qiymətləndirilməsi və kompensasiyaların verilməsi, qaçqınlar və məcburi köçkünlərlə bağlı məsələlər, yerli orqanlarda vətəndaşların qəbulu və müraciətlərə baxılması, miqrasiya və sair məsələlərdir.

**Əvvəlki ilə nisbətən şikayətlərin az daxil olduğu sahələrdən biri vətəndaşlarımız üçün çox aktual olan təhsil məsələləridir və bunun üzərində bir qədər ətraflı dayanmaq lazım gəlir.** Son illər bu sahədə aparılan ciddi struktur islahatları və təhsilin keyfiyyətini yüksəltmək üçün həyata keçirilən dəyişikliklər nəticəsində bu mövzuda müraciətlərin artımı müşahidə olunurdusa, islahatların tədricən başa çatması artıq öz bəhrəsini verməkdə və bununla bağlı müraciətlər azalmaqdadır.

Təhsili gənc nəsil üçün əsas istiqamət kimi müəyyən edən cənab Prezident 2019-cu il fevralın 1-də Azərbaycan Gəncləri Günü münasibətilə keçirilən respublika toplantısında demişdir: **"...Bugünkü dünyada bilik, savad ön plandadır. Bu gün dünya o qədər sürətlə inkişaf edir, texnologiyalar o qədər sürətlə qabağa gedir ki, bilik, savad olmadan həyatda öz layiqli yerini tapmaq çox çətindir".**

2018-ci ildə Təhsil Nazirliyi tərəfindən bir sıra vacib tədbirlər həyata keçirilmiş, ölkə Prezidentinin təşəbbüsü ilə 43 regionda 8120 şagird yerlik 140-dan çox modul tipli məktəb quraşdırılmış və qəzalı vəziyyətdə olan bir çox kənd məktəblərinin problemləri həll edilmişdir. Bu il 100-dən çox məktəbin tikintisi nəzərdə tutulub.

Ölkə Prezidentinin sərəncamına əsasən 2014-2018-ci illərdə 142 mindən çox müəllimin diaqnostik qiymətləndirilməsi yekunlaşdırılmışdır. Bu sınaqdan uğurla keçən müəllimlərin vəzifə maaşı 2 dəfə artırılmışdır. Son 5 ildə işə qəbul edilən 18 min 136 müəllimdən kənd məktəblərində fəaliyyətə başlayan 11 min 600 nəfərə həvəsləndirmə tədbirləri tətbiq edilmişdir. Təsadüfi deyildir ki, 2018-ci ildə 500 və daha çox bal toplayan məzunlar arasında müəllim ixtisası seçənlərin sayı 2017-ci ilə nisbətən 53,6 faiz artmışdır. Bu sahədə müəyyən edilmiş prioritetlər, xüsusilə peşə təhsili istiqamətində işlər ardıcıl həyata keçirilir və Prezident İlham Əliyevin bu il yanvarın 16-da Sumqayıtda "SOCAR Karbamid" zavodunun açılışında qeyd etdiyi kimi, artıq **"...Azərbaycanda çox güclü kadr potensialı yaradılmışdır, həm fəhlə kadrları, həm mütəxəssislər. Bu, son illər ərzində təhsil sahəsinə ayrılan diqqətin bariz nümunəsidir".** Təhsil sahəsində mövcud olan problemlərin həlli ardıcıl davam edir və bu sahədə şəffaflıq artdıqca müraciətlərin, xüsusilə şikayətlərin sayı ildən-ilə azalır.

Prezident Administrasiyasına daxil olan **müraciətlərin azaldığı sahələrdən biri də əhalinin sosial müdafiəsinin əsas istiqamətlərindən olan məşğulluq və işlə təmin olunma məsələləridir.** Son illərdə əhalinin məşğulluq səviyyəsini yüksəltmək üçün ölkə Prezidentinin təşəbbüsü ilə həyata keçirilən düşünülmüş tədbirlər sayəsində əhalinin məşğulluğu xeyli artmışdır, yeni iş yerlərinin yaradılması nəticəsində bu sahədə böyük irəliləyiş nəzərə çarpır. Bu irəliləyiş **ölkə Prezidentinin 2018-ci il 30 oktyabr tarixli sərəncamı ilə təsdiq olunmuş Məşğulluq Strategiyasının və "Məşğulluq haqqında" yeni qanunun qəbul edilməsi,** ənənəvi kənd təsərrüfatı və xalq sənəti sahələrinin inkişafına göstərilən qayğı nəticəsində əldə olunmuşdur. Ötən il 2017-ci ilə nisbətən bu mövzuda müraciətlərin sayı 10 faizədək azalmışdır. Təkcə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məşğulluq mərkəzləri vasitəsilə 2018-ci ildə 51774 nəfər işlə təmin edilmiş, 2914 nəfər peşə hazırlığı kurslarına cəlb olunmuş, 120 minə yaxın vətəndaşa peşə yönümü barədə məsləhətlər verilmişdir.

Azərbaycan Prezidenti 2019-cu il yanvarın 29-da keçirilən konfransda məşğulluq məsələləri üzərində xüsusi dayanaraq demişdir: **"Dövlət qurumlarında aparılan struktur islahatları ... iş yerlərinin ixtisarına gətirib çıxarmamalıdır. Bu struktur islahatları, sadəcə olaraq, idarəetmə mexanizminin təkmilləşməsinə yönəlib. Əlbəttə, dövlət müəssisələrində işləyən vətəndaşlar öz işlərində qalacaqlar. Özəl sektor da heç bir ixtisar aparmamalıdır, əksinə, dövlətin bu qədər dəstəyi müqabilində daha çox iş yeri açmalıdır".**

Ötən illə müqayisədə Prezident Administrasiyasına daxil olan **müraciətlərin sayının azaldığı mövzulardan biri də kənd təsərrüfatı məsələləridir.** Kənd təsərrüfatı məhsullarının tədarükü, emalı, saxlanması və satışına dəstək verilməsi, subsidiyaların ayrılması, aqrolizinq məsələlərinə nəzarətin artırılması bu mövzuda daha az müraciət edilməsinə səbəb olmuşdur. Cənab Prezidentin qeyd etdiyi kimi, strateji sahə olan aqrar sahə həm iqtisadi, həm də sosial sahədir. Əhalinin 47 faizinin kənd yerlərində yaşadığı nəzərə alınaraq son illərdə bu sahəyə göstərilən diqqət xeyli artırılmış, bununla da əhalinin məşğulluq probleminin həllinə ciddi yardım göstərilmişdir. Görülən tədbirlər nəticəsində Azərbaycan həm öz ərzaq təhlükəsizliyini təmin edir, həm də ixrac potensialını gündən-günə artırır. Bu sahədə innovasiyaların tətbiqi də diqqət mərkəzindədir. Ölkə Prezidenti 2019-cu il yanvarın 24-də Tərəvəzçilik Elmi Tədqiqat İnstitutunun açılışında Elektron Kənd Təsərrüfatı layihəsinin təqdimatını müsbət qiymətləndirərək bir daha qeyd etmişdir ki, **Azərbaycanda kənd təsərrüfatının inkişafına çox böyük dövlət dəstəyi var** və hazırda bu sahədə islahatlar uğurla davam etdirilir.

Kənd təsərrüfatının inkişafında əsas amillərdən biri olan **meliorasiya və su təsərrüfatı məsələlərinə** aid müraciətlərin sayının ötən il 6,2 faiz azalması da dövlət başçısının bu sahəyə müstəsna diqqətinin nəticəsidir. Son 15 ildə tikilən və tutumu 470 milyon kubmetr olan Taxtakörpü, Tovuzçay, Şəmkirçay, Göytəpə su anbarlarının, suvarma kanallarının və subartezian quyularının istifadəyə verilməsi həm yeni yaradılan aqroparkların, həm də fərdi fermer təsərrüfatlarının su təchizatında olan problemlərin həllinə imkan vermişdir.

**2018-ci il 100 illiyini qeyd etdiyimiz Azərbaycan ədliyyəsi üçün də uğurlu il olmuşdur.** Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə-hüquq islahatları Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Son illər ədliyyə sisteminin müasirləşdirilməsinə xidmət edən mühüm qərarlar qəbul olunmuş, bir çox nailiyyətlər əldə edilmişdir.

Ədliyyə sahəsində islahatların davamlılığının təmin olunması məqsədilə **dövlət başçısının sərəncamı ilə ötən il təsdiq olunmuş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı" müstəsna əhəmiyyətə malikdir.** Mülki Prosessual Məcəllədə və "Məhkəmələr və hakimlər haqqında" qanunda edilmiş əsaslı dəyişikliklər məhkəmələrə müraciət imkanlarının genişləndirilməsini, məhkəmə icraatının elektron qaydada aparılmasını, vətəndaşların mənafelərinin təmin edilməsi və ədalət mühakiməsinin tezləşdirilməsi məqsədilə məhkəmə prosedurlarının elektronlaşdırılmasını şərtləndirib. Bunlar vətəndaşların hüquqlarının daha etibarlı müdafiəsinə xidmət edəcəkdir.

# münasibəti bütün məmurlara örnəkdir

Lakin məhkəmə orqanlarının qəbul etdikləri qərarların icrası barədə müraciətlər hələ də az deyildir. 2018-ci ildə icrası təmin edilən işlərin sayı 450 mindən çox olub, dövlət büdcəsinə 1,1 milyard manatdan çox vəsait ödətdirilib. İcra sənədlərinin icrasından qərəzli boyun qaçıran, icra məmurlarının qanuni tələblərini yerinə yetirməyən 6775 nəfər inzibati məsuliyyətə cəlb edilib, o cümlədən 2913 şəxs məhkəmələr tərəfindən inzibati qaydada həbs olunub, inzibati məsuliyyətə cəlb olunmaya dair məhkəmə qərarından nəticə çıxarmayan 446 şəxs barəsində cinayət işi başlanılıb. Eyni zamanda, 4885-ə yaxın şəxsin məhdudiyyəti məhkəmə qərarını icra etdiyinə görə götürülüb.

**Məhkəmə orqanlarının fəaliyyətinin yaxşılaşdırılması, bu sahədə şəffaflığın artırılması üçün görülən tədbirlər 2018-ci ildə də davam etdirilmişdir.** Bununla belə, Prezident Administrasiyasına məhkəmə orqanlarının fəaliyyətinə dair daxil olan müraciətlərin sayı ötən il artmışdır. Müraciətlərin sayının artmasını vətəndaşlarımızın öz problemlərini hüquqi müstəvidə həll etməyə üstünlük verməsi ilə əlaqələndirmək olar. Prezident Administrasiyasına Bakı şəhərinin Binəqədi, Xəzər, Qaradağ, Nərimanov, Nizami, Səbail, Suraxanı, Yasamal rayonlarının, həmçinin Sumqayıt, Şirvan, Abşeron, Balakən, Daşkəsən, Füzuli, Gədəbəy, Goranboy, Xaçmaz, İmişli, Quba, Masallı, digər şəhər və rayon məhkəmələrinin fəaliyyətinə dair müraciətlər nisbətən çox daxil olmuşdur. Həmçinin apelyasiya, inzibati-iqtisadi və hərbi məhkəmələrin fəaliyyəti barədə müraciətlər də az deyildir.

**Hüquq mühafizə orqanlarının fəaliyyətinə dair müraciətlərin arasında prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı müraciətlər xüsusi yer tutur.** Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış prokurorluq orqanlarımızın fəaliyyəti ölkədə qanunların icrasına nəzarət funksiyasının, o cümlədən vətəndaşların hüquqlarının qorunmasına dair qanunvericiliyin həyata keçirilməsində həmişə mühüm rol oynamışdır. Dövlət başçısının ölkədə ədalətin bərqərar olması, xüsusilə korrupsiya hallarının kökünün kəsilməsi sahəsində qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsində bu orqanların fəaliyyəti getdikcə yaxşılaşır və bu, vətəndaşların müraciətlərində də özünü göstərir.

Ötən il prokurorluq orqanlarında 29 mindən artıq vətəndaş qəbul edilmiş, onların müraciətləri əsasında 6400-dən çox vətəndaşın pozulmuş hüquqları bərpa olunmuş, prokurorluq orqanlarının digər hüquq mühafizə orqanları ilə birlikdə ölkədə qanun pozuntularına qarşı səmərəli fəaliyyəti davam etdirilmişdir. Daxili işlər orqanları ilə keçirilmiş birgə əməliyyatlar nəticəsində əvvəlki illərdə bağlı qalmış 330-dan artıq cinayətin açılması təmin edilmişdir.

**Dövlət başçısının güclü siyasi iradəsi ilə ölkəmizdə korrupsiyaya qarşı çox ciddi mübarizə aparılır.** Ölkə Prezidenti cənab İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında bütün sahələrdə şəffaflığın və dürüstlüyün təmin olunması, əsassız tələblərə, sui-istifadə hallarına son qoyulması ilə bağlı qəti tapşırıqlar vermişdir.

Ümumiyyətlə, Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində görülən tədbirlər həm respublika əhalisi, həm də beynəlxalq təşkilatlar tərəfindən müsbət qiymətləndirilir. Müxtəlif dövlət orqanlarından, o cümlədən vətəndaşların müraciətləri əsasında təqdim edilən materiallar üzrə görülən tədbirlər nəticəsində bir çox qanunsuz tikililər və obyektlər sökülmüş, bəzi vəzifəli şəxslərə rəsmi xəbərdarlıq edilmişdir.

Prokurorluq orqanlarının əməkdaşlarına qarşı tələbkarlıq ildən-ilə artırılır. Ötən il 31 prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilmiş, o cümlədən 6 nəfər orqandan xaric olunmuş, 8 nəfər vəzifədən azad edilmiş, 16 nəfərə töhmət verilmiş, 1 nəfər aşağı vəzifəyə keçirilmişdir.

Eyni zamanda, prokurorluq orqanlarının fəaliyyəti barədə Prezident Administrasiyasına Bakı şəhərinin Xətai, Qaradağ, Nəsimi, Nizami, Səbail, Suraxanı rayonlarından, həmçinin Gəncə, Lənkəran, Sumqayıt, Şəki, Abşeron, Biləsuvar, Cəlilabad, Daşkəsən, Kürdəmir, Quba, Laçın, Lerik, Masallı, Şəmkir, digər şəhər və rayonlardan daxil olan müraciətlərin sayı az olmamışdır.



**2018-ci il Azərbaycanın daxili işlər orqanları üçün də əlamətdar il olmuşdur.** Azərbaycan Xalq Cümhuriyyəti ilə yaşıd olan polis orqanları 100 il boyunca tarixin keşməkeşli dövrlərində daim ölkəmizdə dövlətçiliyin, ictimai təhlükəsizliyin, vətəndaş hüquq və azadlıqlarının qorunmasına, sabitliyin təmin olunmasına xidmət etmişdir. **Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə böyük inkişaf yolu keçərək möhkəmlənmiş daxili işlər orqanları bu gün Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində fəaliyyətini daha da təkmilləşdirmişdir.**

İctimai asayişin, təhlükəsiz həyatın, qanunçuluğun əsas təminatçılarından olan, sabitliyin qorunub saxlanılmasında, cinayətkarlıq hallarının qarşısının alınmasında müstəsna rolu olan daxili işlər orqanlarının fəaliyyəti nəticəsində bu gün vətəndaşlar tam rahat və əmin-amanlıq şəraitində yaşayırlar. Məhz bu orqanların qətiyyəti sayəsində ölkədə xaos, anarxiya yaratmaq istəyən pozucu qüvvələrin qarşısına güclü sipər çəkilmişdir.

Daxili İşlər Nazirliyində vətəndaşların müraciətlərinə baxılması müntəzəm olaraq nəzarətdə saxlanılır. Keçən il nazirliyə daxil olan müraciətlərin 31,8 faizi müsbət, 2,7 faizi qismən həll edilmiş, qalanları barədə isə müvafiq tədbirlər görülmüş, bu işdə nöqsanlara yol verdiklərinə görə 467 polis əməkdaşı intizam qaydasında cəzalandırılmış, o cümlədən 31 nəfər xidmətdən xaric edilmiş, bütövlükdə isə polis əməkdaşlarının qanunsuz hərəkətlərindən şikayətlər 11 faiz azalmışdır.

Əbəs deyil ki, **Azərbaycan ötən il MDB və Avropa məkanında ən təhlükəsiz və sabit dövlətlərdən biri kimi tanınmış,** cinayətlərin, o cümlədən mülkiyyət əleyhinə olan dələduzluqların, xuliqanlıq və digər cinayətlərin açılması yaxşılaşmış, vətəndaşlara dəyən maddi ziyanın ödətdirilməsi faizi artmış, yol-nəqliyyat hadisələrində ölənlərin sayı 3,7 faiz, xəsarət alanların sayı 0,5 faiz azalmış, “Təhlükəsiz şəhər” sisteminin texniki imkanları vasitəsilə 3300-dən çox cinayət işi açılmış, 10 minə yaxın hüquqazidd əməlin qarşısı alınmışdır.

Buna baxmayaraq, polis orqanlarının fəaliyyəti ilə əlaqədar daxil olan müraciətlər az deyildir. Bunlar istintaqın aparılması, dələduzluq, böhtan və şantaj, məişət zorakılığı və sair məsələlərlə bağlıdır. Qeyd etməliyik ki, polisin fəaliyyəti ilə bağlı müraciətlərin 27 faizi ayrı-ayrı şəxslərin yol verdiyi dələduzluq faktlarının araşdırılması barədədir. Bütövlükdə polisin fəaliyyətinə dair daxil olan müraciətlərin sayı Bakı şəhərinin Binəqədi, Xətai, Xəzər, Nərimanov, Nəsimi, Yasamal rayonlarından, Şirvan, Cəlilabad, Goranboy, Göyçay, Göygöl, İsmayıllı, Qazax, Neftçala, Saatlı, Salyan, Siyəzən, Şabran, Şəmkir, Tərtər, Yardımlı, Zaqatala, digər şəhər və rayonlardan nisbətən çox olmuşdur.

Azərbaycan iqtisadiyyatının qüdrətinin güclü sahibkarlardan asılı olduğunu bildirən **cənab Prezident öz çıxışlarında vergi orqanlarının vəzifəsinin sahibkarların biznes fəaliyyəti üçün əngəl yaratmaqdan deyil, əksinə onların fəaliyyətini stimullaşdırmaqdan, rahat işləmələrini təmin etməkdən ibarət olduğunu vurğulayır.**

Ötən il vergi sistemində idarəetmə prinsipləri yenidən təşkil edilib və təkmilləşdirilib, müasir innovativ texnologiyalar tətbiq olunub, şəffaflığın təmin edilməsi, vergiödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın yüksəldilməsi ilə bağlı əhatəli tədbirlər həyata keçirilib. **2018-ci ildə Vergilər Nazirliyinin xətti ilə daxilolmalar 7 milyard 418 milyon manat və yaxud 100,5 faiz olub, 2017-ci ilə nisbətən 444 milyon manat və ya 6,4 faiz çox icra edilib.**

> “2018-ci ildə Prezident Administrasiyasına daxil olmuş müraciətlərin 69 faizi ərizə, 30,7 faizi şikayət, 0,3 faizi təklifdir”.
>
> **İlham ƏLİYEV**

Vergi uçotunun və mal dövriyyəsinin şəffaflaşdırılması bu sahədə vətəndaş müraciətlərinin sayına da öz təsirini göstərmiş, ötən il vergi orqanlarının fəaliyyəti ilə bağlı müraciətlər 2017-ci illə müqayisədə 11,2 faiz azalmışdır. Bununla belə, bu mövzu üzrə müraciətlərin sayı 2019-cu ildə görüləsi işlərin hələ çox olduğunu göstərir.

Azərbaycanda vergi inzibatçılığının təkmilləşdirilməsi, biznes fəaliyyətinin yaxşılaşmasına şərait yaradan islahatların aparılması nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında da yüksək qiymətləndirilib. Dünya Bankının hazırladığı biznes mühitinin əlverişliliyi üzrə qiymətləndirməni əks etdirən “Doing Business 2019” hesabatında birbaşa vergi məsələlərinə aid iki indikator üzrə Azərbaycanın mövqeyi əhəmiyyətli dərəcədə yaxşılaşaraq, “Biznesə başlama” indikatoru üzrə son bir ildə 18-ci yerdən 9-cu yerə, “Vergilərin ödənilməsi” indikatoru üzrə isə 35-ci yerdən 28-ci yerə yüksəlib və həmin göstəricilər üzrə respublikamız MDB məkanında ilk yerlərdən birini tutur.

**Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikada həyata keçirilən sosial-iqtisadi siyasətin tərkib hissəsi olan gömrük siyasəti də iqtisadiyyatın bugünkü tələblərinə uyğun olaraq təkmilləşdirilir.** Dövlət başçısının “Ölkədə idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” 2018-ci il 20 aprel tarixli sərəncamı idxal-ixraca nəzarət sistemini Vergilər Nazirliyi ilə Dövlət Gömrük Komitəsinin birlikdə həyata keçirməsinə şərait yaradıb. Qarşılıqlı nəzarət sisteminin tətbiqi vergidən yayınmanın qarşısını almaqla yanaşı, sahibkarlıq subyektlərində yüksək vergi mədəniyyətinin və könüllü riayət sisteminin formalaşdırılması istiqamətində görüləcək ən mühüm tədbirlərdən biri olacaq.

2018-ci ildə ölkə iqtisadiyyatının inkişafında və büdcənin gəlirlər hissəsinin formalaşmasında xüsusi rolu olan **Dövlət Gömrük Komitəsinin xətti ilə dövlət büdcəsinə 3 milyard 434 milyon manat və ya proqnoza nisbətən 244 milyon manat çox vəsait daxil olub. Bu, 2017-ci illə müqayisədə 825 milyon manat və ya 31,6 faiz çoxdur.**

Azərbaycan Prezidenti Nazirlər Kabinetinin 2019-cu il yanvarın 11-də keçirilən iclasında bütün sahələrdə, o cümlədən vergi və gömrük sahəsində şəffaflığın daha da artırılmasını tələb edərək demişdir: **“Mən tam əminəm ki, aparılan islahatlar nəticəsində həm bizim gəlirlərimiz artacaq, - artıq artıb, gömrük 1 milyard manat əlavə vəsait toplayıb, - eyni zamanda, biz kölgə iqtisadiyyatına böyük zərbə vurmuş olarıq... Hər kəs başa düşməlidir ki, Azərbaycanda bütün işlər qanun çərçivəsində aparılmalıdır... Ona görə bu il də islahatların dərinləşməsi istiqamətində çox ciddi addımlar atılacaq”.**

İslahatlar nəticəsində artıq ixracın tamamilə elektron idarəetmə sistemi vasitəsilə həyata keçirilməsi təmin edilmiş, idxal-ixrac, tranzit əməliyyatlarına sərf edilən vaxt azalmış, sərhəd-buraxılış məntəqələrində əməliyyat və prosedurlar daha da sürətlənmişdir. Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriya ölkəmizə səfərində Azərbaycanda gömrük sahəsində atılan addımları təqdirəlayiq hesab etmiş, ölkəmizdə bu yöndə görülən işlərin digər dövlətlər üçün də faydalı olacağını və Azərbaycan təcrübəsinin öyrənilməsinin vacibliyini qeyd etmişdir.

> “Yerli icra orqanları vətəndaşlara daim diqqət və qayğı göstərməlidirlər. Yaddan çıxarmamalıdırlar ki, onlar vətəndaşlar üçün çalışırlar, yaddan çıxarmamalıdırlar ki, onlar vətəndaşlara xidmət edirlər”.
>
> **İlham ƏLİYEV**

Gömrük sahəsində aparılan islahatlar və sağlamlaşdırma prosesinin nəticələri vətəndaş müraciətlərində də əksini tapmışdır. Bu mövzu üzrə şikayətlər faiz etibarilə azalmışdır. Buna baxmayaraq, 2018-ci ildə bəzi gömrük-keçid məntəqələrinin fəaliyyəti barədə şikayətlər daxil olmuşdur. Gömrük sahəsində aparılan islahatlar, innovasiya layihələrinin həyata keçirilməsi 2019-cu ildə vətəndaş məmnunluğunun təmin edilməsinə və bu qəbildən olan müraciətlərin azalmasına xidmət edəcəkdir.

Bir daha vurğulamalıyıq ki, Prezident Administrasiyasına daxil olan müraciətlərin hər biri diqqətlə baxılıb araşdırılır, lazımi tədbirlər görülür, əsaslı müraciətlər həll edilir və nəticəsi barədə vətəndaşlara cavab verilir.

## Təhlil və nəzarət bir-birini tamamlayanda

Vətəndaşların müraciətlərinə baxılmasını yaxşılaşdırmaq, müraciətlərdə qaldırılan məsələlərin həllini təmin etmək üçün onların təhlili çox vacib məsələlərdən biridir. Müraciətlərin dinamikası, onların növ və xarakter etibarilə tərkibi müntəzəm təhlil edilərək respublikada vətəndaş müraciətlərinə necə baxılması barədə dolğun təsəvvür əldə olunur və bu işi daha da yaxşılaşdırmaq üçün lazımi tədbirlər görülür.

Qeyd etmək lazımdır ki, vətəndaş müraciətlərinin təhlili təkcə statistik rəqəmlərdən ibarət deyildir. Təhlil prosesində müraciətlərin coğrafi bölgüsü, şəhərlər və rayonlar üzrə dinamikası öyrənilməklə bərabər, həm də onların dövlət orqanlarında necə araşdırıldığı, hansı tədbirlər görüldüyü, onların yaranma səbəbləri öyrənilir, müraciətlərdə qaldırılan problemlərin həlli və gələcəkdə təkrarlanmaması üçün hansı qabaqlayıcı tədbirlərin görülməsinin vacibliyi müəyyən edilir.

Bu məqsədlə il ərzində istər mərkəzi, istərsə də yerli icra hakimiyyəti orqanlarında **vətəndaş müraciətlərinə baxılma vəziyyəti müxtəlif formalarda, o cümlədən kameral nəzarət qaydasında daim diqqətdə saxlanılmış,** müraciətlərə baxılması işinin “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununa uyğun qurulmasını təmin etmək məqsədilə dövlət orqanlarına zəruri tövsiyə və tapşırıqlar verilmiş, onların yerinə yetirilməsi vəziyyəti öyrənilmişdir.

Vətəndaşların müraciətlərinə baxılması işinin təkmilləşdirilməsi və səmərəliliyin artırılması məqsədilə 2018-ci ildə bu və ya digər şəhər və rayonlardan daxil olan müraciətlərdə qaldırılan məsələlərin qısa icmalı hazırlanaraq müvafiq yerli icra hakimiyyəti orqanlarına göndərilmiş, həmin qurumların şura iclaslarında və müşavirələrində geniş müzakirə edilmişdir. Alınmış məlumatlardan görünür ki, əksər şəhər və rayonlarda, o cümlədən Şəki, Ağcabədi, Ağstafa, Ağsu, Astara, Bərdə, Biləsuvar, Göyçay, Masallı, Şabran, Şəmkir, Yardımlı və Zərdabda icmallarda göstərilən nöqsan və çatışmazlıqlar aradan qaldırılmış, analoji nöqsanların bir daha təkrarlanmaması üçün müvafiq tədbirlər görülmüşdür.

Ümumilikdə, icmallarda qaldırılan məsələlərin 41 faizi öz həllini tapmış, 20 faizi üzrə izahat verilmiş, 14 faizinin əsassız olduğu müəyyən edilmiş, 25 faizi isə icra olunmaqdadır.

Ümumiləşdirilmiş məlumatlar əsasında qəti demək olar ki, vətəndaş müraciətləri həm mərkəzi, həm də yerli icra hakimiyyəti orqanlarının daim diqqət mərkəzində olmuşdur.

**2018-ci il ərzində mərkəzi icra hakimiyyəti orqanlarının 315 kollegiya iclasında, yerli icra hakimiyyəti orqanlarının isə 379 şura iclasında, həmçinin bu orqanlarda keçirilən digər 2693 tədbirdə vətəndaş müraciətlərinə baxılması işi müzakirə olunmuşdur.** Bu iclaslarda vətəndaş müraciətlərində qaldırılan ayrı-ayrı məsələlərin müzakirəsi ilə yanaşı, bir çox hallarda müraciətlərə baxılmasında nöqsanlara yol vermiş, yaxud vətəndaşları narahat edən problemlərin həllinə laqeyd yanaşmış, vəzifə öhdəliklərini vicdanla yerinə yetirməmiş vəzifəli şəxslər barədə intizam tənbehi tədbirləri də görülmüşdür. **Belə ki, 2018-ci ildə mərkəzi icra hakimiyyəti orqanlarının vəzifəli şəxslərindən 860 nəfərinə töhmət və ya şiddətli töhmət verilmiş,** 79 nəfərin əmək müqaviləsinə xitam verilmiş, 53 nəfər barəsində digər intizam tənbehi tədbiri görülmüş, 632 nəfərə xəbərdarlıq edilmişdir.

**Yerli icra hakimiyyəti orqanlarına gəlincə, ötən il burada 70 vəzifəli şəxs barəsində intizam tənbehi tədbiri görülmüşdür.** Onların 57 nəfərinə töhmət və ya şiddətli töhmət verilmiş, 13 nəfərin əmək müqaviləsinə xitam verilmiş, həmçinin 270 nəfərə xəbərdarlıq edilmişdir.

**Yerli icra hakimiyyəti orqanlarının Prezident Administrasiyasına təqdim etdikləri hesabatların təhlili göstərir ki, ötən il həmin orqanlara daxil olmuş müraciətlərin sayında artım vardır.** Ən çox artım Bakının Binəqədi, Xəzər, Qaradağ rayonlarında, Gəncə, Yevlax şəhərlərində, Ağcabədi, Ağdam, Balakən, Beyləqan, Biləsuvar, Cəlilabad, Gədəbəy, Xızı, Qazax, Qəbələ, Qobustan, Lerik, Saatlı, Şabran, Şuşa, Tovuz, Yardımlı, Zaqatala, Zəngilan, digər şəhər və rayonlarda qeydə alınmışdır. **Bununla belə, bəzi şəhər və rayon icra hakimiyyətlərinə daxil olan müraciətlərin sayı azalmışdır.** Azalma daha çox Bakı şəhəri və onun Nizami, Pirallahı, Suraxanı, Yasamal rayonlarında, Naxçıvan Muxtar Respublikasının rayonlarında, Lənkəran, Mingəçevir, Sumqayıt, Şəki, Şirvan, Füzuli, Göyçay, Göygöl, Hacıqabul, Xocavənd, İmişli, Kəlbəcər, Kürdəmir, Qax, Quba, Qubadlı, Laçın, Masallı, Sabirabad, Samux, Ucar, Zərdab, digər şəhər və rayonlarda nəzərə çarpır.

**2018-ci ildə mərkəzi icra hakimiyyəti orqanlarına** ünvanlanmış vətəndaş müraciətlərinin 72,3 faizi bilavasitə vətəndaşlardan, 27,7 faizi isə yuxarı və ya digər dövlət orqanlarından daxil olmuşdur. **Yerli icra hakimiyyəti orqanlarında isə** bilavasitə vətəndaşlardan və yuxarı dövlət orqanlarından daxil olmuş müraciətlərin nisbəti 51,6 faiz və 48,4 faiz təşkil etmişdir.

**Təhlillər göstərir ki, bəzi şəhər və rayonlardan olan vətəndaşlar yaşadıqları ərazinin yerli icra hakimiyyəti orqanları ilə müqayisədə yuxarı dövlət orqanlarına daha çox müraciət edirlər.** Məsələn, Bakı şəhərinin bəzi rayonları, Mingəçevir, Naftalan, Yevlax, Ağdam, Ağsu, Astara, Beyləqan, Bərdə, Cəbrayıl, Göyçay, Göygöl, İmişli, Kəlbəcər, Kürdəmir, Qəbələ, Qobustan, Laçın, Neftçala, Samux, Siyəzən, Şamaxı, Yardımlı, digər şəhər və rayonların icra hakimiyyətlərinə bilavasitə daxil olan müraciətlərin sayı həmin rayonlardan yuxarı orqanlara göndərilən müraciətlərə nisbətən **daha az** olmuşdur.

Bu cür hallara mərkəzi icra hakimiyyəti orqanlarında da rast gəlmək olur. Belə ki, bəzi mərkəzi icra hakimiyyəti orqanlarının və digər qurumların fəaliyyət istiqamətinə aid məsələlərlə bağlı bilavasitə onların özlərindən daha çox yuxarı orqanlara müraciət edilmişdir.

*Ardı 6-cı səh.*



# Prezident İlham Əliyevin vətəndaş müraciətlərinə

Əvvəli 5-ci səh.

Buna misal olaraq, İcbari Tibbi Sığorta və Dövlət Turizm agentliklərini, Milli Arxiv İdarəsini, Maliyyə Bazarlarına Nəzarət və Auditorlar palatalarını, Ali Attestasiya Komissiyasını, İpoteka və Kredit Zəmanət Fondunu, Dövlət Sığorta Kommersiya Şirkətini, "Azneftkimyamaş" və "Aqrarkredit" səhmdar cəmiyyətlərini, Sumqayıt və Gəncə apelyasiya məhkəmələrini göstərmək olar.

**Ümumilikdə, ötən il ərzində dövlət hakimiyyəti orqanlarına daxil olmuş vətəndaş müraciətlərinin 85 faizinə mərkəzi, 15 faizinə isə yerli icra hakimiyyəti orqanlarında baxılmışdır.** Bu müraciətlərin növ etibarilə təhlili göstərir ki, onların 72,3 faizi ərizə, 27,2 faizi şikayət, 0,5 faizi isə təkliflərdən ibarətdir.

**Mərkəzi icra hakimiyyəti orqanlarında və digər qurumlarda baxılmış müraciətlərin 32,3 faizi müsbət həll olunmuş,** 3,1 faizi qismən təmin edilmiş, 10 faizi əsassız sayılmış, 36,6 faizində qaldırılan məsələlərə dair vətəndaşlara müvafiq izahat verilmişdir. Müraciətlərin 12,7 faizi baxılmaq üçün aidiyyəti qurumlara göndərilmiş, 5,3 faizi icradadır.

**Yerli icra hakimiyyətlərində müraciətlərin 32 faizi müsbət həll olunmuş,** 2,8 faizi qismən təmin edilmiş, 4 faizi əsassız sayılmış, 49,2 faizi barədə müvafiq izahat verilmişdir. Müraciətlərin 8,6 faizi baxılmaq üçün aidiyyəti qurumlara göndərilmiş və 3,4 faizi icradadır.

Vətəndaş müraciətlərinin bilavasitə tematik təhlilinə nəzər saldıqda görürük ki, vətəndaşlar dövlət orqanlarına ən müxtəlif mövzularda müraciətlər ünvanlamışlar. Bəzi hallarda mövcud dövlət xidmətlərinin tədricən yeni formada, daha müasir tərzdə göstərilməsi, yaxud innovativ yanaşmaya əsaslanan, təmassız, onlayn rejimdə yeni xidmətlərin təqdim olunması mahiyyətcə müraciətlərin yeni formalarının yaranmasına, nəticə etibarilə müraciətlərin sayının çox olmasına gətirib çıxarır.

Misal üçün, əlillik dərəcələrinin təyin edilməsi və tibbi-sosial ekspert komissiyalarının fəaliyyəti mövzusunda müraciətlərin sayı 2018-ci ildə əvvəlki illə müqayisədə xeyli artmışdır.

Ötən il Prezident Administrasiyasına bu mövzuda 2017-ci ilə nisbətən 52 faiz çox müraciət daxil olmuşdur. Artımın səbəbi araşdırıldıqda aydın olmuşdur ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində aparılan struktur dəyişikliklərindən sonra əlillik təyinatına bilavasitə məsul olan bu nazirlikdə və Səhiyyə Nazirliyində yaradılmış işçi qruplar tərəfindən 2018-ci il ərzində verilən əlillik təyinatları təhlil edilmiş və ilin əvvəlindən təyin olunmuş əlillik dərəcələrinin əsaslılığı araşdırılmışdır. Araşdırmanın nəticələrinə əsasən, 1000-dən artıq təyinat ləğv olunmuş, həmin şəxslərə aylıq pensiya, müavinət və təqaüdlər üzrə ödənişlərin aparılması dayandırılmış, ödənilmiş vəsaitin dövlət büdcəsinə bərpası istiqamətində tədbirlərə başlanılmışdır. Təbii ki, bu cür tədbirlər öz növbəsində TSEK-lərlə bağlı vətəndaş müraciətlərinin sayının artmasında müəyyən rol oynamışdır.

Əlillik təyinatı və ya əlillik təyinatından imtina zamanı vəzifə öhdəliklərinin icrasında yol verdikləri nöqsanlara görə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin TSEK sədrlərindən 8-i işdən azad olunmuş, 2-sinə isə töhmət verilmişdir.

**Prezident İlham Əliyevin "İcra intizamının möhkəmləndirilməsi və icraya nəzarətin təşkilinin təkmilləşdirilməsi tədbirləri haqqında" 2006-cı il 26 oktyabr tarixli fərmanının tələblərinə uyğun olaraq, dövlət hakimiyyəti orqanlarında icra intizamına riayət olunması işi daim diqqət mərkəzində saxlanılmışdır.**

Prezident Administrasiyasına daxil olan müraciətlərə baxılmasında nəzarət işinin təşkili həmişə vacib məqamlardan biri olmuşdur və bu gün də mühüm məsələ olaraq qalır. Çünki məhz nəzarət qaydasında dövlət orqanlarından alınmış cavabların müqayisəli təhlili müraciətlərdə qaldırılan problemlərin əsl səbəblərini müəyyən etməyə və cavabdeh şəxslərin məsuliyyətə cəlb edilməsinə imkan verir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli fərmanları ilə təsdiq edilmiş kargüzarlığın aparılması və bu işə nəzarətin həyata keçirilməsi qaydalarına riayət olunması xüsusi əhəmiyyət daşıyır.

Dövlət başçısı nəzarət işinə daim xüsusi diqqət yetirir və öz çıxışlarında bunu müntəzəm vurğulayır: **"... ictimai nəzarətin gücləndirilməsi çox önəmli məsələdir. Mən öz çıxışlarımda dəfələrlə demişəm ki, mütləq ictimai nəzarət olmalıdır. Çünki ictimai nəzarət olan yerdə işlər daha yaxşı gedir".**

Bütövlükdə müraciətlərdə qaldırılan məsələlərin öz həllini tapmasında onlara nəzarət qaydasında baxılmasının böyük rolu olmuşdur. Prezident Administrasiyasında nəzarətə götürülmüş vətəndaş müraciətlərinin statistik təhlili göstərir ki, 2018-ci ildə belə müraciətlərin 31,3 faizi müsbət həll olunmuş, 14,6 faizi qismən təmin edilmiş, 35,9 faizi ilə bağlı müvafiq izahat verilmiş, 12,7 faizi əsassız hesab edilmiş, 1,3 faizinin icrası dövlət proqramlarında nəzərdə tutulmuş, 4,2 faizi isə icradadır.

Göründüyü kimi, təhlil və nəzarət işini bir-birindən ayrı təsəvvür etmək çətindir. Belə olduqda dövlət orqanına müraciət ünvanlayan, ona ümid bağlayan hər bir vətəndaş hiss edir ki, dövlət daim ona dayaq duracaq, onun qanuni tələbini təmin edəcəkdir.

> "Biz islahat naminə islahat aparmırıq. Biz məqsədyönlü, düşünülmüş addımlar atırıq ki, ölkəmizin inkişafına yeni təkan verək".
>
> **İlham ƏLİYEV**

## Şikayətlərin bir səbəbi də biganəlikdir

Prezident Administrasiyasına daxil olan müraciətlərin növlər üzrə öyrənilməsi onların daha ətraflı təhlilinə, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, digər qurumlarda mövcud olan problemlər barədə dəqiq və düzgün məlumat əldə etməyə, həmin qurumların üzərinə düşən vəzifələri necə yerinə yetirdiyini təhlil etməyə, müvafiq nəticələr çıxarmağa imkan verir. Bu baxımdan daxil olan şikayətlərin ətraflı təhlili hər bir şəhər və rayon, hər bir sahə üzrə araşdırılır. Şikayətlərin təhlili göstərir ki, bunlar əsasən biganəliyin, süründürməçiliyin nəticəsidir və vətəndaşların yerlərdə həll olunmalı problemlərinə laqeyd yanaşıldıqda, onlar, təbiidir ki, yuxarı dövlət orqanlarına, o cümlədən Prezident Administrasiyasına müraciət etməli olurlar.

**Ümumiyyətlə, 2017-ci illə müqayisədə 2018-ci ildə şikayətlərin sayı faiz etibarilə azalmışdır.** Bununla belə, araşdırma göstərir ki, hüquq mühafizə orqanlarının və məhkəmələrin, İHB nümayəndələrinin və bələdiyyələrin fəaliyyəti, müalicə və dərmanlarla təminat, səhiyyə müəssisələrinin və tibbi personalın fəaliyyəti, şəhərsalma, çoxmərtəbəli binaların və kommersiya-istehsalat obyektlərinin tikintisi, söküntüsü və kompensasiyaların verilməsi, sığorta, aqrolizinq, yaşayış binalarının təmiri, qaz sayğaclarının quraşdırılması məsələləri üzrə şikayətlər üstünlük təşkil etmişdir. Bu da həmin məsələlərin vətəndaşlar üçün çox aktual olmasından, bəzi hallarda isə onların əsassız şikayətlər etməsindən, yaxud öz hüquqlarını kifayət qədər dərindən bilməməsindən, hər vasitə ilə özünün haqlı olduğunu sübut etmək istəyindən irəli gəlir.

Şəhər, rayon İHB aparatlarının fəaliyyəti, yerli hakimiyyət orqanlarında vətəndaşların qəbulu və müraciətlərə baxılması, fərdi evlərin tikintisi, kənd təsərrüfatı üçün torpaq sahələrinin ayrılması, subsidiyaların verilməsi, məhsulların emalı, saxlanılması və satışı, meliorasiya və su təsərrüfatı, orta təhsil, diplomların verilməsi və tanınması, bank əməliyyatları, kreditlərin verilməsi, rabitə və informasiya texnologiyaları, sosial yardım və müavinətlər, əmək mübahisələri, işdən çıxarılma, əməkhaqqı, işlə təmin olunma, qaz, istilik, enerji təchizatı, təhlükəsizlik və ictimai asayişin qorunması, qaçqınlarla və məcburi köçkünlərlə bağlı məsələlər üzrə **şikayətlərin sayı azalmışdır.**

2017-ci illə müqayisədə şikayətlərin sayı Bakı şəhərinin Xəzər, Sabunçu rayonlarından, Mingəçevir, Naftalan, Ağcabədi, Ağdam, Ağstafa, Ağsu, Astara, Beyləqan, Cəbrayıl, Gədəbəy, İmişli, Kürdəmir, Qobustan, Neftçala, Salyan, Şamaxı, Şəmkir, digər şəhər və rayonlardan **artmışdır.**

Bununla yanaşı, Bakı şəhərinin Qaradağ, Nərimanov, Nizami, Pirallahı, Suraxanı, Yasamal rayonlarından, Naxçıvan Muxtar Respublikasının rayonlarından, Sumqayıt, Abşeron, Balakən, Biləsuvar, Daşkəsən, Göygöl, Xaçmaz, Xocalı, Qubadlı, Lerik, Saatlı, Sabirabad, Samux, Siyəzən, Tərtər, Tovuz, Ucar, Zərdab, digər şəhər və rayonlardan şikayətlərin sayı azalmışdır.

**Şəhər, rayon icra hakimiyyətlərinin, İHB nümayəndələrinin və bələdiyyələrin fəaliyyətinə** dair müraciətlər həmişə böyük əhəmiyyət daşıyır və onların təhlili vətəndaşların öz yerli hakimiyyət orqanları ilə münasibətlərini əks etdirir. Bu mövzuda daha çox şikayət Bakı şəhərinin bəzi rayonlarından, həmçinin Lənkəran, Mingəçevir, Yevlax, Ağcabədi, Ağdaş, Ağstafa, Beyləqan, Bərdə, Cəbrayıl, Gədəbəy, Xızı, Kəlbəcər, Qazax, Qobustan, Laçın, Lerik, Masallı, Neftçala, Sabirabad, Salyan, Siyəzən, Şabran, Şamaxı, Şəmkir, Tovuz, Yardımlı, Zərdab, digər şəhər və rayonlardan daxil olmuşdur.

Ötən il bəzi bələdiyyələrin fəaliyyətində ciddi qanun pozuntuları aşkar edilmiş, həmin faktlar əsasında hüquq mühafizə orqanları tərəfindən cinayət işləri açılmış, görülmüş tədbirlər nəticəsində 5921 hektar torpaq sahəsinin qanunsuz verilməsinin qarşısı alınmış, bələdiyyə mülkiyyətinə vurulan ziyanın ödənilməsi təmin edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu il yanvarın 29-da Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfransda demişdir: **"Yerli icra orqanları vətəndaşlara daim diqqət və qayğı göstərməlidirlər. Yaddan çıxarmamalıdırlar ki, onlar vətəndaşlar üçün çalışırlar, yaddan çıxarmamalıdırlar ki, onlar vətəndaşlara xidmət edirlər. Bütün dövlət məmurları - Prezidentdən başlayaraq lap aşağı səviyyəli məmura qədər hər kəs bilməlidir ki, bizim əsas vəzifəmiz xalqa xidmət etməkdir. Yerli icra orqanları diqqətli olmalıdırlar, problemləri həll etməlidirlər".**

2018-ci ildə Prezident Administrasiyasına vətəndaşlar 100-dən çox **tikinti şirkəti tərəfindən çoxmərtəbəli yaşayış binalarının inşasında** müvafiq norma və qaydalara, həmçinin müqavilə şərtlərinə riayət edilməməsindən, bəzi şirkətlərin mənzilləri 2 və daha artıq şəxsə satmasından, razılığa gəlinmədən, kompensasiyalar verilmədən söküntü işlərinə başlanılmasından, binaların təhlükə törədəcək dərəcədə yaxın məsafədə tikilməsindən şikayət etmişlər. Bunlardan "Hermes-S", "Murad M.S.", "İnteks", "Grand Plaza", "Elite City", "N Turan", "Pearl Construction", "TFM Smart Project", "Fədək", "Sizin mənzil", "NV Construction", "Dönüş-1", "MVVL Verus Praedium", "Azadlıq Residence", "Pilot-1", "FVS İnşaat", "Rahatlığın məkanı", "Poleks", "Park Bayil", "İnşaat Konstruksiyaları", "Draft Construction", "Qlobal-SF", "Malibo", "Avrasiya Construction", "İnkişaf-S", "SKY Residence", "Xəmsə-İnşaat", "Buta Qroup", "Cavid 2016", "Rahat Həyat", "Qismət-M Construction", "Archico" MMC-lər, "Sabah Residence", "Best Construction", "Regal Residence", "Orbita", "Merkuri", "Pilot İnşaat A", "Yeni ev -19", "Məkan", "EDİF", "Mahal", "Teymuroğlu", "Olympus Park", "Bəhrə", "İqtisadçı-2005" və digər MTK-lar barədə şikayətlər daha çox olmuşdur.

Eyni zamanda, vətəndaşlar "Belıy lebed", "Rahatlığın məkanı", "Burhan", "Altes Park", "AAAF" yaşayış komplekslərində illərdən bəri idarəetmədə mövcud olan problemlərin həll olunmadığından şikayət etmişlər.

İnanırıq ki, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, eləcə də digər qurumlarda vətəndaşların müraciətlərinə, xüsusilə şikayətlərinə daha çox diqqət yetiriləcək və şikayətlərin sayı getdikcə azalacaqdır.

## Vətəndaşa əsaslı və konkret cavab verilərsə...

Vətəndaşların müraciətlərinin təhlili, onların yaranma səbəblərinin öyrənilməsi bir danılmaz həqiqəti üzə çıxarır ki, vətəndaş öz problemi ilə əlaqədar müraciət etdiyi ilk instansiyada əsaslı və konkret cavab alarsa, heç vaxt yuxarı orqanlara yazılı müraciət etməz və uzun məsafəni qət edərək müxtəlif idarələrin qapısını döyməz. Unutmaq olmaz ki, vətəndaşların müraciətlərinə diqqətlə yanaşılması hər bir dövlət qurumunun ən mühüm vəzifələrindən biridir.

Lakin vətəndaşlara əsaslı cavab verilməyəndə onlar öz problemlərini həll etmək üçün aidiyyəti qurumlara növbəti müraciət göndərir ki, bu da təkrar və çoxsaylı müraciətlərin yaranmasına səbəb olur. Təkrar müraciətlər Bakı şəhəri rayonlarının, Gəncə, Mingəçevir, Şəki, Ağcabədi, Ağsu, Astara, Bərdə, Biləsuvar, Cəbrayıl, Cəlilabad, Gədəbəy, Göygöl, İmişli, Kürdəmir, Laçın, Neftçala, Salyan, Samux, Siyəzən, Şamaxı, Şəmkir, Tovuz, Ucar, Zəngilan, digər şəhər və rayonların payına düşür.

> "Mütləq ictimai nəzarət olmalıdır. Çünki ictimai nəzarət olan yerdə işlər daha yaxşı gedir".
>
> **İlham ƏLİYEV**

Araşdırmalar göstərir ki, mərkəzi və yerli icra hakimiyyəti orqanlarına edilən təkrar müraciətlərin bir qismi laqeydliyin, biganə münasibətin nəticəsidirsə, xeyli hissəsi də subyektiv səbəblərdən yaranır. Bəzi vətəndaşlar haqsız olsalar da, hər il çoxsaylı müraciətlər göndərməklə öz əsassız iddialarının həyata keçirilməsində israr edir, hüquqlarından sui-istifadə etməyə çalışırlar. Yazdıqları müraciətlərlə bağlı onlara dəfələrlə əsaslandırılmış cavab verilsə də, yazmaqda davam edir və hər dəfə yeni mövzular tapırlar.

Abşerondan Sakit Xankişiyev, Ağcabədidən Elçin Cəlilov, Ağdamdan Şakir Məhərrəmov və Vidadi Sadıqov, Bərdədən Zahid Mikayılov, Beyləqandan Gürşad Ramazanov və Vüqar Əliyev, Biləsuvardan Eldar Hüseynov və Elvin Quluzadə, Binəqədidən Həmid Axundov, Zərbani Ağayeva, Cəlilabaddan Emil Bayramov, Sadıq Yarıyev, Göyçaydan Təşəkkür Şirinov, İmişlidən Nahidə Şirinova, Laçından Xanlar Tarverdiyev, Lənkərandan Nazim Məmmədov, Masallıdan Nərgiz Əmirova, Naftalandan Ruqiyyə Qarayeva, Nərimanovdan Kamran Rəcəbov, Rəşad Səlimli, Ülviyyə Baxşiyeva, Nəsimidən Fatma Piriyeva, Nizamidən Veronika Rufullayeva, Saatlıdan Qismət Səmədov, Sabunçudan Olqa və Aleksandra Smolyaninovalar, Gülsəfa Musayeva, Bahar Əhmədova, Suraxanıdan Rəşid Rzayev, Aygün Əmiraslanova, Xətaidən Svetlana Quliyeva, Yasamaldan Şövqi Həsənov, Yelena Yusupova, Sevil Səfərova, Zərdabdan Mehman Məmmədov, digər şəhər və rayonlardan başqaları ilboyu müxtəlif mövzularda çoxsaylı müraciətlər göndərmişlər.

**"Vətəndaşların müraciətləri haqqında" qanunun əsas maddələrindən biri də bu qanunun pozulmasına görə məsuliyyəti müəyyən edən 16-cı maddədir və həmin maddədə konkret olaraq göstərilir ki, qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrinə uyğun olaraq məsuliyyət daşıyırlar. Həmin məcəllələrin müvafiq maddələri bu məsuliyyətin nədən ibarət olduğunu əks etdirir.**

Burada bir daha "Vətəndaşların müraciətləri haqqında" qanunun "Müraciətin baxılmamış saxlanması" maddəsinə bir daha nəzər salmaq yerinə düşər. Həmin maddədə həm vətəndaşları, həm də müraciətə baxan subyektləri daim narahat edən bir məsələ konkretləşdirilib. Müəyyən olunur ki, vətəndaşın təkrar müraciətlərinə 1 il ərzində 3 dəfə mahiyyəti üzrə əsaslandırılmış cavab verildikdə və təkrar müraciətdə məsələnin həlli üçün yeni məlumatlar olmadıqda, müraciət baxılmamış saxlanılır. Lakin bu barədə yazılı müraciət edənə 5 iş günündən gec olmayaraq, şifahi müraciət edənə isə dərhal məlumat verilməlidir. Müraciətlərə baxan vəzifəli şəxslər qanunun verdiyi bu imkandan sui-istifadə etməməlidirlər. Əsaslandırılmış cavab ümumi, başdansovdu sözlərdən ibarət olmamalı, hüquqi cəhətdən qanunlara tam uyğun hazırlanmalı, haqlı olub-olmaması vətəndaşa sübut edilməlidir.

## Qəbul dövlətin vətəndaşla canlı ünsiyyət vasitəsidir

Prezident İlham Əliyevin dövlət orqanları rəhbərlərinin qarşısında qoyduğu əsas vəzifələrdən biri də vətəndaşların yerlərdə qəbul olunması və onların müraciətlərinin yerindəcə həll edilməsi istiqamətində tədbir görülməsidir. Bəzi hallarda mərkəzi və yerli icra hakimiyyəti orqanlarında və digər dövlət qurumlarında vətəndaşların müraciətləri öz həllini tapmadığına görə onlar yuxarı dövlət orqanlarına, o cümlədən Prezident Administrasiyasına üz tuturlar.

Bu müraciətlərin təhlilindən aydın olur ki, vətəndaşları daha çox narahat edən məsələlərdən biri bəzi mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, habelə digər qurumlarda qarşılaşdıqları bürokratik əngəllər, onların problemlərinə laqeyd yanaşılması, müraciətlərinə cavab verilməməsi hallarıdır.

**Prezident Administrasiyasının Qəbul otağına il ərzində 15 minədək vətəndaş müraciət etmişdir. Təsdiq olunmuş cədvələ uyğun olaraq keçirilmiş qəbullarda hər bir vətəndaş diqqətlə dinlənilmiş, Administrasiyanın müvafiq struktur bölmələri onların qanuni tələblərinin yerinə yetirilməsi üçün lazımi tədbirlər görmüşlər.**

2018-ci ildə "President.az" saytının "Qəbula yazılmaq" bölməsi vasitəsilə Qəbul otağının kompüter bazasına daxil olmuş 2 minə yaxın müraciətin müəllifinə izahat verilmiş, bir çoxu isə müvafiq qaydada qeydiyyata alınaraq qəbulda iştirak etmişdir.

Qəbul otağına ən çox Bakı şəhərinin rayonlarının, Mingəçevir, Yevlax şəhərlərinin, Ağcabədi, Ağdam, Ağdaş, Ağstafa, Ağsu, Astara, Beyləqan, Bərdə, Cəbrayıl, Gədəbəy, Göygöl, İmişli, Kürdəmir, Laçın, Lerik, Neftçala, Salyan, Şamaxı, Şəmkir, Zəngilan, digər şəhər və rayonların sakinləri müraciət etmişlər.

Vətəndaşlar Qəbul otağına daha çox sosial müdafiə, işlə təmin olunma, əmək mübahisələri, hüquq mühafizə və məhkəmə orqanlarının, şəhər, rayon icra hakimiyyətlərinin, bələdiyyələrin, yerli idarə, müəssisə və təşkilatların fəaliyyəti, xaricdə müalicə və dərman təminatına kömək göstərilməsi, təhsil haqqını ödəməkdən azad olunma, xaricdə alınmış diplomların tanınması və sair məsələlər barədə müraciət etmişlər.

Ötən il ərzində respublikanın mərkəzi və yerli icra hakimiyyəti orqanlarında 828 mindən çox vətəndaş qəbul edilmişdir.






# münasibəti bütün məmurlara örnəkdir

Onların 56,7 faizi mərkəzi, 43,3 faizi yerli icra hakimiyyəti orqanlarında qəbul olunmuşdur.

**Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən 2013-cü ildən başlayaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri təsdiq olunmuş qrafikə uyğun olaraq vətəndaşların bölgələrdə mütəmadi qəbullarını keçirirlər.**

2018-ci ildə respublikanın müxtəlif bölgələrində keçirilən qəbullarda əmək və əhalinin sosial müdafiəsi naziri - 565, kənd təsərrüfatı naziri - 487, təhsil naziri - 314, daxili işlər naziri - 303, ekologiya və təbii sərvətlər naziri - 302, mədəniyyət naziri - 236, ədliyyə naziri - 226, gənclər və idman naziri - 182, nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri - 172, səhiyyə naziri - 140, iqtisadiyyat naziri - 126, fövqəladə hallar naziri - 114, vergilər naziri - 30, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri - 747, Dövlət Gömrük Komitəsinin sədri - 260, Əmlak Məsələləri Dövlət Komitəsinin sədri - 228, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri - 227, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri - 99, Baş prokuror - 296, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi - 245, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri - 111 vətəndaşı qəbul etmişdir.

**Bütövlükdə 2018-ci ildə mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 62 şəhər və rayonda keçirdikləri qəbullarda iştirak etmiş 5410 vətəndaş 5201 müraciət təqdim etmişdir. Qəbullarda vətəndaşlar tərəfindən qaldırılan məsələlərin 39,8 faizi müsbət həll olunmuş, 42,9 faizi ilə bağlı onlara izahat və tövsiyələr verilmiş,** digərləri icrada saxlanılmış və ya aidiyyəti üzrə dövlət orqanlarına istiqamətləndirilmiş, bir qismi isə əsassız sayılmışdır.

**Araşdırmalar göstərir ki, bəzi qurumlarda vətəndaşların qəbulu daha səmərəli təşkil olunmuş,** onların qəbul cədvəlləri digərlərinə nisbətən daha yaxşı tərtib edilmişdir. Həmin cədvəllərdə qəbul vaxtı məhdudlaşdırılmamış, həftənin bütün iş günlərində vətəndaşların qəbulu təşkil edilmiş, qəbulun yeri və qəbula yazılma qaydaları haqqında KİV vasitəsilə məlumat verilmiş, məlumatlarda qəbulun təşkilini həyata keçirən səlahiyyətli şəxslərin əlaqə nömrələri əks olunmuş və qəbul otaqlarında müvafiq şərait yaradılmışdır. Bunlardan İqtisadiyyat, Maliyyə, Fövqəladə Hallar, Mədəniyyət, Gənclər və İdman, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Naftalan, Şirvan, Balakən, Biləsuvar, Cəlilabad, Daşkəsən, Xocavənd, İsmayıllı, Qax, Qazax, Qəbələ, Oğuz, Sabirabad, Samux, Siyəzən, Yardımlı, Zaqatala, digər şəhər və rayon icra hakimiyyətlərini və başqa qurumları göstərmək olar.

Bununla yanaşı, bəzi dövlət qurumlarında yuxarıda göstərilən tələblərə tam əməl olunmur, qəbulun təşkilində müəyyən nöqsanlara yol verilir. Buna misal olaraq, Xarici İşlər, Energetika nazirlikləri, "Bakı Metropoliteni" QSC, Milli Arxiv, "İçərişəhər" Tarix-Memarlıq Qoruğu idarələri, Bakı və Şirvan Apelyasiya Məhkəmələri, Ərazilərin Bərpası və Yenidən Qurulması, Beynəlxalq Bank, Auditorlar Palatası, Bakı şəhərinin Xətai, Səbail rayonlarının, Ağdam, Astara, Göyçay, Kəlbəcər, Şabran, Ucar, Zəngilan, digər şəhər və rayon icra hakimiyyətləri və başqa qurumlar göstərilə bilər.

Dövlət hakimiyyəti orqanlarının saytlarının monitorinqi göstərir ki, bəzi yerli icra hakimiyyətlərinin saytlarında qəbul cədvəlləri mütəmadi yenilənmir, yaxud məlumatlar dəqiq göstərilmir. Məsələn, Xəzər, Sabunçu, Göyçay, Qobustan, Qubadlı, Saatlı, Salyan, Ucar, digər şəhər və rayon icra hakimiyyətlərini belələrinə misal göstərmək olar.

## Elektron sənəd dövriyyəsi müasir idarəetmə sisteminə açılan qapıdır

Azərbaycan Prezidenti cənab İlham Əliyevin respublikamızın qeyri-neft sektorunun inkişafına verdiyi önəm, elektron xidmətlərin daha da genişləndirilməsi və keyfiyyətinin artırılması məsələsini daim nəzarətdə saxlaması, innovasiyaların tətbiqi sahəsində həyata keçirilən iri layihələrə kifayət qədər maliyyə vəsaiti ayırması öz bəhrəsini verməkdədir.



Prezident İlham Əliyev müasir dünyanın və zamanın nəbzini tutmağı bacaran uzaqgörən siyasətçi və dövlət xadimi kimi gələcək inkişafımızın əsas istiqamətlərindən bəhs edərkən deyir: **"Ölkələri inkişafa doğru aparan əsas amillər savad, bilik, texnologiyalar, innovasiyalar, yeniliklərdir... İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı olmadan müasir cəmiyyətlər uğurlu fəaliyyət göstərə bilməz".**

2018-ci il rəqəmsal idarəçiliyin arteriyası olan elektron sənəd dövriyyəsinin inkişafı sahəsində də önəmli qərarların qəbul edilməsi ilə yadda qalmışdır. Onlardan biri **"Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 oktyabr tarixli Fərmanıdır.** Bu fərmanın əsas məqsədi rəqəmsal hökumətə keçid çərçivəsində dövlət orqanlarında daxili idarəetmə proseslərinin optimallaşdırılması və elektronlaşdırılması, bu sahədə çevik və effektiv idarəetmənin təmin edilməsidir. Fərmana əsasən, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin 2020-ci il dekabrın 31-dək elektron sənəd dövriyyəsi altsisteminə qoşulması ilə vahid şəbəkə yaradılacaq, sənədlərin daha operativ çatdırılması, icra olunması və bu proseslərə nəzarət mexanizminin təkmilləşdirilməsi təmin ediləcəkdir.

**Ölkə başçısının imzaladığı digər bir mühüm normativ hüquqi akt "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 sentyabr tarixli Fərmandır.** Bu fərmanın qəbul edilməsi yuxarıda qeyd olunan proseslərin mərkəzləşdirilməsinə, vahid prinsip və tələblər əsasında formalaşdırılıb aparılmasına və dövlət strukturları arasında inteqrasiyanın asanlaşdırılmasına xidmət edəcəkdir.

Ötən il İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sisteminin təkmilləşdirilməsi ilə əlaqədar sistem iştirakçılarından daxil olan təkliflər təhlil olunmuş, ümumiləşdirilmiş və nəticədə sistemə bir sıra yeni funksiyalar daxil edilmiş, sistemin imkanları daha da genişləndirilmişdir. Əminliklə deyə bilərik ki, ölkə başçısı cənab İlham Əliyevin bu təşəbbüsü uğurla həyata keçirilir və həm operativlik, həm də qənaət prinsipi baxımından dövlət idarəçiliyi sisteminə böyük fayda verir.

> "Bizim yolumuz inkişaf yoludur...
> Bundan sonra da Azərbaycan yalnız uğurlar,
> qələbələr yolu ilə gedəcək".
>
> **İlham ƏLİYEV**

**Cənab Prezidentin təşəbbüsü ilə yaradılan digər bir irimiqyaslı layihə olan "Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sistemi"** də uğurla fəaliyyət göstərir, orada yerləşdirilən məlumatlar mütəmadi öyrənilir və sistemin administratoru kimi şöbəmiz tərəfindən daim diqqət mərkəzində saxlanılır.

2018-ci il ərzində bu sistemə respublikanın yerli icra hakimiyyəti orqanları tərəfindən 120 mindən artıq müraciət daxil edilmişdir. Şöbə tərəfindən aparılmış təhlil göstərir ki, məlumatlar ildən-ilə daha dəqiq, dolğun və ətraflı doldurulur, istifadəçilərin sistemlə işləmə peşəkarlığı və məsuliyyəti artır. Bakı şəhəri və onun Binəqədi, Qaradağ, Nərimanov, Nizami, Pirallahı, Səbail, Suraxanı və Yasamal rayonlarında, Gəncə, Lənkəran, Naftalan, Sumqayıt və Ağdam, Ağsu, Biləsuvar, Göyçay, İmişli, İsmayıllı, Kəlbəcər, Kürdəmir, Qobustan, Şəmkir, digər şəhər və rayonlarında bu sahədə fəallıq nəzərə çarpır və inanırıq ki, respublikanın digər bölgələrində də bu işlər sürətləndiriləcəkdir.

**Dövlət orqanlarında, idarə və təşkilatlarda sənədləşmə işinin, o cümlədən yazışmaların və vətəndaş müraciətlərinin müasir informasiya vasitələrinin köməyi ilə qəbulu və göndərilməsi getdikcə daha geniş vüsət alır.** "Qaynar xətt", "Çağrı mərkəzi", "Şikayət və təkliflər", səyyar poçt qutuları, bütün dövlət orqanlarının rəsmi saytlarında yerləşdirilən "Müraciət etmək" xanaları və elektron poçt vasitəsilə müraciətlərin göndərilməsi getdikcə artır. 2018-ci ildə mərkəzi icra hakimiyyəti orqanlarına və digər qurumlara daxil olan elektron məktubların sayı əvvəlki ilə nisbətən 7,9 faiz artmışdır. Bu barədə danışarkən daha operativ müraciət etmək üçün istifadə olunan çağrı mərkəzlərini xüsusi qeyd etməliyik. Çağrı mərkəzləri və ya Qaynar xətt vasitəsilə daxil olan şifahi müraciətlərin sayı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində 160, Təhsil Nazirliyində 85, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyində 43, Səhiyyə Nazirliyində 33, İqtisadiyyat Nazirliyində 20, Kənd Təsərrüfatı Nazirliyində 11, Dövlət Gömrük Komitəsində 30, Əmlak Məsələləri Dövlət Komitəsində 13, Dövlət Miqrasiya Xidmətində 103 mindən çox olmuşdur.

## Yaradılan tarix yaşadılmalıdır

**Ulu öndər Heydər Əliyevin sözləri ilə desək, "Arxiv işlərinə gərək çox ciddi fikir verək. Bir tərəfdən ona görə ki, bu, xalqımızın tarixini əks etdirən yeganə mənbədir. İkincisi də ona görə ki, tariximizi təhrif edənlərin qarşısını almaq üçün çox mühüm amildir".** Ulu Öndərin bu müdrik sözlərini unutmağa heç birimizin haqqı yoxdur və müstəqillik illərimizin salnaməsi olan sənədlərin qorunması və gələcək nəsillərə çatdırılması hər bir Azərbaycan vətəndaşının, o cümlədən dövlət məmurunun şərəf işidir. **Bu gün dünyanın müxtəlif ölkələrindəki muzey və arxivlərdə xalqımızın tarixinə dair saxlanılan çoxlu qiymətli sənədlərin və nadir əlyazmaların tapılıb ölkəmizə gətirilməsi üçün Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dəstəyi ilə görülən işlər dediklərimizə əyani sübutdur.**

> "Mənim bir amalım var:
> güclü Azərbaycan dövləti qurmaq və
> xalqa ləyaqətlə xidmət etmək".
>
> **İlham ƏLİYEV**

Hazırda arxiv məlumatlarının müasir texnologiyalardan istifadə olunmaqla mərkəzləşdirilməsi və bu işin dövlət orqanlarında tətbiq olunan elektron sənəd dövriyyəsi sisteminin köməyi ilə həyata keçirilməsindən ötrü tədbirlər görülür.

**"Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Sənədlərin Ekspertizası və Arxiv İşi üzrə Mərkəzi Ekspert Komissiyasının yaradılması haqqında" ölkə Prezidentinin sərəncamına** əsasən şəhər və rayon icra hakimiyyəti başçılarının aparatlarında görülmüş işlər bu sahədə vəziyyətin xeyli yaxşılaşmasına kömək etmişdir. Hazırda bütün şəhər və rayon İHB aparatlarında həmin sərəncama uyğun olaraq yerlərdə yaradılmış sənədlərin ekspertizası və arxiv işi üzrə ekspert komissiyaları daimi fəaliyyət göstərir.

Şəhər və rayon icra hakimiyyəti aparatlarının sənədlərinin dövlət mühafizəsi işinin öyrənilməsindən belə məlum olur ki, 2018-ci il yanvarın 1-dək şəhər və rayon İHB-lərinin böyük əksəriyyəti müvafiq qaydalara uyğun olaraq 2012-2013-cü illərə aid sənədləri dövlət arxivlərinə təhvil vermişlər.

**Təhlillər göstərir ki, arxiv işi əksər şəhər və rayonda yaxşı təşkil olunmuşdur.** Buna misal olaraq, Bakı şəhərinin Binəqədi, Xəzər, Nizami, Sabunçu, Suraxanı və Yasamal rayonlarını, Naxçıvan Muxtar Respublikasını, Gəncə, Lənkəran, Mingəçevir, Şəki və Şirvan şəhərlərini, habelə Ağcabədi, Ağdam, Ağdaş, Ağsu, Astara, Balakən, Beyləqan, Biləsuvar, Cəbrayıl, Cəlilabad, Daşkəsən, Gədəbəy, Göygöl, Hacıqabul, Xocavənd, İmişli, İsmayıllı, Qax, Qazax, Qəbələ, Qobustan, Quba, Laçın, Lerik, Masallı, Neftçala, Oğuz, Saatlı, Sabirabad, Salyan, Siyəzən, Şabran, Şamaxı, Şəmkir, Tərtər, Tovuz, Ucar, Zaqatala, Zəngilan, digər şəhər və rayonları göstərmək olar.

Bəzi rayon icra hakimiyyətləri 2012-2013-cü illərə aid sənədləri təhvil versələr də, təqdim etdikləri hesabatlarda mövcud vəziyyəti aydın əks etdirmirlər. Bakı şəhərinin bəzi rayonlarının, Naftalan və Yevlax şəhərləri, həmçinin Bərdə, Füzuli, Göyçay, Xızı, Kəlbəcər, Kürdəmir, Samux, digər şəhər və rayon icra hakimiyyətlərində bu işin icrasına nəzarət artırılmalıdır.

2018-ci il ərzində arxiv məsələləri ilə bağlı Prezident Administrasiyasına onlarla vətəndaş müraciəti daxil olmuşdur. Vətəndaşların Prezident Administrasiyasına müraciət etməsinin əsas səbəbi lazımi arxiv sənədlərini əldə etməkdə üzləşdikləri çətinliklərdir. Yerlərdə daimi mühafizə olunan arxiv fondlarından düzgün istifadəyə laqeyd yanaşılması, struktur dəyişikliyi və ya özəlləşdirmə nəticəsində ləğv olunmuş idarə və təşkilatların sənədlərinin dövlət arxivinə verilməməsi və sair səbəblərə görə vətəndaşların dövlət arxivlərinə müraciətləri bəzən nəticəsiz qalır.

Belə halların olmaması, bugünkü görülən əzəmətli işlərin güzgüsü olan sənədlərin qorunması, bir sözlə, yaradılan tarixin yaşadılması üçün arxiv işinə diqqət daim artırılmalıdır.

## Davamlı islahatlar davamlı qələbələrə aparan yoldur

Böyük tarixi hadisələr və dərin islahatlar ili kimi yadda qalan 2018-ci il artıq geridə qalmış, xalqımız böyük gözləntilər və ümidlərlə 2019-cu ilə qədəm qoymuşdur. Ötən ilin ən böyük siyasi hadisəsi olan prezident seçkilərindən sonra daha da sürətləndirilən, düşünülmüş və gələcəyə hesablanan davamlı islahatlar Azərbaycanın tərəqqisinə etibarlı zəmin yaratmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin ötən ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında, 2014-2018-ci illər üçün regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasına dair konfransda, Azərbaycan Gəncləri Gününə həsr olunmuş toplantıda, digər mühüm beynəlxalq və respublika əhəmiyyətli tədbirlərdə ölkəmizin 2018-ci ildə əldə etdiyi göstəricilər haqqında böyük iftixar hissi ilə ətraflı hesabat vermiş və bu nailiyyətlərin nəyin sayəsində qazanıldığını aydın şərh etmişdir. Xüsusilə mötəbər məclislərdən biri olan Davos Dünya İqtisadi Forumundakı çıxış və müsahibələrində, keçirdiyi çoxsaylı görüşlərdə Azərbaycanın bütün qələbələrinin təməlində Heydər Əliyev siyasətinin, xalqla iqtidar birliyinin dayandığını bildirmişdir. Dövlət başçısı, ilk növbədə, onu qeyd etmişdir ki, Azərbaycanda Prezident öz xalqına, xalq isə öz Prezidentinə inanır və ölkə rəhbərliyi hər bir addımını xalqın mənafeyinə uyğun olaraq atır.

Azərbaycanın qazandığı nailiyyətlərlə, əldə etdiyi iqtisadi göstəricilərlə dünyanın istənilən ölkəsi fəxr edə və bunu böyük qəhrəmanlıq kimi təqdim edə bilər. Lakin Azərbaycan Prezidenti bunu özünün vəzifəsi, düşünülmüş siyasətin bəhrəsi hesab edir və daim irəliyə baxaraq deyir: **"Mən əldə edilmiş uğurlar haqqında həmişə danışmağa hazıram və fəxr ediləsi məsələlər kifayət qədər çoxdur. Ancaq mən həmişə, necə deyərlər, narazı oluram. Çünki mən istəyirəm ki, daha yaxşı olsun".** Məhz bu istəklə Azərbaycanı yeni-yeni uğurlara aparan Prezident İlham Əliyev Vətənimizə və paytaxtımız Bakıya dünya şöhrəti qazandırmışdır.

Azərbaycana və onun Prezidentinə inamın, ölkədə hökm sürən əmin-amanlığın, yaradılan infrastrukturun sayəsində paytaxtımız Bakı şəhəri ən mötəbər beynəlxalq forumların, mühüm idman yarışlarının, dünya və Avropa çempionatlarının keçirildiyi bir məkana çevrilmişdir. 2019-cu ildə "OPEC+" formatında zirvə toplantısının, V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun, futbol üzrə UEFA Avropa Liqası finalının, Aerobika və Bədii gimnastika üzrə Avropa çempionatlarının, Avropa Gənclər Olimpiya Festivalının, Formula-1 yarışının və sair beynəlxalq tədbirlərin Bakıda keçiriləcəyi buna əyani sübutdur.

Son 15 ildə həyata keçirilən düşünülmüş sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanı güclü bir dövlət kimi tanıtmış, Azərbaycan xalqının daha yaxşı yaşamasına, ölkədə güclü hərbi sənaye potensialının və qüdrətli ordunun yaradılmasına imkan vermişdir. Bu illər ərzində bazar iqtisadiyyatı prinsiplərinin sosial ədalət prinsipləri ilə uğurla birləşdirilməsi, ölkədə sabitliyin tam bərqərar edilməsi, Azərbaycanı ən təhlükəsiz məkana çevirmişdir.

Ölkə Prezidenti qarşıdakı dövrdə ölkənin inkişaf perspektivlərini və istiqamətlərini çox aydın görür və bunu xalqa bəyan edir. Bu gün Azərbaycan beynəlxalq maliyyə qurumlarının, xarici investorların həvəslə vəsait yatırdığı bir ölkədir və geniş maliyyə imkanları hesabına qlobal layihələri cəsarətlə həyata keçirməkdədir. Cənab Prezidentin səyləri ilə ölkənin enerji gücü qat-qat artırılır və regionların inkişafına həsr olunmuş konfransda onun dediyi kimi, yaxın vaxtlarda ölkəmizdə əlavə 1500 meqavat elektrik enerjisi istehsal ediləcək, yeni sənaye parkları yaradılacaq, müasir aqroparkların sayı 51-ə çatdırılacaq, ən yeni texnologiyaların ölkəyə gətirilməsi davam etdiriləcək, ölkənin ixrac imkanları daha da genişləndiriləcəkdir. Ölkəmizdən son məhsul şəklində mal ixracı gücləndiriləcək, ölkəyə daha çox valyuta gətiriləcəkdir. Əhalinin güzəranını daha da yaxşılaşdırmaq üçün müasir sənaye və emal müəssisələrinin yaradılmasına, məşğulluğun artırılmasına xüsusi diqqət yetiriləcəkdir.

Azərbaycan Prezidenti ölkədə həyata keçirilən islahatların mahiyyətini şərh edərkən demişdir: **"İslahatlar davam etdiriləcək. Bu islahatlar nəticə verir. Biz islahat naminə islahat aparmırıq. Biz məqsədyönlü, düşünülmüş addımlar atırıq ki, ölkəmizin inkişafına yeni təkan verək, hələ də həll olunmamış problemləri həll edək, nöqsanları, xoşagəlməz halları, çatışmayan məqamları aradan götürək və bunu edirik".** Bəli, Azərbaycan tərəqqi, inkişaf yolu ilə irəliləyir və növbəti illərdə də bunun qarşısını heç bir qüvvə ala bilməyəcəkdir.

Dövlət başçısı iqtisadi inkişaf məsələləri ilə yanaşı, xalqın milli-mənəvi dəyərlərinin qorunması və yaşadılması məsələlərinə də xüsusi diqqət yetirir və deyir: **"Bizi bir xalq kimi, millət kimi qoruyan ... məhz bizim dəyərlərimiz, ana dilimiz, mədəniyyətimiz, ədəbiyyatımız, incəsənətimiz olub. Azərbaycan gəncləri mütləq milli ruhda tərbiyə almalıdırlar ki, gələcəkdə dövlət maraqlarını, xalqımızın milli maraqlarını layiqincə qoruya bilsinlər".**

Azərbaycan xalqının ən böyük arzusu və məqsədi işğal altında olan torpaqlarımızın azad edilməsidir. Azərbaycan xalqının torpaqlarımızın işğalı ilə heç vaxt barışmayacağını, müharibənin hələ bitmədiyini vurğulayan cənab Prezident gənclərimizi hər an torpaqlarımızın işğalçılardan təmizlənməsinə hazır olmağa çağırır.

Ölkə Prezidenti qarşıda duran vəzifələrdən inamla danışaraq bildirir: **"Bu gün Azərbaycan dünyada çox sürətlə inkişaf edən ölkə kimi tanınır. Biz isə əldə edilmiş uğurlarla kifayətlənməməliyik, daim irəliyə baxmalıyıq və ilk növbədə, bu gün həll edə bilmədiyimiz məsələləri həll etməliyik, nöqsanları, problemləri aradan qaldırmalıyıq".**

Azərbaycan xalqı gələcəyinə və daha işıqlı sabahına əmin ola bilər. Təkcə Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illər üçün sosial-iqtisadi inkişafı Dövlət Proqramında nəzərdə tutulmuş işlərin icrasına əvvəlki proqramdan da çox - 17,4 milyard manat vəsait qoyulacaqdır. İnvestisiya təşviqi proqramı üzrə 332 layihənin həyata keçirilməsi, buna 2,8 milyard manat vəsait qoyulması, bu layihələr çərçivəsində 12 min yeni iş yerinin açılması nəzərdə tutulur ki, bu da Azərbaycanın iqtisadi inkişafına böyük kömək göstərəcəkdir və ölkə Prezidentinin dediyi kimi: **"Azərbaycan bundan sonra da uğurla, inamla inkişaf edəcək, ölkəmiz ancaq inkişaf, tərəqqi və qələbələr yolu ilə gedəcəkdir".**



*Süleyman İSMAYILOV,*
*Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri*

# Akademik Ramiz Mehdiyevin yeni əsərinin müzakirəsi keçirilib

Fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin bu günlərdə mətbuatda dərc olunmuş "Qeyri-sabit qlobal proseslər şəraitində ikiqütblülükdən sonrakı dünya" adlı yeni əsərinin müzakirəsi keçirilib.



## Əsər dövlət idarəçiliyi sahəsində mütəxəssislərin hazırlanması üçün olduqca əhəmiyyətlidir

AZƏRTAC xəbər verir ki, tədbirdə DİA-nın rektoru, akademik Urxan Ələkbərov akademik Ramiz Mehdiyevin müasir şəraitdə dövlət idarəetmə məsələləri ilə bağlı yeni əsərinin ölkəmizin son 15 ildə iqtisadi, sosial, siyasi, humanitar sahələrdə qazandığı yüksək nailiyyətlərin əsasında duran idarəetmə mexanizmlərinin təhlilinə həsr olunduğunu qeyd edib.

Rektor vurğulayıb ki, müəllif Azərbaycan Respublikasının davamlı və inklüziv inkişaf sahəsində qazandığı uğurları təkzibolunmaz dəlil-sübutlarla əsaslandırıb, onları fəlsəfi fikir süzgəcindən keçirərək elmi konseptual şəkildə ifadə edib. Əsər dövlət idarəçiliyi sahəsində mütəxəssislərin hazırlanması üçün çox faydalıdır və bu səbəbdən müzakirənin növbəti tədris sessiyası ərəfəsində keçirilməsi olduqca əhəmiyyətlidir.

Akademik Urxan Ələkbərov Heydər Əliyev siyasətinin uğurlu nəticələrindən danışaraq, ulu öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən əzmlə həyata keçirildiyini bildirib və bu gün Azərbaycanın sürətlə inkişaf etdiyini konkret faktlarla diqqətə çatdırıb. Qeyd olunub ki, bir sıra iqtisadi və sosial göstəricilərinə görə müasir Azərbaycan Respublikası hazırda yüzillik tarixi olan və dünya liderləri sayılan ölkələrlə rəqabət aparmaq durumundadır.

## Zaman elə liderləri irəli çıxarmalıdır ki, onlar dünyanı bu çətin vəziyyətdən xilas edə bilsinlər

Dövlət İdarəçilik Akademiyasının I prorektoru, professor Əlikram Abdullayev bildirib ki, "Qeyri-sabit qlobal proseslər şəraitində ikiqütblülükdən sonrakı dünya" əsəri çətin və mürəkkəb bir mövzuda yazılmasına baxmayaraq, çox asan oxunur. "Əsər çox da rəvan olmayan, ziddiyyətli, mübarizələrlə dolu, böyük həyat yolu keçmiş, zəngin dövlət idarəçiliyi təcrübəsinə malik, görkəmli bir cəmiyyətşünasın dünya, ölkə, dövlət, lider haqqında təkcə tədqiqatı deyil, həm də düşüncələridir. Bu mənada biz hər səhifədə yeni müddəalarla, məlum məsələlərin yeni çalarları ilə rastlaşırıq və bu da təbiidir. Əsər həmçinin bəşəriyyəti narahat edən qeyri-müəyyənlikdən çıxış yolları axtarışının, ədalətli dünya nizamı haqqında qayğıların əks olunduğu fikirlərdən ibarətdir. Biz, ictimai elm nümayəndələri adətən öyrənmişik ki, liderləri zaman yetişdirir. Amma əsərdə belə bir fikir vurğulanır ki, zamanı liderlər formalaşdırmalıdır, başqa yol yoxdur. Zaman elə liderləri irəli çıxarmalıdır ki, onlarda bəşəriyyətin və təmsil etdiyi millətin taleyi üçün məsuliyyət hissi olsun və onlar dünyanın bu çətin vəziyyətdən xilasını təmin edə bilsinlər", - deyə Əlikram Abdullayev qeyd edib.

## İndiki təhlükələr soyuq müharibə dövründə olduğundan daha ciddidir

Milli Məclisin deputatı, Siyasi Araşdırmalar İnstitutunun direktoru, professor Elman Nəsirov çıxışında deyib ki, akademik Ramiz Mehdiyev hər zaman əsərlərində böyük narahatlıq doğuran məsələləri qaldırır: "Bu əsər isə təkcə azərbaycanlıları deyil, bütövlükdə dünyamızı narahat edən ən mürəkkəb məsələlərin müzakirəsi və onlardan çıxış yollarının tapılması ilə bağlı bir tədqiqat işidir". Bu gün qarşıda çox ciddi təhlükələrin, hətta böyük müharibələrin olması reallığından bəhs edərkən akademik Ramiz Mehdiyev soyuq müharibə dövrü ilə bugünkü müharibə dövrünü müqayisə edib, onlardan hansının daha təhlükəli olması sualını qoyub və cavabını da əsaslandırıb. Müəllifin fikrincə, indiki təhlükələr soyuq müharibə dövründəkindən daha ciddidir. Belə ki, 60-80-ci illərdə SSRİ və ABŞ arasında bağlanmış müqavilələr əslində müharibənin qarşısını alan müqavilələr idi. Bu gün həmin sənədlərin heç biri işləmir. Digər tərəfdən isə, dünyada güc mərkəzləri formalaşır. Bu güc mərkəzlərinin maraqları toqquşanda müharibə baş verir.

## Qeyri-sabit qlobal proseslər şəraitində baş verən hadisələrin geniş təhlili

Dövlət İdarəçilik Akademiyasının Siyasi idarəetmə fakültəsinin dekanı, siyasi elmlər doktoru, professor Elçin Əhmədov bildirib ki, əsərdə ikiqütblü dünyadan sonra qeyri-sabit qlobal proseslər şəraitində baş verən hadisələr geniş təhlil olunur. "Akademik öz kitabına Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2017-ci ilin yekunlarına həsr olunan iclasındakı nitqindən sitatla başlayıb. Həmin sitatda bu gün dünyanın müxtəlif yerlərində risklərin, təhlükələrin, qanlı münaqişələrin, qarşıdurmaların artması, bütün bunlardan dünya ictimaiyyətinin narahatlıq hissi keçirməsi, Azərbaycanda isə sabitliyin, təhlükəsizliyin, normal həyatın təmin edildiyi qeyd olunur" deyən Elçin Əhmədov diqqətə çatdırıb ki, əsərdə dünya nizamının pozulduğu hərtərəfli təhlil edilib.

Siyasi idarəetmə fakültəsinin dekanı xatırladıb ki, SSRİ dağılandan sonra ABŞ nə qədər superdövlətə çevrilmiş olsa da, onun 2001-ci il 11 sentyabr hadisələrindən sonra "İslam dövləti ideyasının qarşısını almaq üçün" ərəb ölkələrinə hücumu dünya nizamını bir qədər də pozdu. "İndi ABŞ bunun nəticələrini bumeranq şəklində görür. Bu gün miqrant adı qoyulan qaçqınlar ərəb ölkələrindən Avropaya axışırsa, bu, artıq dünya nizamının pozulmasından, beynəlxalq hüququn işləməməsindən xəbər verir. Əsərdə həmçinin güc mərkəzlərinin formalaşması, hibrid müharibələri, ABŞ-ın hegemonluğunun qarşısını alan amillər kifayət qədər zəngin mənbələr əsasında göstərilir. Akademik Ramiz Mehdiyev son 15 ildə Azərbaycanın dinamik inkişafına diqqət yetirir. Bu dinamik inkişafın əsasını xalq-iqtidar birliyində, eyni zamanda Azərbaycanın müstəqil, çoxvektorlu, balanslaşdırılmış, milli maraqlara söykənən xarici siyasətində görür və bu, son 15 ildə Prezident İlham Əliyevin müdrik siyasətinin nəticəsi kimi qiymətləndirilir", - deyə Elçin Əhmədov qeyd edib.

Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının müdiri, dosent Firdovsiyyə Əhmədova bildirib ki, əsərdə müəllifin fikirləri ilə yanaşı, aparıcı analitiklərin, Avropa İttifaqı ölkələrində, ABŞ və Rusiyada olan beyin mərkəzlərinin regional və ölkələr üzrə mütəxəssislərinin fikirləri də verilir. Bu da qeyri-sabit qlobal proseslər şəraitində ikiqütblülükdən sonrakı dünyanın daha obyektiv və real mənzərəsini ortaya qoyub.

Tədbirdə çıxış edənlər akademik dairələrin müraciət edəcəyi önəmli mənbələrdən biri olacaq əsərin əhəmiyyətini vurğulayıblar.

# XXII Avrasiya İqtisadi Zirvə toplantısı çərçivəsində əməkdaşlıq memorandumları imzalanıb

İstanbul şəhərində keçirilən XXII Avrasiya İqtisadi Zirvə toplantısı çərçivəsində fevralın 7-də əməkdaşlıq memorandumları imzalanıb.

AZƏRTAC xəbər verir ki, sənədlər Azərbaycan Diasporuna Dəstək Fondu, İtaliyanın Avrasiya Dialoqu üçün Avropa İnstitutu və Rumıniyanın Levanten İncəsənət və Mədəniyyət İşləri İnstitutu ilə Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Fondu arasında imzalanıb.

Zirvə toplantısı ikinci iş gününü "Texnologiyanın inkişafı və insanlığı gözləyən gələcək", "Su və köç", "Qloballaşmanın yeni ölçüləri, populizm, sağlamlıq üçün əməkdaşlıq", "Ağıllı insanların iclası" mövzularında panel iclaslarla davam etdirib. Türkiyənin kənd təsərrüfatı və meşəçilik nazirinin müavini Akif Özkaldı, İstanbul Bilgi Universitetinin professoru İlter Turan, Avrasiya Dialoqu üçün Avropa İnstitutunun direktoru Leonardo Manzari və başqaları iclaslarda çıxış ediblər.




Qeyd edək ki, Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkilatçılığı ilə keçirilən tədbirdə Azərbaycan hər il olduğu kimi, geniş tərkibli nümayəndə heyəti ilə təmsil olunub. Nümayəndə heyətinə Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Milli Məclis Sədrinin müavini Valeh Ələsgərov, energetika naziri Pərviz Şahbazov, qeyri-hökumət təşkilatlarının nümayəndələri, media təmsilçiləri daxil idi.

Toplantıda texnologiyaların inkişafı və insanların gələcəyi, süni zəkanın iqtisadiyyatda və enerji sahəsində rolu, qloballaşmanın yeni səviyyələri, su və enerji ilə bağlı mövzular diqqət mərkəzində olub.

Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfi 22 ildir ki, Avrasiya İqtisadi Zirvəsini sülh və dialoq layihəsi olaraq həyata keçirir. Bu toplantılar aktual problemlərin müzakirə edildiyi mühüm platforma olmaqla bərabər, regionun inkişafına və əməkdaşlıq əlaqələrinin genişlənməsinə töhfə verir.

# Polşa mətbuatı "Formula-1" Azərbaycan Qran-prisindən yazıb

Polşada "Formula-1" idman növü üzrə ixtisaslaşmış ən böyük dziel-pasje.pl portalında Azərbaycan Qran-prisi haqqında məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə "Formula-1" Qrupunun baş icraçı direktoru Çeyz Kerinin Azərbaycana səfəri çərçivəsində Azərbaycan Qran-prisinin 2023-cü ilədək keçirilməsi haqqında müqavilənin imzalandığı diqqətə çatdırılıb.

Məqalədə bildirilir ki, 2016-cı ildən etibarən Bakıda təşkil olunan "Formula-1" yarışları dərhal mövsümün ən maraqlıları sırasında yer alıb. Bakıda keçirilən Qran-pri nəticələrinin gözlənilməzliyi ilə avtoidman həvəskarları tərəfindən çox bəyənilib. Azərbaycan "Formula-1" yarışlarını yüksək səviyyədə təşkil edib. Bakı isə öz gözəlliyi ilə bu yarışlara əlavə rəng qatır.



# Radikal müxalifət ölkəmizdə islam dövləti yaratmaq istəyən terrorçu qüvvələrlə işbirliyi qurub və ermənipərəst dairələr tərəfindən idarə olunur

Fevralın 7-də Azərbaycan Respublikası Baş Prokurorluğunda 2018-ci ildə görülmüş işlərin vəziyyətinə və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunan geniş kollegiya iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən Baş prokuror Zakir Qaralov 2018-ci ildə dünyada mövcud siyasi, iqtisadi və maliyyə böhranlarına baxmayaraq, ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa sadiq qalan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi hərtərəfli düşünülmüş müdrik dövlətçilik siyasəti və səriştəli idarəetmə qabiliyyəti nəticəsində ölkə həyatının bütün sahələrində böyük irəliləyişlərə, müstəqil dövlətimizin daha da möhkəmləndirilməsinə, vətənimizin iqtisadi qüdrətinin artırılması ilə nəticələnən möhtəşəm sosial-iqtisadi inkişaf göstəricilərinə nail olunduğunu, hüquqi və demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində görülən işlərin yeni müstəviyə qaldırıldığını diqqətə çatdırıb.

Baş prokuror diqqətə çatdırıb ki, son zamanlar antimilli destruktiv qüvvələrin fəallaşmaqla möhkəm özüllər üzərində təməli qoyulan ictimai-siyasi sabitlik və əmin-amanlığı pozmağa yönəlmiş hərəkətlərinin, icazəli mitinq keçirmək adı ilə vətəndaşların istirahət hüquqlarını, həmçinin Ümumxalq Hüzn Günündə şəhidlərimizin ruhuna hörmətsizlik edərək ictimai asayişi kobud şəkildə pozmaq cəhdlərinin, sosial şəbəkələr üzərindən etdikləri təhqir və böhtanlarının, ekstremist çağırışlarının qarşısı polis orqanları tərəfindən qətiyyətlə alınıb.

Xalqın dəstəyindən məhrum olan, nüfuzunu, sosial dayaqlarını tamamilə itirmiş, ölkəmizdə islam dövləti yaratmaq xəyalında olan radikal-terrorçu qüvvələrlə işbirliyi quran, ermənipərəst xarici dairələr tərəfindən idarə olunmaqla qanunsuz maliyyələşən AXCP və digər radikal müxalifət partiyaların ənənəvi inkarçı və qərəzli mövqedən çıxış edərək varlıqlarını sübut etmək naminə diqqəti özlərinə cəlb etməklə gündəmdə qalmaq üçün müxtəlif üsul və vasitələrdən istifadə etməyə çalışmaları diqqətə çatdırılıb. Antimilli müxalifət düşərgəsinin təmsilçiləri və onların xaricdəki havadarlarının xalqımızı yenidən daxili çəkişmələrə, parçalanmaya və böhrana sürükləməklə ölkəmizdə mövcud ictimai-siyasi sabitlik və əmin-amanlığı pozmağa yönələn cəhdlərinin qarşısının bundan sonra da xalqımız və dövlətimiz tərəfindən qətiyyətlə alınacağı vurğulanıb.

Hesabat məruzəsində qeyd edilib ki, 2018-ci il Azərbaycan Respublikası Prokurorluğu orqanları üçün də uğurlu olub. Ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində daxili işlər və digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə zəruri tədbirlərin həyata keçirilməsi təmin olunub.

Hesabat dövründə prokurorluq orqanlarının bütün səyləri, ilk növbədə dövlətimizin başçısının rəhbər göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə, müasir məzmunlu islahat tədbirlərinin eyni intensivliklə davam etdirilməsinə, fəaliyyət istiqamətləri üzrə işin keyfiyyətinin yüksəldilməsinə, yeni iş metodlarını tətbiq etməyə qadir olan kadr korpusunun formalaşdırılmasına, möhkəm nizam-intizam yaradılmaqla neqativ təzahürlərin vaxtında aradan qaldırılmasını təmin edən işlək nəzarət mexanizminin yaradılmasına istiqamətləndirilib.

Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən yüksək göstəricilərə nail olunmaqla 431 vəzifəli şəxs barəsində 278 cinayət işinin ibtidai istintaqı tamamlanaraq baxılması üçün məhkəmələrə göndərilib. Həmin işlər üzrə 53,3 milyon manat məbləğində maddi ziyanın ödənilməsi təmin edilməklə 34,2 milyon manat dəyərində əmlak üzərinə həbs qoyulub.

Baş Prokurorluğun Daxili İşlər Nazirliyi və digər əməliyyat qurumları ilə həyata keçirdiyi birgə səmərəli istintaq-əməliyyat tədbirləri nəticəsində qeydə alınmış 159 qəsdən adam öldürmə cinayətlərindən 153 hadisənin, o cümlədən qeyri-aşkar şəraitdə törədilmiş və əksəriyyəti xüsusilə ağır cinayətlər olan, iki və daha çox şəxsin ölümü ilə nəticələnmiş 69 hadisənin isti izlərlə açılması təmin olunub. Qeydə alınmış 71 qəsdən adam öldürməyə cəhd cinayətlərindən 70 hadisənin açılması təmin olunmaqla, həmin cinayətlərin açılması 98,6 faiz təşkil edib.

Baş Prokurorluğun ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində respublikada böyük ictimai rezonansa səbəb olan bir sıra cinayət işlərinin istintaqının müvəffəqiyyətlə aparılması diqqətə çatdırılıb. Bu işlər sırasında Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına qarşı törədilmiş terror aktı, Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsi, terrorçuluq və sair xüsusilə ağır cinayət əməlləri törətdiklərinə görə istintaq edilən iş üzrə ümumilikdə 29 nəfərin təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində həbs qətimkan tədbirləri seçilib. Həmin şəxslərdən 11-i barəsində beynəlxalq axtarış elan olunmaqla hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Bundan başqa, radikal dini yönümlü bir qrup şəxs tərəfindən Gəncə Şəhər İcra Hakimiyyətinin inzibati binasının qarşısında zorakılıq aktları, hakimiyyət nümayəndələrinə silahlı müqavimət göstərilməsi ilə müşayiət olunan kütləvi iğtişaş törədilməsi, 2 polis əməkdaşının qəsdən öldürülməsi və sair faktlar üzrə ibtidai istintaqı aparılan cinayət işi üzrə 59 nəfər təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barələrində həbs qətimkan tədbiri seçilib, 1 nəfər barəsində isə həbsli axtarış elan edilib. Həmin cinayət işinin materiallarından 51 şəxs barəsində 6 cinayət işi ayrıca icraata ayrılaraq aidiyyəti üzrə baxılmaları üçün Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Ermənistan Silahlı Qüvvələrinin kəşfiyyat və xüsusi xidmət orqanları ilə məxfi əməkdaşlığa cəlb olunmuş bir qrup hərbi qulluqçu və mülki şəxs barədə Cinayət Məcəlləsinin dövlətə xəyanət və digər maddələri ilə ibtidai istintaqı aparılmış cinayət işi qeyd edilməklə, uğurla həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində düşmənin kəşfiyyat və xüsusi xidmət orqanlarının təxribat və terror fəaliyyətinin qarşısının alındığı, cinayət işi üzrə ibtidai istintaqın tamamlanaraq baxılması üçün müvafiq hərbi məhkəməyə göndərildiyi və həmin işlər üzrə cinayət məsuliyyətinə cəlb edilmiş bütün şəxslərin təqsirli bilinərək layiqli cəzalara məhkum edilmələri diqqətə çatdırılıb.

Hesabat dövründə prokurorluq orqanlarında aparılmış xidməti yoxlamalar nəticəsində 31 prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilib, onlardan 16-na töhmət və şiddətli töhmət elan edilib, 1 nəfər aşağı vəzifəyə keçirilib, 8 nəfər vəzifədən azad edilib, 6 nəfər isə prokurorluq orqanlarından xaric olunub.

Baş prokuror Zakir Qaralov bildirib ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi öz qüvvələrini səfərbərliyə almaqla, bundan sonra da digər əlaqədar dövlət təsisatları ilə əlaqəli şəkildə dövlətçiliyimizin maraqlarının, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunması, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində zəruri tədbirlərin görülməsini təmin edəcək, dövlət müstəqilliyimizin möhkəmləndirilməsi yolunda öz xidmətlərini göstərəcək.

# Hərbi xuntanın revanş cəhdi Ermənistanda vəziyyəti gərginləşdirir

Uzun illər Ermənistanı idarə edən hərbi xuntanın ölkəni sürüklədiyi problemlər öz fəsadlarını getdikcə daha qabarıq şəkildə büruzə verməkdədir. Məsələnin maraqlı tərəfi həm də ondan ibarətdir ki, bu klan əhalinin sosial problemlərə etirazını qəddarlıqla, repressiv üsullarla yatırırdısa, indi vəziyyətdə bir qədər dəyişiklik müşahidə olunur. Əhali üzləşdiyi problemləri daha qabarıq şəkildə gündəmə gətirir. Eyni zamanda insanların narazı qaldıqları məmurlara qarşı etiraz aksiyaları da təşkil etməsi halları genişlənir.

## Polislə etirazçılar arasında qarşıdurma

Məsələn, Armavir əyalətinin Arşaluys kənd sakinlərinin keçirdiyi aksiyada bir qrup sakin kənd icra nümayəndəliyinin binası önünə yığışaraq icmanın rəhbəri Zarzanda Qriqoryanın istefasını tələb edib. Bu zaman sakinləri ərazidən uzaqlaşdırmağa cəhd edən polislə etirazçılar arasında qarşıdurma baş verib. Polis əməkdaşları aksiya iştirakçılarının binaya daxil olmasını əngəlləmək üçün onlara qarşı güc tətbiq ediblər.

Buna hiddətlənən kənd sakinlərinin aksiyası daha da genişlənib. Vəziyyətin nəzarətdən çıxdığını görən "Mənim addımım" blokunun deputatı Taqui Kazaryan təcili kəndə gələrək etirazçıların nümayəndələri və kənd rəhbəri ilə görüş keçirib. Amma deputat daha sonra bildirib ki, danışıqlar zamanı heç bir razılığa gəlmək mümkün olmayıb: "Əgər desəm ki, söhbət rəvan keçdi və konstruktiv həll yolu tapıldı, onda sadəcə yalan danışmış olacağam".

Deputatın sözlərinə görə, problem kənd rəhbərinin bundan əvvəlki aksiya zamanı onun istefası tələbinin irəli sürüldüyü sənədə imza atanlara qarşı təzyiq göstərməsindədir.

Arşaluys sakinləri uzun müddətdir kənd icmasının rəhbəri Zarzanda Qriqoryanın istefaya getməsini tələb edirlər. Zarzanda Qriqoryan "Yerkrapa" yarımhərbi təşkilatının rəhbəri, Azərbaycan ərazilərinin işğalına başçılıq etmiş və Qarabağda soydaşlarımıza qarşı çoxsaylı hərbi cinayətlər törətmiş general Manvel Qriqoryanın qardaşı oğludur. Ötən il o, külli-miqdarda silah və döyüş sursatının qanunsuz saxlanılmasında ittiham olunaraq həbs edilmiş, lakin dekabrda azadlığa buraxılmışdı. Buna etiraz edən ermənilər hökumətdən bu generalın yenidən həbsə atılmasını tələb edirlər.

## "Müxalifət öz proqramını səssizcə və planlı şəkildə təkmilləşdirir"

Ermənistanın "İrates" qəzeti yazır ki, sosial narazılıqlardan istifadə edən Sarkisyan-Koçaryan tərəfdarlarının revanş istəyi vəziyyəti daha da gərginləşdirə bilər: "Ermənistanın daxili siyasi həyatında heç bir ciddi irəliləyiş yoxdur, məyus olan insanların sayı getdikcə artır, bundan istifadə edən müxalifət isə öz proqramını səssizcə və planlı şəkildə təkmilləşdirir".

Etibarlı mənbələrinə istinad edən qəzet bildirib ki, hazırda ölkənin əsas müxalif cəbhəsinin baş nazir Nikol Paşinyana qarşı ciddi işə keçməməsinin səbəbi hökumətin daha çox səhvlər buraxmasını və hakimiyyətdə olduğu bir il müddətində verdiyi vədlərin əksinə olaraq, dövlətin borcunu 7 milyard dollara yaxınlaşdıran baş nazirə mayda sarsıdıcı sürpriz etməyə hazırlaşmaları ilə əlaqədardır. Və müxalif cəbhədə birləşib bu sürprizə hazırlaşanlar təkcə Paşinyana görə istefaya məcbur edilən Serj Sarkisyan və onun Respublikaçılar partiyası yox, həm də həbsdəki Robert Koçaryanın komandası və yeni hökumətin yoxlamalarından narazı qalan oliqarxlarıdır:

"Əgər sosial-iqtisadi həyatda nəzərəçarpan nəticələr olmasa, onda Nikol Paşinyan hakimiyyəti günbəgün öz mövqelərini və sosial dayaqlarını itirməyə başlayacaq. Belə vəziyyətdə kifayət qədər güclü təbliğat kampaniyası və savadlı addımların köməyi ilə parlamentdənkənar müxalifət hakimiyyətin mövqelərini düşündüyümüzdən daha sürətlə sıradan çıxaracaq. Məlumata görə, əvvəlki rəhbərliyin nümayəndələri - söhbət təkcə Respublikaçılardan yox, həm də Koçaryan qanadından gedir - mayda hakimiyyətə gəlməsinin bir ili tamam olacaq Paşinyana ciddi sürprizlər etməyi planlaşdırırlar. Lakin bu sürprizin hansı format və növdə olacağını öyrənə bilmədik, çünki proses hələ müzakirə mərhələsindədir və ciddi hazırlıq davam edir. Belə vəziyyətdə hər şey Paşinyandan asılıdır: əgər o, ciddi islahatlar apara və məyusluq çarxını dayandıra bilsə, müxalifət istəyinə çatmayacaq. Əks təqdirdə, biz Ermənistanda növbəti sarsıntılar və siyasi özbaşınalığın şahidi olacağıq".

## Separatçı rejimdən hərbi xuntaya hərtərəfli dəstək

Bundan başqa Nikol Paşinyan hələ Qarabağa dair heç bir ciddi danışıqlar başlatmasa da Ermənistanda keçmiş hakimiyyətin nümayəndələri, Qarabağdakı erməni səhra komandirləri də ona qarşı şiddətli hücum başladıblar. Paşinyanı Qarabağa dair "nəsə gizli plan qurmaqda" günahlandırırlar və onun ümumiyyətlə danışıqlara qatılması faktını "satqınçılıq əlaməti" hesab edirlər.

Bütün bunlar Paşinyana qarşı Sarkisyan-Koçaryan koalisiyasının yeni hücumları fonunda baş verir. Bu hal xüsusən Ermənistanda eks-prezident Robert Koçaryana qarşı irəli sürülən ittihamlar fonunda özünü daha qabarıq büruzə verir.

Zəbt edilmiş ərazilərdə yaradılan separatçı rejim də bu məsələdə hərbi xuntaya hərtərəfli dəstək verir. Hətta Qarabağdan olan keçmiş səhra komandiri, qondarma "DQR təhlükəsizlik şurasının katibi", general Vitali Balasanyan Robert Koçaryana qarşı irəli sürülən ittihamları qurama adlandırıb.

Balasanyan və Qarabağdan olan digər keçmiş səhra komandirləri də Paşinyana Azərbaycanla danışıqlara görə də hücum edirlər, münaqişənin həlli üçün hər hansı güzəştə qarşı çıxırlar. Proseslərin gedişi qarşıdakı dövr ərzində separatçı rejimin fəaliyyəti nəticəsində Ermənistanda vəziyyətin daha da qarışacağını deməyə əsas verir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# İllərdə qalan izlər



İllər də insanlar kimidir. İnsanın uşaqlıq, gənclik, ahıllıq, qocalıq dövrü olduğu kimi, illərin də yaz, yay, payız, qışı var. İnsan həyatdan köçdükdən sonra onu iki başlıca xüsusiyyəti yaşadır, xatırladır: yaxşı əməli və yaxşı övladı. İllər isə insanların yaddaşında, özündə ehtiva etdiyi mühüm, əlamətdar hadisələrlə tarixə düşür, salnamələrə, elmi əsərlərə salınır. Özümüzün də xəbərimiz olmadan ötən hər saatı, günü, ayı, ili, hətta anı belə, tarixə çevrilir:

*İllər də insantək gəlib dünyaya,*
*İllər də insantək qocalıb gedir.*
*İllər var, zəfəri gəlməyir saya,*
*İl də var, dünyadan bac alıb gedir.*

## Masallı gündən-günə inkişaf edir, daha abad olur





Bəli, insan və zaman, təbiət və cəmiyyət həmahəngdir, onlar bir-birini tamamlayır, mənalandırır. Canlıların əşrəfi olan insan hansısa zaman kəsiyində qurub-yaratdığı, gördüyü işlərə baxanda sevinir, həyatda əbəs yaşamadığı üçün fərəh hissi keçirir. Bu gün ən yeni tariximizin səhifələrini vərəqlədikcə sevindirici, əlamətdar hadisələrlə yanaşı, keçən əsrin son onilliyi - 90-cı illər də yada düşür, gözlərimizin önündən gəlib keçir.

O vaxt respublikamızın hər yerində olduğu kimi, Masallı rayonunda da vəziyyət yaxşı deyildi. Hadisələr adi məcrasından çıxmışdı. Xaos, özbaşınalıq, hərcmərclik baş alıb gedirdi. Böyüyün-kiçiyin yerini bilən, ağsaqqal, ziyalı sözünə həmişə yüksək qiymət verən bu rayonun camaatı da çaşbaş qalmışdı. Sadə, zəhmətkeş adamlar mitinqlərdə populist çıxışlar edənlərin boş sözlərinə, yağlı vədlərinə belə inanırdılar da. Amma onlar hakimiyyətdə çox yox, yalnız bir il duruş gətirə bildilər. Aralarında gedən vəzifə, rüşvət, mənsəbpərəstlik davası ölkəni vətəndaş müharibəsi həddinə gətirib çıxartdı. Belə bir vəziyyətdən hiyləgərcəsinə istifadə edən bədnam qonşularımız fürsətdən istifadə edib rayonlarımızı işğal edirdilər. Əfsuslar olsun ki, damaqlarında şirə qalan həmin qüvvələr Azərbaycanın indiki inkişafını gözü götürməyən xarici dairələrin təsiri altında yenidən respublikada qarmaqarışıqlıq yaratmaq, iğtişaşlar törətmək sevdasına düşmüşlər. Lakin bunlar əbəsdir. Xalq artıq kimin kim olduğunu yaxşı bilir.

Tarix göstərir ki, ən çətin vaxtlarda belə böyük Yaradanın nəzərləri vətənimiz Azərbaycanın üstündə olmuşdur. 1990-cı illərdə də belə oldu. Xalqın təkidli tələbi ilə 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyev yenidən hakimiyyətə qayıtdı. Müharibə gedən ölkədə o vaxt iqtisadiyyat çökmüşdü, adamların yaşayış səviyyəsi əvvəlki illərlə müqayisədə çox-çox aşağı düşmüşdü. Daxildəki separatçı qüvvələr havadarlarına arxalanaraq çirkin niyyətlərinə çatmaq üçün ölkəni parçalamaq fikrindən əl çəkmək istəmirdilər. Lakin yanılırdılar. Onlar ümummilli liderin uzaqgörən siyasəti, polad iradəsi qarşısında tab gətirə bilməyib məğlub oldular. Bəziləri Azərbaycanı tərk edərək xarici ölkələrdə gizlənmək məcburiyyətində qaldılar. Xalqımızın böyük oğlunun gərgin zəhməti ilə vəziyyət düzəldi, həyat addım-addım öz yoluna düşdü, məcrasına yönəldi. Cəbhədə atəşkəs əldə edildi, daxildə sabitik yaradıldı. 1994-cü ilin sentyabrında ölkənin gələcək inkişafı üçün müstəsna əhəmiyyəti olan "Əsrin müqaviləsi" imzalandı. İqtisadiyyatı dirçəltmək, mövcud ehtiyatları hərəkətə gətirmək üçün islahatlar həyata keçirildi. Yaranan sabitlik, zəngin karbohidrogen ehtiyatları xarici şirkətlərin sahibkarlarını respublikamıza sərmayə yatırtmağa sövq etdi.

### Regional dövlət proqramları Masallıda da inkişafın lokomotividir

Ulu öndər Heydər Əliyevin son sözlərindən biri bu idi ki, mən İlham Əliyevə özüm qədər inanıram, mənim görə bilmədiyim işləri o sizinlə birlikdə həyata keçirəcəkdir. Uzaqgörən siyasətin məntiqi bir daha öz təsdiqini tapdı. Yaxın beş il üçün hazırlanan regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı 2004-cü il 11 fevral tarixdə qəbul edildi. Beləliklə, müstəqil Azərbaycanın yeni inkişaf dövrü başladı. Neftdən gələn ilk gəlirlər ən mühüm sahələrə, o cümlədən regionların inkişafına yönəldildi. Bu iqtisadi-siyasi sənəd bütün bölgələr kimi Masallı rayonunun da inkişafında mühüm rol oynadı. İlk növbədə fəaliyyətini dayandırmış müəssisələrin bir qismi işə salındı. Zaman keçdikcə yeni istehsal sahələri yaradıldı. Bunlar iqtisadiyyatın dirçəldilməsinə, illərlə işsiz qalan insanların yenidən əmək cəbhəsinə qayıtmasına şərait yaratdı. Adamların əhvali-ruhiyyəsi getdikcə yaxşılaşmağa başladı, sabaha inamları artdı. Yaranan belə bir ruh yüksəkliyi ilə tikinti-quruculuq, abadlıq işləri genişləndirildi. İllərlə baxımsız qalan şəhər təsərrüfatında dönüş yarandı. Sökülüb-dağılmış küçələr, parklar təmir edildi. Astarada tikilən 90 meqavoltluq modul tipli elektrik stansiyası cənub bölgəsi rayonlarının, eləcə də Masallının sosial-iqtisadi həyatında müsbət rol oynadı. Əhali normal səviyyədə elektrik enerjisi almaq imkanına malik oldu. Müəssisələrin istehsal gücü artdı. "EMBOWOOD" mebel fabrikində hazırlanan məhsullar nəinki respublikamızda, xarici ölkələrdə belə alıcıların rəğbətini qazandı. Fabrik bu gün də nümunəvi özəl müəssisələrdən biridir.

I Dövlət Proqramı çərçivəsində Masallıda daha sürətlə inkişaf edən sahələrdən biri də turizm sektoru olmuşdur. Sahibkarlar üçün yaradılan münbit şərait nəticəsində onlarca istirahət mərkəzi fəaliyyətə başlamışdır. Təbiətin füsunkar guşələrində salınan bu obyektlər rayona turist axınını sürətləndirmişdir. "İstisu" müalicə və istirahət ocağı neçə-neçə insana şəfa verməkdədir.

Ulu öndərin "Təhsil millətin gələcəyidir" müdrik kəlamı əməli fəaliyyətdə başlıca istiqamət kimi götürüldü. Yeni məktəblərin tikintisinə start verildi. Köhnə, istismar müddətini başa vurmuş təhsil ocaqlarının əsaslı təmiri də unudulmadı və onlar da yeni, müasir avadanlıqlarla təchiz edildi.

Rayon iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatının dirçəldilməsi istiqamətində də müəyyən tədbirlər həyata keçirildi. Beləliklə, I Dövlət Proqramı çərçivəsində görülən işlər qarşıdakı illərdə tərəqqi üçün zəmin yaratmış oldu.

### İnkişafın daha sürətli mərhələsi

Belə bir deyim var: "Yaxşı başlanğıc işin yarısı deməkdir". Regionların sosial-iqtisadi inkişafı I Dövlət Proqramı çərçivəsində aparılan işlər rayonlarımızın daha abad və gözəl olmasını, iqtisadiyyatın bütün sahələrində yeni-yeni nailiyyətlərin qazanılmasını birə-beş artırdı. İnam, istək olan yerdə isə ən çətin, müşkül işlər belə öz həllini tapır. Dövlət dəstəyi olanda arzular, istəklər daha tez reallaşır,



sürətlə həyata keçirilir. I Dövlət Proqramının davamı kimi 2009 - 2013 və 2014 - 2018-ci illər üçün qəbul edilən regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarında Masallı rayonu üzrə nəzərdə tutulmuş layihələrin icrası bunu təsdiq edir.

Şəhərin Heydər Əliyev prospektində ucaldılan binalar, salınan yaşıllıqlar əraziyə xüsusi gözəllik verir. Halbuki 5-6 il bundan əvvəl burada az sayda kiçik tikililər mövcud idi. 1,5 hektar ərazisi olan Bayraq meydanı, Azərbaycanın Rəmzləri Muzeyi, Olimpiya İdman





Kompleksi, Asan Xidmət Mərkəzi, Regional Boks və Taekvando Mərkəzi, Aqrar İnkişaf Mərkəzi, habelə rayon polis şöbəsinin yeni, müasir üslublu binaları burada yerləşir. Şəhərin mərkəzində, Heydər Əliyev xatirə parkı ərazisində inşa olunan Tarix-Diyarşünaslıq Muzeyi, Uşaq İncəsənət Məktəbi də xüsusi layihə əsasında tikilib. Mərkəzi Rayon Xəstəxanasının binası keçən əsrin ortalarında istifadəyə verildiyindən istismar müddətini başa çatdıraraq yararsız hala düşmüşdü. Müalicə ocağı əsaslı şəkildə yenidən qurulmuş və lazım olan müasir tipli tibbi avadanlıqlarla təchiz edilmişdir. Burada göz xəstəliklərinin müalicəsi və əməliyyat şöbəsinin fəaliyyəti nəticəsində Masallı və ətraf rayonlardan olan pasiyentlər Bakıya və digər yerlərə yox, buraya üz tuturlar. Akademik Zərifə Əliyeva adına Göz Xəstəlikləri İnstitutunun tanınmış həkim-cərrahları vaxtaşırı olaraq buraya gəlib xəstələri müayinə və müalicə edirlər. Aparılan quruculuq işlərinin tərkib hissəsi kimi uşaq bağçalarının tikilməsi, əsaslı təmiri, onların hər cür avadanlıqlarla təchizi təqdirəlayiq işlərdəndir.

Rayonda görülən işlər sırasında su-kanalizasiya xəttinin çəkilişini xüsusi qeyd etmək lazımdır. Yaşı çox-çox qədim olan Masallı şəhərində içməli su və kanalizasiya xətləri olmayıb. Əhali onilliklər, yüzilliklər boyu bu sahədə primitiv, sanitariya qaydalarına uyğun gəlməyən üsullardan istifadə etməli olub. Regionların sosial-iqtisadi inkişafının III Dövlət Proqramı çərçivəsində həlli vacib olan bu mühüm məsələ də öz həllini tapdı. Prezident İlham Əliyev 3 sentyabr 2016-cı il tarixdə Masallıya səfəri çərçivəsində bu layihənin açılışı mərasimində iştirak etdi. Həmçinin Prezident "Asan Həyat" kompleksinin, Bayraq meydanı, Azərbaycan Dövlət Rəmzləri Muzeyi, Tarix-Diyarşünaslıq Muzeyi və Uşaq İncəsənət Məktəbinin açılışını bildirən lentləri kəsdi. Bütün bu deyilənlər isə 2018-ci ilə kimi bu cənub şəhərində görülən işlərin yalnız bir hissəsidir. İnkişaf, tərəqqi iqtisadiyyatın, sosial həyatın bütün sahələrini əhatə etmişdir. İşlər yaxşı olanda insanın da kefi kök, əhvali-ruhiyyəsi yüksək olur. İstəyir ki, qurub-yaratdıqlarını başqaları da görsün, ona qiymət versin. İndi Masallıda qonaqları qəbul etməyə, milli adət-ənənə nümunələrini onlara göstərməyə hər cür şərait var. Rayonun qızlardan ibarət "Halay" folklor ansamblı dünyanın çox ölkəsini gəzmişdir. Buna görə də 2012-ci ildə Masallı şəhəri Respublika Mədəniyyət Nazirliyi tərəfindən "Folklor paytaxtı" elan edildi və 3 il dalbadal burada 14 ölkənin qatıldığı Beynəlxalq folklor festivalı keçirildi.

### Ötən ilin nəticələri də yaddaqalandır

III Dövlət Proqramının sonuncu ili də Masallı rayonu üçün çox əlamətdar hadisələrlə başa çatdı. Belə ki, keçən ilin dördüncü rübündə bir neçə xarici tikinti şirkətinin iştirak etdiyi, ümumi uzunluğu 243 kilometr olan Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolu istifadəyə verildi. Bu, cənub bölgəsi əhalisinin, eləcə də Masallı camaatının illər boyu ürəyindən keçən arzusunun gerçəkləşməsidir. İndi hər bir Masallı sakini yeni çəkilmiş rahat, təhlükəsiz yolla Bakı şəhərinə bir saat yarıma çatır. Masallı Sənaye Məhəlləsi, "Masallı Nemətləri" MMC-nin çəltik emalı müəssisəsi, 32 min nəfər əhalinin yaşadığı 22 yaşayış məntəqəsinə xidmət edən Şatıroba-Hişkədərə-Miyankü-Kubin-Birinci Səmidxanlı-Xallıcalı-Eminli-Məmmədxanlı yolunun tikilib istifadəyə verilməsi belə xoş hadisələrdəndir. Prezident 2018-ci il sentyabrın 18-də Masallıya səfəri zamanı bu obyektlərin açılışı mərasimində iştirak etmiş, Viləş çayının şəhər hissəsində yeni salınan Park-Bulvar kompleksinin tikintisi ilə tanış olmuşdur.

Məlum olduğu kimi, yanvarın 29-da regionların sosial-iqtisadi inkişafı III Dövlət Proqramının (2014-2018-ci illər) yerinə yetirilməsinin yekunları ilə əlaqədar konfrans keçirildi. Prezident İlham Əliyev bu dövr ərzində görülən işləri təhlil etdi, qarşıdakı vəzifələri müəyyənləşdirdi. Konfransda Masallı rayon İcra Hakimiyyətinin başçısı R.Hüseynova da söz verildi. O dedi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası bütün bölgələrdə olduğu kimi, Masallı rayonunun inkişafına da güclü təkan verib. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərdən qat-qat çox iş görülüb. Axırıncı beş ildə rayonda 572 istehsal və xidmət obyekti istifadəyə verilib, müasir çəltik zavodu işə salınıb, "EMBAWOOD" mebel fabrikində və Kərpic zavodunda yeni istehsal sahələri yaradılıb, sənaye məhsulu istehsalı 77 faiz artıb. Azərbaycan brendi ilə hər il Masallıdan xarici ölkələrə 15 milyon manatlıqdan çox sənaye məhsulları ixrac olunur. Keçən il təhsil, səhiyyə, mədəniyyət, idman sahələrində də müsbət nəticələr əldə olunmuşdur.

### Aqrar sektor aparıcı sahə olaraq qalır

Masallı respublikamızın ən az ərazisi olan rayonlarındandır. Burada yaşayan 225 min əhalinin 90 faizi kəndlərdə məskunlaşmışdır və əsasən, kənd təsərrüfatı ilə məşğul olur. Odur ki, bu sahənin inkişaf etdirilməsi prioritet sahə kimi qarşıya qoyulmuşdur. Hazırda burada ixtisaslaşma aparılması, region üçün ənənəvi olan əkin sahələrinin genişləndirilməsi, eləcə də kooperasiyaların yaradılması istiqamətində tədbirlər davam etdirilir. Bunun nəticəsidir ki, son illər əhalinin ənənəvi sahələrdən olan çəltikçilik və tütünçülüyə marağı xeyli artmışdır. Belə ki, keçən il 301 hektar çəltik sahəsindən 1010 ton məhsul əldə edilmiş və hər hektarın məhsuldarlığı təqribən 33,5 sentner təşkil etmişdir. Tütün əkinləri əvvəlki illərlə müqayisədə artaraq 35 hektara çatdırılmış və 56,4 ton qurudulmuş tütün tədarük olunmuşdur. Baramaçılığa gəldikdə isə 2018-ci ildə 78 qutu barama toxumu rayonun ayrı-ayrı kəndləri üzrə 33 kümçü ailəsinə paylanmış, 3 min 405 kiloqram barama istehsal edilmişdir. Təhvil verilən yaş baramaya görə istehsalçılara "Azər-ipək" ASC tərəfindən 13 min 195 manat vəsait ödənilmişdir. Bununla yanaşı, onlara dövlət tərəfindən 16 min 450 manat subsidiya verilmişdir. Sahənin inkişafı ilə əlaqədar rayonda keçən il Çin Xalq Respublikasından gətirilmiş 2 min tut ağacı əkilmişdir.

2019-cu ildə əkilməsi nəzərdə tutulmuş 17 min 478 hektarda artıq şum işləri başa çatdırılmışdır. 7 min 495 hektarda buğda, 2 min 786 hektarda arpa, 2 min 661 hektarda vələmir, 118,4 hektarda digər bitki növləri əkilmişdir.

Rayon ərazisində 21 hektar üzüm, 17 hektar feyxoa və 29 hektar müxtəlif növ meyvə bağları var. Sığdaş kəndi ərazisində 0,5 hektar, Köhnə Alvadı kəndi ərazisində 1 hektar naringi, Güllütəpə ərazisində 3,2 hektar yeni fındıq bağı salınmışdır. Kolatan inzibati ərazisindəki Sığaçola massivində "Azərsun Holdinq" şirkəti tərəfindən yeni salınan çay plantasiyaları 100 hektara çatdırılmışdır.

Ötən il 420 nəfər arıçının bank hesabına 7 min 424 arı ailəsinə görə dövlət tərəfindən 74 min 240 manat vəsait köçürülmüşdür.

Rayonda heyvandarlığın inkişafı ilə bağlı tədbirlər görülmüş və bu iş davam etdirilməkdədir.

Ümumilikdə Masallı rayonu üzrə aqrar sahənin inkişaf etdirilməsi məqsədilə 2018 - 2023-cü illər üçün proqram hazırlanmışdır. Buna uyğun olaraq 23 min 700 hektar torpaq sahəsi dövriyyəyə cəlb olunacaqdır ki, bu da 40 min nəfər kənd əhalisi üçün yeni iş yerlərinin yaradılmasına şərait yaradacaqdır.

### Rəqəmlər nədən xəbər verir

Əvvəlki illərdə olduğu kimi, keçən il də rayon ərazisində və eləcə də Masallı şəhərində tikinti-quruculuq, abadlıq işləri davam etdirilmişdir. Prezident İlham Əliyevin 18 sentyabr 2018-ci il tarixli sərəncamı ilə ayrılmış 3 milyon manat vəsait hesabına Puşkin, Tələt Şıxəliyev, Elşad Hüseynov, Ziya Bünyadov, Cavanşir, İsrafil Məmmədov küçələrində, həmçinin Heydər Əliyev və Bakı prospektlərində təmir işləri başlanılmışdır. 9 küçədə yol yatağına asfalt örtük döşənmiş, səkilər təzələnmiş, işıqlandırma sistemləri yenidən qurulmuş, hasarlar çəkilmişdir. Küçə və prospektlərdə bordür və üzlük qoyulmuşdur. Keçən il ümumilikdə 31 küçədə təmir işləri aparılmışdır. Qarabağ küçəsində yerləşən 10 kommunal yaşayış binasının blok və fasadlarında, habelə rayon mərkəzindəki Cümə məscidində təmir işləri başa çatdırılmış, ayrı-ayrı ərazilərdə mərasim evləri tikilmiş, daxili imkanlar hesabına kəndarası yolların müəyyən hissəsi təmir olunmuşdur.

Keçən il Xallıcalı kəndində 96, Təkdam kəndində 80 şagird yerlik modul tipli məktəblərin tikintisi başa çatdırılmışdır. Göyəçöl, Şıxlar və Bala Təklə kəndlərində isə məktəb tikintisi davam etdirilir.

Son illərdə rayonda infrastruktur şəbəkəsinin inkişaf tempi yüksəlməkdə və genişlənməkdədir. Belə ki, Masallı Elektrik Şəbəkəsi tərəfindən 10/04 kilovoltluq xətlərdə təmir-bərpa işləri aparılmış, əhalini dayanıqlı enerji ilə təmin etmək və itkilərin qarşısını almaq məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir. Masallı-Yardımlı yolunun Ərkivan qəsəbəsindən keçən hissəsində 340 dəmir dayaq dəyişdirilmiş, 7 min 200 metr uzunluğunda xətt SİP kabeli ilə əvəz edilmişdir. Bunlardan əlavə, Musaküçə, Təklə, Əhmədli, Qızılağac, Hüseynhacılı kəndləri üzrə 53 min 153 metr SİP kabeli çəkilmiş, 2 min 400 yeni dayaq basdırılmışdır. Digər yaşayış məntəqələrində də lazımi təmir-bərpa işləri aparılmışdır.

Dövlət Proqramı çərçivəsində keçən il Güllütəpə kəndində 460, Tatyan kəndində 324 abonentə təbii qaz verilmiş, bununla da rayon üzrə qazdan istifadə edən abonentlərin sayı 39 min 485 nəfərə çatdırılmışdır. Rayon üzrə qazlaşdırma 97 faiz təşkil edir. Hazırda rayondakı 103 yaşayış məntəqəsindən 90-ı qazlaşdırılıb və qalan 13 kəndin "mavi yanacaq" alması üçün müvafiq işlər görülür.

Sahibkarlığın inkişafına göstərilən diqqət və qayğı nəticəsində keçən il rayonda yeni sənaye müəssisələrinin işə salınması davamlı xarakter almışdır. Belə ki, Sahibkarlığa Kömək Milli Fondu tərəfindən rayonda fəaliyyət göstərən sahibkarlara 18 layihə üzrə 374 min manat kredit verilmişdir. Fəaliyyət dairəsinin genişləndirilməsi nəticəsində 65 yeni iş yeri açılmışdır.

2018-ci il ərzində rayona 12 layihə üzrə 13 milyon 162 min manat həcmində investisiya cəlb edilmiş, bunun da hesabına 260 yeni iş yeri yaradılmışdır. Ümumilikdə isə keçən il 2 min 644 yeni iş yeri açılmışdır ki, bunun da 2 min 197-si daimidir.

### Görüləsi işlər hələ çoxdur

Arzudan arzu doğur. Biri başa çatmamış digəri yaranır. Həyatın, yaşamağın da mənası budur. Belə olmasaydı, həyat da mənasız olar, çox yeknəsəq görünərdi. İnsanın özündən sonra nə bir izi qalardı, nə də bir sözü. Bu mənada bir-birinin ardınca qəbul edilən regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları insanlara öz potensiallarını, nəyə qadir olduqlarını göstərməyə stimul vermişdir. "Həyatda qəhrəmanlıq üçün həmişə meydan var" kəlamı indiki şəraitdə özünü bir daha təsdiqləyir. Dövlət proqramları çərçivəsində istehsalatda, digər sahələrdə uğur qazanan, yüksək nəticələrə nail olan insanlar hər il dövlət başçısının sərəncamları ilə fəxri adlara layiq görülür, orden və medallarla təltif olunurlar.

Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı Prezident İlham Əliyevin 29 yanvar 2019-cu il tarixli fərmanı ilə təsdiq edilmişdir. Qəbul olunmuş bu iqtisadi-siyasi sənəd bütün regionlarda olduğu kimi, yeni mərhələdə Masallının tərəqqisi, yüksəlişi üçün də yeni üfüqlər açmışdır. Sayca dördüncü olan həmin Proqram çərçivəsində Masallı rayonunda həlli vacib olan layihələr həyata keçiriləcək, onun iqtisadi qüdrəti daha da artacaq, əhalinin sosial rifah halı yüksələcəkdir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***











## İmadəddin Nəsimi - 650



# SON SƏFƏR

Povest

*Hüseynbala MİRƏLƏMOV*

**(Əvvəli qəzetin 31 yanvar, 2, 5, 6 və 7 fevral tarixli nömrələrində)**

Seyid Əli və Şahxəndan axşama kimi Gülnaz xalanı gözlədilər. Toran çalanda qonşulardan kimsə xəbər gətirdi ki, yazıq arvad oğlu ilə birlikdə yoxa çıxıb.

Seyid Əli ümidsizlik içində yırğalana-yırğalana pilləkənə çökdü.

Şahxəndan dedi:

- Yaxşı, özünü üzmə.
- Bunu necə bilək?
- Nəyi necə bilək?
- Hüsniyyəyə toxunub-toxunmadıqlarını...
- Sübh tezdən gedib hər şeyi öyrənərəm.

Gecə hava bürkü idi. Azacıq da olsa meh əsmirdi. Seyid Əli ilə Şahxəndan eyvanda - yerlərinin içində uzansalar da, gözlərinə yuxu getmirdi. Xüsusilə şairlər şairi hey ufuldayır, o böyrü-bu böyrü üstə çevrilirdi. Fikirləşirdi ki, İbrahim şah olmasaydı, onu da qətlə yetirər, ya da qovub didərgin salardılar. Bəs birdən İbrahim şahın başına bir iş gəlsə, ya da o, bir neçə günlüyə harasa getsə, vəziyyətləri necə olacaq? Budur, qulluqçu arvadı oğurlayıblar. Görəsən öldürməyiblər ki? Sabah necə olsa, bir səs çıxacaq. Çıxmasa, müsəllim Müqtədir Oğuzun yanına gedib demək lazımdır. Səhər də bir açılır ki...

Yalnız gecə gecədən keçəndən sonra onları yuxu tutdu...

Səhər Şahxəndandan fərqli olaraq, şairlər şairi çox gec oyandı. Yerindən dik qalxdı və çığırdı:

- Şahxəndan!

Həyətdən səs gəldi:

- Eşidirəm.
- Günorta olub. Məni niyə oyatmamısan?
- Evdə yox idim. İndi gəlmişəm.

Şairlər şairi təəccüblə soruşdu:

- Hara getmişdin?

Şahxəndan mənalı-mənalı güldü:

- Gecə sənə söz verdim axı. Hüsniyyəgilə getmişdim.

Şairlər şairi yerindəcə quruyub qaldı:

- Nə danışırsan? Elə şey olar?
- Vallah.
- Hüsniyyəni görə bildin?
- Əlbəttə.
- Danışdın?
- Əlbəttə.

Şairlər şairi tələsik geyinib həyətə düşdü.

- Sən nə dedin, o nə dedi?

Şahxəndan alnını ovuşdura-ovuşdura:

- Dedim ki, qardaşım dərdindən dəli-divanə olub. Gecələr də yata bilmir. Gülüb dedi ki, "mən də onu sevirəm, evlənməyə də razıyam, ancaq bir şərtim var".

Şairlər şairi az qaldı ki, durduğu yerdəcə yıxılsın. Özünü güclə toparlayıb:

- Nə şərti var? - dedi.
- Deyir ki, evlənəndən sonra Şamaxını bir də tərk etməyəcək.
- Bəs sən nə dedin?
- Dedim ki, razıyıq.
- Mənim rəyimi öyrənmədən?
- Dadaş, sən rəyini gəldiyin gün bildirdin, dedin ki, evlənəcəksən. Bir də sənin üçün Hələb müridləri əzizdir, yoxsa Hüsniyyə?

Seyid Əli indi birdən-birə gördü ki, qardaşı başına örpək örtüb, odur ki, təəccüblə soruşdu:

- Bu nədir?
- Bəs Səlminaz xanımın qəsrinə xəlvəti necə gedib-gələ bilərdim?

Şairlər şairi ufuldadı:

- Daha sənə sözüm yoxdur. İndi əhvalat necə olubsa, danış.
- Deməli, səhər-səhər bir qız uşağı - məlumun olsun ki, bu qız uşağı mənəm - Səlminaz xanımın qəsrinin qapısını döyür. Qapını yekəpər nökər açıb təəccüblə soruşur:
- Ay qız, nə var? Kim lazımdır?
- Hüsniyyə xanım üzük sifariş vermişdi, onu gətirmişəm.
- Hanı, ver görüm.
- Verə bilmərəm. Tapşırıblar ki, ancaq özünə ver.

Nökər "qızın" üzünə, üst-başına baxır. Sonra:

- Yaxşı, burda gözlə, - deyib gedir.

Hüsniyyə xanım otağında saçlarını darayırmış. Qapı döyüləndə:

- Kimsən, gəl, - deyir.

Nökər:

- Xanım, bir qız uşağı sizin sifariş verdiyiniz üzüyü gətirib, - deyir.

Hüsniyyə əvvəlcə:

- Üzük? Nə üzük? - desə də, sonradan məsələnin nə yerdə olduğunu başa düşüb deyir: - Hə, hə, yadıma düşdü, de ki, gəlsin.

Nökər - adı Balamirzə imiş - gedir, bir az sonra qapı açılır, "qız" içəri girir.

Şahxəndan birdən-birə söhbətin üslubunu dəyişdi:

- Hüsniyyə o dəqiqə mənim oğlan olduğumu hiss etdi və gülə-gülə dedi: - Səni tanıdım, Seyid Əlinin yanında olan oğlansan. Bəlkə qardaşısan, hə?
- Bəli, xanım, - dedim. - Sizə aşiq olan Seyid Əli İmadəddin Nəsiminin qardaşı Şahxəndan hüzurunuzdadır.

Hüsniyyə xanım qəşş edib güldü.

- O Şahxəndan ki, - dedim, - qardaşının sizə həsr etdiyi qəzəllərin üzünü köçürməkdən barmaqları qabar olub.

Hüsniyyə xanım yenə qəşş eləyib güldü. Dedim:

- Xanım, yaxşı bilirsiniz ki, qardaşım hələ mədrəsədə oxuyarkən sizi sevib. Hələbdən də Şamaxıya yalnız sizi görmək arzusu ilə gəlib. Dünən qəbiristanlıqda sizi görəndən sonra halbahal oldu. Düşünürəm ki, görüşsəniz, pis olmaz. Doğrudur, hər ikiniz cavansınız, buna baxmayaraq, Leyli-Məcnun olmaq dövrünüz keçib. Ümid edirəm ki, ağıl yardımçınız olacaq. Nə vaxt, harada görüşməyi bir məktubla çatdıra bilərsiniz...

Sonra ayağa qalxıb, örpəyimi bağladım, qapıdan çıxanda Səlminaz xanımla üz-üzə gəldim.

- Boy, bu qız kimdir? - Səlminaz xanım təəccübləndi.

Mən səsimi incəldib dedim:

- Salam və xudahafiz.

Cəld həyətə düşdüm. Qapıdan çıxanda nökər arxamca bir xeyli baxdı, dönüb ona da əl elədim.

- Hə, - deyə şairlər şairi başını yırğaladı. Hiss olunurdu ki, gərgindir. Birdən soruşdu: - Bəs Gülnaz xaladan nə xəbər?
- Yəqin, indilərdə gələr.

Axşama kimi Gülnaz xaladan yenə səs-soraq çıxmadı. Axırda Şahxəndan əlacsız qalıb onlara getdi. Aradan bir az keçmişdi ki, balaca bir qız uşağı həyət qapısını açıb içəri girdi. Qaçalan hürdü. Seyid Əli itə acıqlanıb qıza sarı gəldi:

- Bala, kimsən, nə istəyirsən?

Qız soruşdu:

- Əmi, siz Seyid Əlisiniz?
- Bəli.

Qız qoynundan bir kağız çıxartdı:

- Alın. Hüsniyyə xanım göndərib.

Nəsiminin boğazı qurudu. Kağızı alıb:

- Sağ ol, - dedi və evə tərəf gedə-gedə dönüb geri baxanda qızın uzaqlaşdığını gördü. Kağızı açdı. İri hərflərlə yazılmışdı: "Sabah, yəni çərşənbə axşamı qaranlıq düşəndə Hacı Veysəlin arvad hamamının arxasındakı qırmızı kərpicli evin qapısını taqqıldadarsan". Vəssəlam. Cəmi-cümlətanı bir cümlə, heç bir imza da yox...

❖ ❖ ❖

Şamaxıya axşam düşürdü. Hacı Əzimin azan səsi yenə məhəlləni başına götürmüşdü və şairlər şairinə elə gəldi ki, göydə axışan qırmızı bulud karvanı deyil, Hüsniyyənin təxti-rəvanıdır. Budur, o, yəni Yer üzünün qənirsiz gözəli təxti-rəvandan düşüb ona sarı gəlir, pilləkənlər isə qurtarmaq bilmir ki, bilmir. Nəhayət, günəş batdı və qızıl donlu xəyal əriyib yox oldu...

Bəlkə bütün bunlar Suriya səhralarında dəvə belində gördüyü yuxulardan biridir? Yox, kağız parçası - məktub əlində idi və o, qeyri-ixtiyari pıçıldadı:

Zərquriyadan oldu yoxsul əgər Nəsimi,
Yarın məhəbbətindən gör kim nə möhtəşəmdir.

❖ ❖ ❖

Bu vaxt qapı açıldı və Şahxəndan tövşüyə-tövşüyə içəri girdi. Nəsimi xəyaldan ayrıldı:

- Nə oldu, Gülnaz xalanı görə bildin?
- Hə, oğlu ilə şam edirdi.
- Allaha çox şükür! Neçə gündür harda imiş?
- Sabah özü gəlib danışacaq.
- Vəssəlam?
- Ta nə olasıdı ki?

Şahxəndan qardaşının əlindəki kağızı görüb dedi:

- O nədir?

Şairlər şairi gülümsədi. Şahxəndan yenə soruşdu:

- Hüsniyyədən məktub gəlib? Ver baxım...

Şairlər şairi əlindəki məktubu Şahxəndana verdi.

Şahxəndan məktubu oxuyub güldü:

- Gördün? Elçiliyi də bacarır. Amma bilmirəm Şirvan şairləri bunu necə həzm edəcəklər. Nə qədər gizlətsək də, əvvəl-axır biləcəklər.
- İş-işdən keçəndən sonra qorxusu yoxdur.
- Yox, dadaş, paxıllıq heç vaxt ölmür. Ölür e... ancaq sahibi ilə bir yerdə.
- Mənim paxıllıq çəkənlərim şairlərdilər, çoxdular... Təsəvvür et: Şamaxıda hər üç pinəçidən, hər üç dəlləkdən, hər üç kisəçidən biri şairdir.
- Dadaş, sənin hürufiliyin mənim də heç xoşuma gəlmir.
- Niyə? Birinci dəfədir səndən belə söz eşidirəm.
- Vallah, tamam mənasız şeydir. Mən Qurani-Kərimin üzünü o qədər köçürmüşəm ki, az qala, bütün ayətlərini əzbər bilirəm. Orda heç bir yerdə yazılmayıb ki, insanın üzündə Allahın adı nəqş olunub.

Şairlər şairi hirsindən qızardı.

Şahxəndan davam etdi:

- Yazırsan ki, guya, insanın üzündə yeddi xətt var: iki qaş, dörd kirpik, bir saç. Hə, nə olsun? Sonra bığ, saqqal, çənə, dodaq... Vallah, gülməlidir.

Şairlər şairi gülümsündü və pıçıltıyabənzər bir səslə dedi:

- Balası, yazılanlar yazılıb və məğribdən məşriqə yayılıb...

Elə bu vaxt qapı açıldı və Gülnaz xala içəri girdi. Şahxəndan qaçıb kətil gətirdi:

- Xala, əyləş, bir əməlli-başlı danış görək neçə gündür hardasan?

Gülnaz xala nəfəsini dərib dedi:

- Məni də, yetim balamı da gözübağlı vəziyyətdə faytona mindirdilər. Hara aparıldığımızı bilmədik. Aparanlar kimlərdi, yenə bilmədik. Üzü niqablı adamlar idi.

Şahxəndan həyəcanlandı:

- Bəs niyə qışqırıb hay-küy salmadınız?
- Xəncəri böyrümə dirədilər, özü də dedilər ki, cınqırını çıxarsan, səni də, oğlunu da öldürəcəyik. Amma dediyimizə əməl eləsən, heç nə olmamış kimi qayıdacaqsan evinə.
- Yaxşı, səndən tələbləri nə idi ki? - Şahxəndan bir də soruşdu.
- Seyid Əliyə çatdırım ki, əgər Hüsniyyə ilə evlənmək fikrinə düşsə, öldürüləcək.

Şahxəndan təəccüblə:

- Elə bu? - dedi.
- Hə, başına dönüm.
- Evdə də deyə bilərdilər bunu.

Şairlər şairi fikirdən ayıldı:

- Yox, istəyiblər ki, həm Gülnaz xalanı, həm də bizi qorxutsunlar, güclərini göstərsinlər... Mən bu məsələni ya müsəllim Müqtədir Oğuza, ya da İbrahim şahın özünə çatdırmalıyam ki, tədbir görsünlər. Çünki bu, yaxşı şeyə oxşamır.

❖ ❖ ❖

Səhəri gün Seyid Əli bir fayton tutub saraya yollandı. O, yol boyu elə hey öz-özünə deyinirdi: "Sabah elə Hüsniyyəni də bu cür tutub aparalar..."

Faytonçu şairlər şairinin öz-özünə danışdığını eşidib, arabir çönüb arxaya baxırdı, amma, təbii ki, heç nə demirdi...

Seyid Əli saray darvazasının qabağında faytondan düşdü. Gözətçilər onu görən kimi:

- Şair gəldi, şair gəldi! - deyə birbirlərinə xəbər verdilər.

Nəhayət, içəridəki baş nəzarətçinin işarəsi ilə darvaza açıldı, müşavir Dərbəndinin uzunsov başı göründü. O, həqiqətən də, gələnin Seyid Əli olduğunu görəndən sonra yanında hazır dayanmış sərbaza işarə etdi.

Seyid Əli içəri girib, mərmər pilləkənlərlə üzüyuxarı qalxmağa başladı. Müşavir Dərbəndi bir kəlmə belə kəsmədən onu qəbul otağının məsul nəzarətçisi Məlik Qızılbaşa təhvil verdi. O, qonaqdan gözləməyi xahiş edib içəri girdi.

Başdan-başa Şirvan xalıları döşənmiş böyük otaqda İbrahim şah kiçik nərdivanla çıxıb rəfdəki kitablara baxırdı. O, qapının aralandığını görüb nərdivandan endi:

- Məlik Qızılbaş, gəl görüm nə olub? - dedi.
- Şah sağ olsun, İmadəddin Nəsimi gəlib.
- Nə əcəb belə tezdən?
- Deyir, təcili deyiləsi sözü var.
- Yaxşı, qoy gəlsin.

Məlik Qızılbaş İmadəddin Nəsimiyə dedi:

- Buyur keç, İbrahim şah həzrətləri səni gözləyir.

İmadəddin içəri girən kimi İbrahim şah soruşdu:

- Xeyirdimi, şair?

Seyid Əli yüngülcə təzim edib dedi:

- Əlahəzrət, vallah, mən bilmirəm neyləyim.
- De görüm axı nə olub?
- Dünən qulluqçumuzu oğurlayıblar...
- Nə? Nə?
- Oğlunu da oğurlayıblar... Gözlərini də bağlayıblar ki, hara aparıldıqlarını bilməsinlər...
- Bəs sonra?
- Sonra qulluqçunu da, oğlunu da buraxıblar.
- Məqsədləri nə imiş?
- Mənim Şamaxını tərk etməyimi tələb ediblər.
- Deməli, belə...

İbrahim şah bunu deyib acıqlı halda üzünü qapıya tərəf tutub çığırdı:

- Məlik, bu dəqiqə müsəllim Müqtədir Oğuzu hüzuruma çağır!

Qapının ağzında dayanmış Məlik Qızılbaş:

- Baş üstə! - deyib getdi.

İbrahim şahın sifəti birdən-birə mehribanlaşdı, Seyid Əli İmadəddin Nəsiminin qoluna girib, onu kitab rəflərinə sarı apardı:

- Bir az əvvəl, yəni sən gəlməmişdən Suriyalı Əbül Fərəcin kitabını axtarırdım. Çox ağıllı və hazırcavab mütəfəkkirdir. Bilmirəm, bələdliyin var, ya yox?
- Var. Hətta Hələbdə onun xələflərindən biri ilə görüşmüşəm də.

İbrahim şah heyrət içində dedi:

- Eləmi? Xoşbəxt adamsan! Yəqin ki, böyük sələfi kimi, o da çox müdrik və hazırcavab adamdı, hə?
- Bəli, çox hazırcavab adamdı.

İbrahim şahla Seyid Əli Hələb və Şam mütəfəkkirləri barədə söhbət edə-edə yavaş-yavaş çölə açılan qapıya tərəf getdilər və yarımdairəvi, üstüörtülü bir eyvana çıxdılar. İbrahim şah dedi:

- Yaxşı gəlmisən. Birlikdə təam edərik. Süfrə hazırdır.
- Şah sağ olsun, mən elə indicə qəlyanaltı etmişəm...
- Belə tez? Özü də subay oğlan... - Sonra amiranə tərzdə: - Əyləş! - dedi.

Seyid Əli əyləşdi. Elə "Bismillah" deyib əllərini süfrəyə uzatmışdılar ki, qapı açıldı və Məlik Qızılbaş göründü:

- Əlahəzrət, müsəllim Müqtədir Oğuz qulluğunuzda müntəzirdir.
- Qoy gəlsin.

İbrahim şah bunu deyib üstünə yağbal sürtdüyü çörək tikəsini ağzına aparanda şairlər şairi keçmiş əkinçinin əlində hələ də qabar izinin qaldığını görüb təəccübləndi. Çünki bu neçə ildə o bu qabarın əriyib getməsinə asanlıqla nail ola bilərdi. Deməli, o, keçmişdə rəncbər olmasından qətiyyən utanmırdı...

İbrahim şah ağzındakı tikəni çeynəyə-çeynəyə tələsmədən dedi:

- Mənim Əbül Fərəcin çox lətifəsindən xoşum gəlir. Birini xüsusilə tez-tez yadıma salıb gülürəm.

Şairlər şairi onun hansı lətifəni nəzərdə tutduğunu bilsə də, dinmədi və:

- O hansı lətifədir? - deyə maraq içində soruşdu.

Bu vaxt müsəllim Müqtədir Oğuz içəri girdi. İbrahim şahın üzündəki təbəssüm bir anda yox oldu. O, qəzəbindən kükrədi:

- Heç bilirsən şəhərində nələr baş verir?

Müsəllim Müqtədir Oğuz çox sakit bir tərzdə:

- Əlbəttə, şahım, - dedi.
- Eləmi? Onda de görüm...
- İmadəddin Nəsimiyə qarşı sui-qəsd təşkilatı yaranıb.

İbrahim şah kinayə ilə:

- Sən də durub qıraqdan seyr edirsən, hə? Gözləyirsən ki, bir gün sənin özünü də oğurlayıb aparsınlar?
- Xeyr. Onları bir qədər qabağa buraxdım ki, kim olduqlarını öyrənim.
- Öyrəndinmi?
- Öyrəndim.
- Kimlərdir?
- Şair Bəhluli, Rouşan Yaqbu, Qulaməli, Qaim Şirvani, Tacəddin Şirvani, Əhməd Kəsirəddin, Molla Xəlil, dəllək Zəbani, falçı Yusif Səbai, lotu İsfəndiyar Qutluk, iki gündür Bakidən gəlib onlara qoşulan şair Abdulla Kamil.
- Aha, - deyə İbrahim şah əsəbi halda dilləndi. - Əgər bu gün bu adamlar Şirvanın ən böyük şairinə qarşı belə fitnə-fəsad törədirlərsə, kim zəmanət verə bilər ki, sabah daha pis işlər görməyəcəklər? Sən bunları niyə həbs edib zindana atmırsan?

Bu yerdə, deyəsən, müsəllim Müqtədir Oğuzun səbri tükəndi, amma o, bunu rənginin qızarmağından başqa heç nə ilə büruzə verməyib, sakit tərzdə dedi:

- Əlahəzrət, onların arasında mənim casuslarım var. Niyyətlərindən dərhal xəbər tuturam.
- Çox gözəl. Onda de görüm növbəti niyyətləri nədi?
- Onların, hələlik, əsas niyyətləri şairin sevdiyi xanımla evlənməsinə imkan verməmək və şəhəri tərk etməsinə nail olmaqdır. Bunu xüsusilə Baki şairləri adından Abdulla Kamil tələb edir.

İbrahim şah bu sözdən sonra Seyid Əli İmadəddin Nəsimiyə tərəf dönüb gülümsəyə-gülümsəyə dedi:

- Deməli, evlənməyə hazırlaşırsan? Xeyirli olsun. Bəri başdan deyim ki, ağıllı iş görürsən.

Şairlər şairi yüngülcə qızardı. İbrahim şah gözünü ondan çəkmədən:

- Çox yaxşı, çox gözəl! - dedi. Sonra təzədən müsəllim Müqtədir Oğuza tərəf dönüb, yenə sərt bir şəkildə dedi: - Elə bu gün şairə sui-qəsd hazırlayanların hamısını zindana atırsan. Ayaqlarını da kündələyirsən, heç kimi də yanlarına buraxmırsan.

Müsəllim Müqtədir Oğuz təzim etdi:

- Baş üstə! Bu gecə hamısı həbs olunacaq.
- Gecə niyə? Gündüz həbs etmək olmaz ki?
- Şah sağ olsun, indi onların hərəsi bir yerdədi, axtarmaq, tapmaq, qovmaq, tutmaq... camaat rəncidə olar... Gecə isə səssiz-səmirsiz...
- Yaxşı, əməliyyat qurtaran kimi mənə xəbər ver.
- Baş üstə!
- Gedə bilərsən, - sonra üzünü Seyid Əliyə tutdu: - Şair, səncə, bu Qara Yusiflə Miranşahın davası hələ çox çəkər?
- Yəqin ki...
- Vay... Vay... Vay... xəzinədə pul qalmır ey... Yaxşı, əcnəbi elçilərlə görüşüm olmasaydı, oturub doyunca söhbət edərdik. Amma bizi toya dəvət etməyi unutma.

Şairlər şairi güldü:

- Şah sağ olsun, bu yaşda nə toy?
- Bax da...

**(Ardı var)**

# Gecikmiş yazı

### 27 il əvvəl ermənilərin qətlə yetirdiyi məktəbli Şahvəlǝdin qısa həyat hekayəti

**Bu** qeydlər 27 il əvvəl qələmə alınmalı idi. 1992-ci il iyunun 25-də Tovuzun Ermənistanla sərhəddə yerləşən Ağdam kəndinin məktəbli sakini Şahvələd Süleymanovu yağı düşmən qətlə yetirəndə... Ağdam kəndinin sakinlərinə "dost, kirvə" deyən, onların süfrəsində çörək kəsən, bağının, bostanının barından bəhrələnən və sonra da belə namərdliklər edən nankorların hərəkəti aləmə yayılmalı idi. Dünya ictimaiyyəti həm də uşaq qatili olan bu qatı cinayətkarların daha bir yaramazlığından xəbər tutmalı idi...



Lakin o zamanlar vəziyyət çox gərgin idi. Düşmən aramsız olaraq kəndə atəş açırdı, hücum çəkirdi. Başıpapaqlılar bir nəfər kimi ayağa qalxıb sinəsini yurda sipər etmişdi. Məmmədalı Tağıyev, Mirəziz Əzizov (onların hər ikisi sonralar şəhid oldu), İsa Əliyev, Namiq Yusifov, Rəhman Çervonoğlu və kəndin onlarla digər sakini gecə-gündüz dağlarda, çöllərdə idilər - düşmənə aman verməmək üçün!

Şahvələdin anası Alagöz Süleymanova deyir ki, hər addımbaşı şəhid verirdik. Təkcə torpağı müdafiə edənlər deyil, dinc sakinlər də yaralanırdı. Camaat birləşib bir yumruğa dönmüşdü. Dərdimizi elliklə çəkirdik. Mən də öz dərdimi kəndlilərimin dərdindən ayırmadım. Düşündüm ki, itki bütün hallarda ağırdır - itirdiyin doğman, əzizin uşaq da, cavan da, qoca da olsa...

Alagöz xanım sözü tükənibmiş kimi susur. Şahvələdin böyük qardaşı, kənd orta məktəbinin müəllimi İlham Süleymanov əlavə edir:

- O vaxt Qarabağda, digər sərhəd bölgələrində baş verən hadisələr də bir an yadımızdan çıxmırdı. Bütün kənd hələ də Xocalı faciəsinin kədərini yaşayırdı. Şahvələdi düşmən belə bir dövrdə qətlə yetirdi və ailəmiz onu digər bölgələrdə öldürülən, itkin salınan, yerlə yeksan edilən onlarla azərbaycanlı uşaqdan ayırmadı, seçmədi, ümumi bir dərd yaşadıq...

Anası və qardaşı kimi, bacısı Təranə də Şahvələddən danışmağa çətinlik, sözün əsl mənasında, əzab çəkir. Əvəzində kənd sakinləri bu balaca qəhrəmanı yaxşı xatırlayır və ehtiramla yad edir, haqqında ağızdolusu danışırlar.

Onlar "qəhrəman" sözünü gəlişigözəl olduğu üçün işlətmirlər. Demə, düşmən kəndə soxulmağa can atdığı gündən Şahvələd tez-tez döyüşçülərin yanına qaçırmış. Evləri kəndin lap kənarında - düşmənlə sərhədin yaxınlığındadır. "Yaxınlığında" demək bəlkə də azdır. Yolun bu tərəfi Şahvələdgilin həyəti idi, o biri tərəfi üzüdönük qonşuların bağı...

Keçmiş döyüşçü Rasim Hüseynov söyləyir ki, biz onu yanımızdan az qala qovurduq. Deyirdik ki, ay Cuqqu (yəni balaca), burada sənin nə işin var, get dəftər-kitabınla məşğul ol. Gedirdi və bir də görürdün günün isti vaxtı bizə bardaqda sərin su gətirdi, süfrəyə büküb azuqə gətirdi...

Vaxtından tez böyümüşdü. Bu da səbəbsiz deyildi. Atası Ələddin dünyasını dəyişəndə Şahvələd hələ ilk addımını atmamışdı, ilk kəlməsini deməmişdi - bir yaşı vardı. Böyüdükcə ailənin yaxın köməkçisinə çevrilmişdi. Sonra böyük qardaşı şəhərə ali təhsil dalınca getdiyindən evin ağırlığı onun çiyinlərinə düşmüşdü. Odur ki, çox düşünüb mexanizator olmağa qərar vermişdi. Arzusu traktorçu olmaq, doğma torpağı şumlamaq, əkib-becərmək idi. Bu məqsədlə də səkkizinci sinfi bitirib sənədlərini Tovuzdakı 155 nömrəli texniki peşə məktəbinə təqdim etmişdi. Nə yazıqlar ki, oxuyub o məktəbi bitirmək ona qismət olmadı - namərd gülləsi aman vermədi.

...Yazın-yayın gəlişi ilə ətraf bağlar yamyaşıl dona bürünmüşdü. Ermənilər bundan istifadə edir, üzümlüklərin arası ilə tülkü kimi sivişə-sivişə kəndə yaxınlaşır və oradan atəş açırdılar. Ağaclar, həyətlərdəki gül kolları, çöldə artıq qurşağa çatan çalınmamış ot Ermənistanın Bert rayonu tərəfindən kəndə susamış həmin tülküləri görməyə, müşahidə etməyə imkan vermirdi. Ona görə də kişilər bağları bir qədər budamağı, otu çalmağı qərara aldılar. Şahvələd də bir kərənti götürüb onlara qoşuldu. O da özünü bir evin kişisi hesab edirdi... Xeyli işləyib dağılışdılar. Şahvələd isə hələ də burada, evlərinin alt tərəfində idi. Həmin gün düşmənin atdığı ilk güllə onun tale payına düşdü. Beləcə, Şahvələdin qısa və şərəfli ömür tarixçəsi bitdi.

Qəhrəmanlıq, xoş, xeyirxah əməllər isə heç vaxt bitmir, unudulmur. Ağdam kəndinin Şəhidlər xiyabanında uyuyan Şahvələd Süleymanovun məzarı üstünə ilin bütün fəsillərində çiçəklər düzülür. Buraya keçmiş döyüşçülər, Şahvələdin artıq yaşa dolmuş sinif yoldaşları, doğmaları, bugünkü yeniyetmə və gənclər, kəndin bütün sakinləri və qonaqları gəlir.

Ağdam kəndi düşmənlə təmas xəttində - monitorinq zonasında yerləşdiyindən buraya vaxtaşırı beynəlxalq missiyaların nümayəndələri də gəlirlər. Ömrünün on beşinci baharını yaşamağa macal tapmayan o gülərüz oğlanın məzar daşından boylanan şəklini, yəqin ki, onlar da görüblər. Təkcə bu faktın özü də - həyətinin otunu çalan balaca oğlanın vəhşicəsinə qətlə yetirilməsi erməni vandalizminə ən əyani misallardan biri deyilmi?!.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Şəhid ailələri dövlətin qayğısı ilə hərtərəfli əhatə olunmuşlar





Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Prezident İlham Əliyevin imzaladığı 19 aprel 2018-ci il tarixli fərmanı şəhidlərimizə və onların ailə üzvlərinə dövlət tərəfindən göstərilən diqqət və qayğının daha bir bariz nümunəsidir.

Həmin fərmana əsasən 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə müəyyənləşdirilmiş qaydada 11 min manat məbləğində birdəfəlik ödəmənin verilməsinə başlanılmışdır ki, bu da şəhid ailələrinin böyük razılığına səbəb olmuşdur.

Bu fərman Qazax rayonunda da minnətdarlıqla qarşılanmışdır. Dağlıq Qarabağ müharibəsi başlayandan 285 şəhid verən Qazaxda 7 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Rayonda vətənin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizə, onların ailə üzvlərinə böyük hörmət və ehtiramla yanaşılır. Şəhidlərin uyuduqları məzarlıqlar, xatirələrinə ucaldılmış abidələr yenidən qurulmuş, ehtiram əlaməti olaraq küçə və meydanlara onların adları verilmişdir. Şəhərin mərkəzində yerləşən Şəhidlər xiyabanı tamamilə yenilənmişdir. Bu gün rayona gələn qonaqlar da qürur yeri olan bu müqəddəs məkana gedir, məzarları ziyarət edir, üstlərinə gül dəstələri qoyurlar. Rayonda keçirilən bütün tədbirlər də şəhid məzarlarının ziyarəti ilə başlayır, məktəblilər mütəmadi olaraq Şəhidlər xiyabanına gələrək onların doğum və anım günlərini qeyd edirlər.

Rayon rəhbərliyi də müntəzəm olaraq şəhid ailələri ilə görüşür, onların problemləri ilə maraqlanır. Elə bu günlərdə rayon icra hakimiyyətində keçirilən növbəti görüşdə də bir çox məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Görüşdə çıxış edənlər bildirdilər ki, dövlət başçısının şəhidlərimizin, onların ailə üzvlərinin ünvanına söylədiyi dəyərli fikirlər bir daha sübut edir ki, vətənin azadlığı uğrunda canından keçən bütün oğul və qızlarımızın xatirəsi hər zaman əziz tutulur. Onların ailələrinə, yaxınlarına, doğmalarına göstərilən qayğı dövlətimizin daim diqqət mərkəzindədir.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın bu yaxınlarda şəhid ailələri ilə keçirdikləri görüşdən söz açmış, dövlət başçısının şəhidlərimizin, onların ailə üzvlərinin ünvanına söylədiyi dəyərli fikirlərdən ətraflı söz açaraq demişdir ki, həmin görüş bir daha onu sübut etdi ki, vətənin azadlığı uğrunda canından keçmiş bütün oğul və qızlarımızın xatirəsi hər zaman əziz tutulacaq.

Şəhid ataları, Quşçu Ayrım kəndinin sakinləri Aslan Pirvəliyev, Abbas Mirzəyev, Qaymaqlı kəndinin sakini, şəhid anası Lilpar Bəşirova, Qazax şəhər sakini, şəhid anası Kifayət Mustafayeva və başqaları onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərinə minnətdarlıq edərək demişlər ki, şəhid ailələri ilə keçirilən hər bir görüş onlarda dövlətimizə və dövlət başçısına böyük inam və məhəbbət yaradır.

Görüşdə bu il fevralın 1-dən şəhid ailələrinə verilən Prezident təqaüdünün məbləğinin 58 manat artırılaraq 300 manata çatdırılması da yüksək qiymətləndirilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Milli Qəhrəman Mübariz İbrahimovun anım tədbirləri keçirilib





Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən fevralın 7-də Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun doğum günü münasibətilə hərbi hissələrdə və xüsusi təyinatlı tədris müəssisələrində anım mərasimləri keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi qulluqçular Mübariz İbrahimovun II Fəxri Xiyabandakı məzarını ziyarət edərək önünə gül dəstələri qoyublar.

Vətənimizin azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərin xatirələri bir dəqiqəlik sükutla yad edilib, məzarları üzərinə tər güllər düzülüb.

Tədbirlərdə çıxış edənlər Milli Qəhrəmanın həyat yolundan danışıb, onun göstərdiyi şücaət və qəhrəmanlıqdan bəhs ediblər. Qeyd olunub ki, Mübariz qısa ömür yaşasa da, canını Vətən yolunda fəda etməsi ilə özündən sonrakı gənclərə örnək olacaq şanlı bir yol və ad-san qoyub gedib.

Tədbir çərçivəsində məktəblilər Milli Qəhrəmanın xidmət etdiyi hərbi hissədə olub, Müdafiə Nazirliyinin hərbi qulluqçuları isə Mübariz İbrahimovun ailəsinə baş çəkərək valideynləri ilə görüşüblər.

# Sahibkarların "Azərişıq" ASC-yə müraciətlərinin sayı artıb

Yanvar ayında sahibkarlıq obyektlərinin elektrik şəbəkəsinə qoşulması üçün "ASAN xidmət", "ASAN Kommunal" və KOB evləri vasitəsilə "Azərişıq" ASC-yə 239 müraciət daxil olub. Sahibkarların elektrik şəbəkəsinə qoşulmaqla bağlı müraciətlərinin sayının artması müşahidə olunub ki, bu, heç də səbəbsiz deyil. Belə ki, ötən ilin dekabr ayının 25-də Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" növbəti fərman imzalanıb və fərmana əsasən şəbəkəyə qoşulma müddəti 24 gündən 20 günə, prosedurlar isə 3-dən 2-yə endirilib.



Bununla yanaşı, yanvar ayında 3280 vətəndaş evinə, bağına və ya həyətinə işıq çəkdirmək üçün müraciət edib. Sənədlərdə uyğunsuzluq və bu kimi hallar istisna olmaqla, həm sahibkarların, həm də vətəndaşların müraciətləri yerinə yetirilib. Bundan başqa, yanvar ayında "Azərişıq" ASC-nin "ASAN xidmət" və "ASAN Kommunal" vasitəsilə göstərdiyi xidmətlər sırasına iki xidmət də əlavə olunub. "Çoxmənzilli binalarda yaşayış mənzillərinin qeydiyyata alınması" və "Elektrik təchizatının layihələndirilməsi və quraşdırılması" xidmətləri də əlavə olunmaqla "Azərişıq" ASC-nin "ASAN xidmət" və "ASAN Kommunal" vasitəsilə göstərdiyi xidmətlərin sayı 15-ə çatdırılıb. Ümumilikdə isə yanvar ayı ərzində "Azərişıq" ASC-yə "ASAN xidmət" və "ASAN Kommunal" vasitəsilə 20766 müraciət daxil olub.

*"Azərbaycan"*

# Azərbaycanın Milli Qəhrəmanı, şəhid Çingiz Qurbanovun ailəsi Qusarda yeni evlə təmin olunub





Azərbaycanın Milli Qəhrəmanı, şəhid Çingiz Qurbanovun ailəsi Qusar şəhərində yeni evlə təmin olunub.

AZƏRTAC xəbər verir ki, fərdi yaşayış evi Prezident İlham Əliyevin tapşırığı ilə inşa edilib. Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunan yeni evin açarları fevralın 7-də Qurbanovlar ailəsinə təqdim olunub.

Bu münasibətlə keçirilən mərasimdə Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov çıxış edərək bildirib ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən Milli Qəhrəman Çingiz Qurbanovun ailəsinə dövlət tərəfindən hərtərəfli diqqət və qayğı göstərilir. Dövlət başçısının göstərişinə əsasən, sosial təminatının gücləndirilməsi məqsədilə Ç.Qurbanovun ailəsi həm Bakı şəhərində mənzil, həm də Qusarda fərdi yaşayış evi ilə təmin edilib.

Bildirilib ki, fərdi yaşayış evinin tikilməsi üçün Qusar şəhərinin Şəmsəddin Piroğlanov küçəsində 10 sot həyətyanı torpaq sahəsi ayrılıb. Yeni tikilən birmərtəbəli, dördotaqlı evin ümumi sahəsi 230 kvadratmetrdir. Ev müasir istilik sistemi ilə təmin olunub. Həyətyanı torpaq sahəsinin 6 sotunda meyvə bağı salınıb.

Milli Qəhrəmanın atası Salman Qurbanov ailəsi adından onlara hər cür dəstək göstərən Prezident İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya minnətdarlığını bildirib. Torpaqlarımızın azadlığı uğrunda canından keçən oğlu ilə fəxr etdiyini deyən S.Qurbanov bildirib ki, dövlət başçısı Çingizin qəhrəmanlığını, fədakarlığını, Vətənə bağlılığını layiqincə qiymətləndirərək, ona Azərbaycanın Milli Qəhrəmanı adını verib. Çingiz və onun kimi Vətən oğullarının xatirəsi qəlbimizdə daim yaşayacaq.

Mərasimdə çıxış edənlər Milli Qəhrəman Çingiz Qurbanovun qısa, lakin şərəfli ömür yoluna nəzər salıb, ölkəmizdə Vətən uğrunda şəhid olan hər bir hərbi qulluqçunun adının əziz tutulduğunu, ailələrinin isə dövlət səviyyəsində diqqət və qayğı ilə əhatə olunduğunu qeyd ediblər. Bildirilib ki, Azərbaycanın şanlı döyüş salnaməsinə yeni səhifə yazan Milli Qəhrəman Çingiz Qurbanov öz igidliyi ilə hər bir hərbi qulluqçu üçün örnəkdir. Hazırda ordumuzun sıralarında Çingiz kimi yüzlərlə, minlərlə igid oğullar var və onlar ölkəmizin ərazi bütövlüyünü təmin etmək üçün Ali Baş Komandanın əmrlərinə hər an hazırdırlar.

Məlumat üçün qeyd edək ki, Çingiz Qurbanov 1994-cü il noyabrın 24-də Qusarın Həzrə kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra təhsilini Azərbaycan Texniki Universitetində davam etdirib. 2016-cı ildə həmin universitetin məzunu olan Çingiz Qurbanov iyul ayında həqiqi hərbi xidmətə yollanıb. 2016-cı il dekabrın 29-da Ermənistan silahlı qüvvələrinin kəşfiyyat qrupunun təxribat-pozuculuq fəaliyyətinin qarşısını alarkən baş vermiş döyüşdə şəhid olub. Şəhidin cəsədi 2017-ci il fevralın 5-də qarşı tərəfdən alınıb. Bakıda təntənəli vida mərasimi keçirildikdən sonra Ç.Qurbanov fevralın 6-da doğulduğu Qusar rayonunda dəfn edilib.

2017-ci il fevralın 7-də Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi igidliyə görə əsgər Çingiz Qurbanova ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adının verilməsi barədə sərəncam imzalayıb. Onun adı Qusar şəhərində bir küçəyə və Həzrə kəndində vaxtilə təhsil aldığı tam orta məktəbə verilib.


## Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası

*2018-ci ilin yekunlarına görə Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun illik maliyyə hesabatlarının audit olunması xidmətinin satın alınması məqsədilə*

**kotirovka sorğusu elan edir**

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının inzibati binasına, Bakı şəhəri, Bülbül pr. 27 ünvanına (əlaqələndirici şəxs: Maliyyə və satınalmalar idarəsinin satınalmalar üzrə aparıcı mütəxəssisi Rüstəm Kərimov, telefon: +99412 493-50-58/285: Faks: +99412 498-12-14.) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 15 fevral 2019-cu il saat 11:00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Təqdim olunan qiymət kotirovkaları üzrə zərflər 15 fevral 2019-cu il saat 16:00 tarixdə Maliyyə Bazarlarına Nəzarət Palatasının inzibati binasında açılacaqdır.

İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

● **Təqdim edilməli sənədlər:**

Malgöndərənin (podratçının) hüquqi şəxs kimi dövlət qeydiyyatına alınması haqqında şəhadətnamənin və nizamnaməsinin notariat qaydasında və ya "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində müəyyən edilmiş qaydada təsdiq edilmiş surətləri.

● **Tələblər:**

- Şirkətin ən azı 5 il iş təcrübəsi olmalıdır;
- Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun tərtib edilməlidir;
- MDB-yə daxil olan ölkələrdə maliyyə nəzarət orqanının audit yoxlama təcrübəsi olmalıdır;
- ACCA sertifikatlarına sahib olan ən azı 3 nəfər əməkdaşı ştatda mövcud olmalıdır;
- Satınalma müqaviləsi bağlandığı tarixdən sonra növbəti iş günü icraçı xidmətə başlamalıdır;
- Malgöndərən (podratçı) tərəfindən maliyyə nəticələrinə dair hesabat **29 mart 2019-cu il** tarixədək təhvil verilməlidir.

***Tender komissiyası***



*Təkrar*

## Bakı Şəhər İcra Hakimiyyəti "Yaşıl Teatr" Bakı Konsert Kompleksi tədbirlərin keçirilməsinin satın alınması məqsədilə

***açıq tender elan edir***

LOT-1 - Valideyn himayəsindən məhrum olmuş uşaq evlərində və xüsusi uşaq bağçalarında Novruz bayramı tədbirinin keçirilməsi və uşaq bağçalarında Novruz bayramı ilə bağlı digər işlərin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları yüksək kadr potensialına, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər 200 manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri Sona Vəlixanlı-1 ünvanından ala bilərlər. Əlaqələndirici şəxs: Cavadov İlqar Əziz oğlu; tel: 492-46-34.

**Kapital Bank Səbail filialı**
**Kodu: 200059**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**SWIFT: AİİBAZ2X**
**"Yaşıl Teatr" Bakı Konsert Kompleksi**
**H/H: AZ05AIIB33070019443501623105**
**VÖEN: 1700779931**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflər açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1(bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 01 mart 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş, ikiqat zərfdə 12 mart 2019-cu il saat 17:00-a qədər "Yaşıl Teatr" Bakı Konsert Kompleksinə (ünvan: Sona Vəlixanlı küç.-1) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri 13 mart 2019-cu il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

***Tender komissiyası***



## Bakı Şəhər İcra Hakimiyyəti "Yaşıl Teatr" Bakı Konsert Kompleksi tədbirlərin keçirilməsinin satın alınması məqsədilə

***açıq tender elan edir***

**LOT-1** 01 iyun 2019-cu il - Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar tədbirlərin keçirilməsi.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları yüksək kadr potensialına, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər 200 manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Sona Vəlixanlı 1 ünvanından ala bilərlər. Əlaqələndirici şəxs; Cavadov İlqar Əziz oğlu, tel:492-46-34.

**Kapital Bank Səbail filialı**
**Kodu: 200059**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**SWIFT: AİİBAZ2X**
**"Yaşıl Teatr" Bakı Konsert Kompleksi**
**H/H: AZ05AIIB33070019443501623105**
**VÖEN: 1700779931**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflər açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1(bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 15 mart 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş, ikiqat zərfdə 29 mart 2019-cu il saat 17:00-a qədər "Yaşıl Teatr" Bakı Konsert Kompleksinə (ünvan: Sona Vəlixanlı küç. 1) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri 01 aprel 2019-cu il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

***Tender komissiyası***



*Təkrar*

## Bakı Şəhər İcra Hakimiyyəti Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsi uşaq bağçaları və uşaq evləri üçün ümumi maddələr üzrə malların satın alınması məqsədilə

***açıq tender elan edir***

LOT-1 - Dəftərxana ləvazimatı və təsərrüfat malları
LOT-2 - İdarənin digər xərcləri
LOT-3 - Cari təmir
LOT-4 - Kommunal və kommunikasiya xərcləri
LOT-5 - Yumşaq inventar
LOT-6 - Bərk inventar
LOT-7 - Avadanlıqların alınması
LOT-8 - Digər alış və xidmətlər
LOT-9 - Abadlaşdırma xidməti
LOT-10 - Digər maşın və avadanlıqlar
LOT-11 - Sair xərclər
LOT-12 - Uşaq bağçaları, körpələr evi-uşaq bağçaları, xüsusi uşaq bağçaları və uşaq evləri üçün müxtəlif növ idman ləvazimatlarının və müxtəlif növ oyuncaqların satın alınması
LOT-13 - elektrotexniki avadanlıqlara texniki xidmət göstərilməsi, ehtiyat hissələrinin dəyişdirilməsi, yenisi ilə əvəz olunması və kartriclərin dolumu
LOT-14 - Ayağa geyilən gigiyenik salafan (baxıl)
LOT-15 - Uşaq bağçaları və uşaq evləri üçün elektrik avadanlıqlarının təmiri
LOT-16 - Mətbəə xərcləri üzrə malların satın alınması
LOT-17 - Uşaq bağçalarında və uşaq evlərində dezinfeksiya işlərinin yerinə yetirilməsinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları yüksək kadr potensialına, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər 1-12-ci LOT-lar üzrə 250 manat, 13-cü LOT üzrə 100 manat, 14-17-ci LOT-lar üzrə 200 manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri İstiqlaliyyət küçəsi-18 ünvanından ala bilərlər. Əlaqələndirici şəxs: Məmmədova Raya Yusif qızı; tel:492-53-06.

Dövlət Xəzinədarlıq Agentliyi
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Məktəbəqədər Təhsil Müəssisələri İdarəsi**
**İBAN H: AZ27CTRE00000000000002518337**
**VÖEN: 1701374451**
**Büdcə səviyyəsinin kodu: Fond 7Y**
**Büdcə Təsnifatının kodu: 142340**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflər açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 01 mart 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş, ikiqat zərfdə 12 mart 2019-cu il saat 17:00-a qədər Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinə (ünvan: İstiqlaliyyət küç.-18) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri 13 mart 2019-cu il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

***Tender komissiyası***

*Təkrar*

# İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti

## *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçiriləcəkdir.**

**LOT-1:** Mətbəə məhsullarının hazırlanması və çapı işlərinin satın alınması

Tender iştirakçıları "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq yuxarıda göstərilən LOT üzrə öz tender təkliflərini möhürlənmiş, imzalanmış və ikiqat bağlamada yazılı surətdə təqdim etməlidirlər.

**Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:**

*- aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, iddiaçının bu sahədə səriştəsi, maliyyə vəziyyəti.*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Görüləcək işlər satınalma müqaviləsinin qüvvəyə mindiyi gündən 12 iş günü ərzində icra edilməli və hazır məhsul satınalan təşkilata Bakı şəhəri, H.Zərdabi pr. 88A ünvanda təhvil verilməlidir.

Tenderlə əlaqədar məlumat almaq üçün maraqlananlar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Xəlilli Elçin Hüseyn oğlu,**
**tel/faks: 497-79-66**
**Ünvan: AZ 1012, Bakı şəhəri, H.Zərdabi pr. 88A**

**Maraqlananlar Azərbaycan dilində tərtib edilmiş əsas şərtlər toplusunu LOT-1 üzrə 250 manat məbləğində iştirak haqqını ödədikdən sonra yuxarıda göstərilən ünvandan ala bilərlər.**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:

***Təşkilatın adı: İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti***

**VÖEN: 1302126941**
**Bank rekvizitləri: Dövlət Xəzinədarlıq Agentliyi**
**H/H: AZ80CTRE00000000000002788401**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Büdcə səviyyəsinin kodu: 7**
**Büdcə təsnifatının kodu: 142340**

Tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır. Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 40 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır);*
*- iddiaçıların son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **28 fevral 2019-cu il saat 18:00-dək,** tender təklifi və bank təminatını isə möhürlənmiş və ikiqat zərfdə **11 mart 2019-cu il saat 18:00-dək** İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təkliflər **12 mart 2019-cu il saat 10:00-da** Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətində (ünvan: AZ 1012, Bakı şəhəri, H.Zərdabi pr. 88A) açılacaqdır.

Təklif zərflərinin açılışında iddiaçıların səlahiyyətli nümayəndələri də iştirak edə bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

*Təkrar*

# "Bakı Metropoliteni" QSC Kontaktorların satın alınması üzrə

## *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: İlqar Qasımov, telefon: 490-00-91) ala bilərlər.

**LOT-1 Kontaktorların satın alınması**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**İştirak haqqı 1 LOT üzrə - 100 manat**
**Hesab: AZ98AZRT38050019440010268002**
**VÖEN 1402871431**
**Bank: AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı)**
**Kodu: 501361**
**VÖEN: 9900006111**
**M/H: AZ02NABZ01350100000000022944**
**SWIFT: AZRTAZ22**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barəsində bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı gündən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
*- iddiaçının son bir il ərzindəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının son bir il ərzindəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının sürəti;*
*- Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanı tərəfindən arayış;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (Tender təklifi və bank zəmanəti istisna olmaqla) 26 fevral 2019-cu il saat 18:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş, ikiqat zərfdə 06 mart 2019-cu il saat 17:00-a qədər Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 07 mart 2019-cu il saat 15:30-da "Bakı Metropoliteni" QSC-nin akt zalinda, Tender komissiyasının iclasında, Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri Tender komissiyasının iclasında iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

# "Bakı Metropoliteni" QSC-də deratizasiya, dezinfeksiya və dezinseksiya işlərinə dair xidmətin göstərilməsinin satın alınması üzrə

## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan, (əlaqələndirici şəxs: İlqar Qasımov telefon: 490-00-91) ala bilərlər.

**LOT-1. "Bakı Metropoliteni" QSC-də deratizasiya, dezinfeksiya və dezinseksiya işlərinə dair xidmətin göstərilməsi**
**iştirak haqqı - 200 manat**
**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN):**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR-TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **26 fevral 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **06 mart 2019-cu il saat 17:00-a** qədər, Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **07 mart 2019-cu il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

# Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

## *açıq tenderə dəvət edir*

Tender 2 LOT üzrə keçirilir:

**LOT 1 ONT (1xPOTS, 4xEthernet) modem və SC UPC Fast konnektorun satın alınması**

**LOT 2 "Public Free Wi-Fi" Ictimai internet avadanlıqlarının satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**LOT 1. 150 (bir yüz əlli ) manat iştirak haqqını**
**LOT 2. 150 (bir yüz əlli ) manat iştirak haqqını**

sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bank: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**VÖEN: 9900037711**
**M/H: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər 01 mart 2019-cu il saat 17:00-dək aşağıdakı sənədləri "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*
*10. Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə 12 mart 2019-cu il saat 17:00-a qədər "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru 13 mart 2019-cu il saat 15:00-da "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs:**
**Məmmədov Faiq, tel.: (+994 12) 498-39-29**

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

## *Bakı Şəhər İcra Hakimiyyəti Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsi körpələr evi, körpələr evi-uşaq bağçaları, xüsusi uşaq bağçaları və uşaq evləri üçün əməkhaqqı uçotunun avtomatlaşdırılması, kompüter proqramına illik proqram xidmətlərinin göstərilməsinin kotirovka üsulu ilə*

## *satın alınmasını həyata keçirir*

Maraqlanan şəxslər 492-53-06 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Satınalma prosedurunda iştirak etmək üçün sənədlər 12.02.2019-cu il tarixinə qədər qəbul olunur.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

Gədəbəy Rayon İcra Hakimiyyəti nəqliyyat vasitələrinə ehtiyat hissələrinin və inzibati binada təmir işlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.

Maraqlanan təşkilatlar (022) 326-01-47 telefon nömrəsi ilə əlaqə saxlaya bilər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 14 fevral 2019-cu il saat 15:00-a kimi qəbul olunur.

**Ünvan: Gədəbəy rayonu M.C.Paşayev küçəsi-3.**

***Tender komissiyası***

# Bakıda keçiriləcək dünya kuboku yarışlarına hazırlıq sürətlə davam edir




Batut gimnastikası və tamblinq üzrə dünya kubokunun başlanmasına qalan günlərin sayı azaldıqca yarış arenasında daha artıq canlanma hiss olunur. Belə ki, milli komandamızın üzvləri və təlim-məşq toplanışı üçün Bakıya gələn Qazaxıstan, Özbəkistan və Bolqarıstan komandaları Milli Gimnastika Arenasında məşqlərə start veriblər.

Azərbaycan Gimnastika Federasiyasından AZƏRTAC-a bildiriblər ki, fevralın 11-də arenada dünya kuboku yarışlarının yoxlama-məşq toplanışı keçiriləcək. Bu toplanışda Avstraliya, Yeni Zelandiya, İsveçrə və Gürcüstan komandalarının da iştirakı gözlənilir.

Xatırladaq ki, "Tokio 2020" Yay Olimpiya Oyunlarına batut gimnastikası üzrə təsnifat xarakterli dünya kuboku yarışlarında 31 ölkədən 300-ə yaxın gimnast mübarizə aparacaq.

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı İmamverdi İsmayılova əzizi

**TAMARA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev və Elman Məmmədov İmamverdi İsmayılova qayınanası

**TAMARA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi Gəncə şəhəri Nizami Rayon Məhkəməsinin sədri Rasim Kazımova atası

**SARI KAZIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin kollektivi Gəncə şəhəri Nizami Rayon Məhkəməsinin sədri Rasim Kazımova atası

**SARI KAZIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə Apelyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudov və məhkəmənin kollektivi Gəncə şəhəri Nizami Rayon Məhkəməsinin sədri Rasim Kazımova atası

**SARI KAZIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsinin sədri və məhkəmənin kollektivi Gəncə şəhəri Nizami Rayon Məhkəməsinin sədri Rasim Kazımova atası

**SARI KAZIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Atəşkəs rejimi 24 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistanın Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Yarımca, Ağdam rayonunun Cəvahirli, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8359
Sifariş 394
Qiyməti 40 qəpik